# AZƏRİQAZBANK SƏHMDAR İNVESTİSİYA BANKI

## 31 dekabr 2007-ci il tarixinə

## Beynəlxalq Maliyyə Hesabatı Standartları Maliyyə Hesabatları və Auditor Rəyi

# MÜNDƏRİCAT

MÜSTƏQIL AUDİTORUN RƏYİ

MALİYYƏ HESABATLARI

Balans Hesabatı ........ 1
Mənfəət və Zərər Hesabatı ........ 2
Səhmdar Kapitalında Dəyişikliklər Hesabatı ........ 3
Pul Vəsaitlərinin Hərəkəti Hesabatı ........ 4

Maliyyə Hesabatları üzrə Qeydlər

1 Giriş ........ 5
2 Bankın Əməliyyat Mühiti ........ 5
3 Əsas Uçot Prinsiplərinin Qısa Xülasəsi ........ 6
4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Mühasibat Təxminləri və Fərziyyələr ........ 13
5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara dair Şərhlərin Tətbiqi və Mühasibat Uçotu üzrə Yeniliklər ........ 14
6 Pul Vəsaitləri və Onların Ekvivalentləri ........ 16
7 Digər Banklardan Alınacaq Vəsaitlər ........ 17
8 Müştərilərə Verilmiş Kreditlər və Avanslar ........ 18
9 Satıla Bilən İnvestisiya Qiymətli Kağızları ........ 25
10 Assosiasiya Olunmuş Müəssisələrə İnvestisiya Qoyuluşu ........ 27
11 Binalar, Avadanlıqlar və Qeyri-Maddi Aktivlər ........ 28
12 Digər Maliyyə Aktivləri ........ 29
13 Digər Aktivlər ........ 29
14 Digər Banklara Ödəniləcək Vəsaitlər ........ 30
15 Müştəri Hesabları ........ 30
16 Buraxılmış Borc Qiymətli Kağızları ........ 31
17 Dövlət və Beynəlxalq Maliyyə Təşkilatlarından Alınmış Borc Vəsaitləri ........ 32
18 Digər Maliyyə Passivləri ........ 34
19 Digər Passivlər ........ 34
20 Nizamnamə Kapitalı ........ 34
21 Digər Ehtiyatlar ........ 35
22 Faiz Gəlirləri və Xərcləri ........ 36
23 Haqq və Komissiya Gəlirləri və Xərcləri ........ 36
24 Digər Əməliyyat Gəlirləri ........ 37
25 İnzibati və Digər Əməliyyat Xərcləri ........ 37
26 Mənfəət Vergisi ........ 38
27 Səhm üzrə Mənfəət ........ 39
28 Dividendlər ........ 40
29 Seqmentlər üzrə Təhlil ........ 40
30 Maliyyə Risklərinin İdarə Edilməsi ........ 43
31 Kapitalın İdarə Edilməsi ........ 55
32 Təəhhüdlər və Şərti Öhdəliklər ........ 56
33 Maliyyə Alətlərinin Ədalətli Dəyəri ........ 58
34 Maliyyə Alətləri Növlərinin Qiymətləndirmə Kateqoriyaları ilə Üzləşdirilməsi ........ 61
35 Derivativ Maliyyə Alətləri ........ 62
36 Əlaqəli Tərəflərlə Əməliyyatlar ........ 63

PRICEWATERHOUSECOOPERS

**PricewaterhouseCoopers**
**Eastern Europe B.V.**
**Azerbaijan branch**
The Landmark Office Plaza
5th floor, 96 Nizami Street
Baku AZ1010, Azerbaijan
Telephone [994] 12 497 25 15
Facsimile [994] 12 497 74 11
www.pwc.com

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

Azəriqazbank Səhmdar İnvestisiya Bankının İdarə Heyətinə:

1. Biz Azəriqazbank Səhmdar İnvestisiya Bankının ("Bank") 31 dekabr 2007-ci il tarixinə təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, səhmdar kapitalında dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından, eləcə də əsas uçot prinsiplərinin xülasəsindən və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

*Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti*

2. Hazırkı maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar daxildir: fırıldaqçılıq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin yaradılması, tətbiq edilməsi və davam etdirilməsi; müvafiq uçot siyasətinin seçilməsi və tətbiq edilməsi; və şəraitdən asılı olaraq məqbul uçot təxminlərinin irəli sürülməsi.

*Auditorun Məsuliyyəti*

3. Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamamızı Beynəlxalq Audit Standartları əsasında apardıq. Həmin Standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

4. Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

5. Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutu rəyimizi bildirmək üçün kifayət qədər əsas verir.

*Rəy*

6. Bizim rəyimizcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Bankın 31 dekabr 2007-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

PricewaterhouseCoopers Eastern Europe B.V. Azerbaijan branch

PraysvoterhausKupers İsten Yurop B.V. Azərbaycan filialı
Bakı, Azərbaycan Respublikası

2 aprel 2008-ci il

The firm is an authorised licensee of the tradename and logo of PricewaterhouseCoopers.

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2007 | 31 dekabr 2006 (düzəldilmiş) |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 24,305 | 15,056 |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | | 4,626 | 3,664 |
| Digər banklardan alınacaq vəsaitlər | 7 | 2,043 | 3,841 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 8 | 107,866 | 53,332 |
| Satıla bilən investisiya qiymətli kağızları | 9 | 386 | 4,082 |
| Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşu | 10 | 296 | 302 |
| Binalar və avadanlıqlar | 11 | 9,402 | 6,433 |
| Proqram təminatı və lisenziyalar | 11 | 275 | 210 |
| Cari mənfəət vergisi üzrə qabaqcadan ödəmələr | | 375 | - |
| Digər maliyyə aktivləri | 12 | 233 | 141 |
| Digər aktivlər | 13 | 6,971 | 234 |
| **CƏMİ AKTİVLƏR** | | **156,778** | **87,295** |
| **PASSİVLƏR** | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 14 | 12,902 | 272 |
| Müştəri hesabları | 15 | 96,115 | 57,442 |
| Buraxılmış borc qiymətli kağızları | 16 | 3,295 | 553 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 17 | 24,601 | 14,563 |
| Təxirə salınmış vergi öhdəliyi | 26 | 275 | 272 |
| Cari vergi öhdəliyi | | - | 395 |
| Digər maliyyə passivləri | 18 | 774 | 194 |
| Digər passivlər | 19 | 472 | 384 |
| **CƏMİ PASSİVLƏR** | | **138,434** | **74,075** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 20 | 12,000 | 9,000 |
| Bölüşdürülməmiş mənfəət | | 4,863 | 2,806 |
| Digər ehtiyatlar | 21 | 1,481 | 1,414 |
| **CƏMİ KAPİTAL** | | **18,344** | **13,220** |
| **CƏMİ PASSİVLƏR VƏ KAPİTAL** | | **156,778** | **87,295** |

1 aprel 2008-ci il tarixində İdarə Heyəti tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.

Cənab Azər Mövsümov
İdarə Heyətinin Sədri

Xanım Səkinə Xələfova
Maliyyə Nəzarəti Departamentinin Direktoru

| *Min Azərbaycan Manatı ilə* | **Qeyd** | **31 dekabr 2007-ci il tarixində tamamlanan il** | **31 dekabr 2006-cı il tarixində tamamlanan il** |
|---|---|---|---|
| Faiz gəlirləri | 22 | 15,295 | 8,686 |
| Faiz xərcləri | 22 | (6,913) | (3,653) |
| **Xalis faiz gəlirləri** | | **8,382** | **5,033** |
| Digər banklardan alınacaq vəsaitlər üzrə ehtiyatın (yaradılması)/qaytarılması | | (30) | 46 |
| Kreditlər üzrə ehtimal olunan zərər üçün ehtiyat | 8 | (1,409) | (878) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | | **6,943** | **4,201** |
| Haqq və komissiya gəlirləri | 23 | 4,754 | 3,555 |
| Haqq və komissiya xərcləri | 23 | (1,682) | (983) |
| Xarici valyuta ilə əməliyyatlar üzrə gəlir – zərər çıxılmaqla | | 1,104 | 554 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər – gəlir çıxılmaqla/(gəlir – zərər çıxılmaqla) | | (5) | 51 |
| Digər əməliyyat gəlirləri | 24 | 29 | 86 |
| İnzibati və digər əməliyyat xərcləri | 25 | (6,689) | (4,059) |
| Assosiasiya olunmuş müəssisələrin mənfəətində pay | 10 | (6) | 8 |
| **Vergidən əvvəlki mənfəət** | | **4,448** | **3,413** |
| Mənfəət vergisi xərci | 26 | (1,031) | (783) |
| **İl üzrə mənfəət** | | **3,417** | **2,630** |
| **İl ərzində Bankın səhmdarlarına düşən mənfəət üçün səhm üzrə mənfəət (AZN ilə):** | 27 | | |
| – Əsas | | 0.67 | 0.82 |
| – Sulandırılmış | | 0.63 | 0.75 |

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | Nizam-namə kapitalı | Bölüşdü-rülməmiş mənfəət | Digər ehtiyatlar (Qeyd 21) | Cəmi səhmdar kapitalı |
|---|---|---|---|---|---|
| **1 yanvar 2006-cı il tarixinə qalıq (əvvəlki hesabata görə)** | | **5,800** | **1,503** | **-** | **7,303** |
| Düzəlişin təsiri | | - | (270) | - | (270) |
| **1 yanvar 2006-cı il qalıq (düzəldilmiş)** | | **5,800** | **1,233** | **-** | **7,033** |
| Satıla bilən investisiya qiymətli kağızları üzrə ədalətli dəyər gəliri – zərər çıxılmaqla | 9 | - | - | 82 | 82 |
| Binaların yenidən qiymətləndirilməsi | 11 | - | - | 1,762 | 1,762 |
| Binalar və avadanlıqlar üzrə realizasiya olunmuş yenidən qiymətləndirmə ehtiyatı | | - | 24 | (24) | - |
| Kapitalda qeydə alınmış mənfəət vergisi | | - | - | (406) | (406) |
| Birbaşa olaraq kapitalda qeydə alınmış xalis mənfəət | | - | 24 | 1,414 | 1,438 |
| İl üzrə mənfəət | | - | 2,630 | - | 2,630 |
| 2006-cı il üzrə cəmi mənfəət | | - | 2,654 | 1,414 | 4,068 |
| Səhm emissiyası | 20 | 3,200 | - | - | 3,200 |
| Elan edilmiş dividendlər | 28 | - | (1,081) | - | (1,081) |
| **31 dekabr 2006-cı il tarixinə qalıq (düzəldilmiş)** | | **9,000** | **2,806** | **1,414** | **13,220** |
| Satıla bilən investisiya qiymətli kağızları üzrə ədalətli dəyər gəliri – zərər çıxılmaqla | 9 | - | - | 139 | 139 |
| Kapitalda qeydə alınmış mənfəət vergisi | | - | - | (31) | (31) |
| Binalar və avadanlıqlar üzrə realizasiya olunmuş yenidən qiymətləndirmə ehtiyatı | | - | 41 | (41) | - |
| Birbaşa olaraq kapitalda qeydə alınmış xalis mənfəət | | - | 41 | 67 | 108 |
| İl üzrə mənfəət | | - | 3,417 | - | 3,417 |
| 2007-ci il üzrə cəmi mənfəət | | - | 3,458 | 67 | 3,525 |
| Səhm emissiyası | 20 | 3,000 | - | - | 3,000 |
| Elan edilmiş dividendlər | 28 | - | (1,401) | - | (1,401) |
| **31 dekabr 2007-ci il tarixinə qalıq** | | **12,000** | **4,863** | **1,481** | **18,344** |

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2007-ci il tarixində tamamlanan il | 31 dekabr 2006-cı il tarixində tamamlanan il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Alınmış faizlər | | 14,691 | 8,007 |
| Ödənilmiş faizlər | | (6,408) | (3,153) |
| Alınmış haqq və komissiyalar | | 4,754 | 3,555 |
| Ödənilmiş haqq və komissiyalar | | (1,682) | (983) |
| Xarici valyuta ilə əməliyyatlardan əldə edilən gəlirlər | | 1,104 | 554 |
| Əldə edilmiş digər əməliyyat gəlirləri | | | 71 |
| İşçilərə ödənilmiş xərclər | | (3,220) | (1,739) |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | | (2,587) | (1,624) |
| Ödənilmiş mənfəət vergisi | | (1,829) | (741) |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **4,823** | **3,947** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | | |
| Məcburi ehtiyatlarda xalis artma | | (962) | (1,806) |
| Müştərilərə verilmiş kreditlər və avanslarda xalis artma | | (55,308) | (19,853) |
| Digər banklardan alınacaq vəsaitlərdə xalis azalma/(artma) | | 1,798 | (338) |
| Digər maliyyə aktivlərində xalis artma | | (92) | - |
| Digər aktivlərdə xalis artma | | (484) | (31) |
| Digər banklara ödəniləcək vəsaitlərdə xalis artma/(azalma) | | 12,630 | (29) |
| Müştəri hesablarında xalis artma | | 38,527 | 13,198 |
| Buraxılmış borc qiymətli kağızlarında xalis artma/(azalma) | | 2,742 | (28) |
| Digər passivlərdə xalis artma/(azalma) | | 88 | (19) |
| Digər maliyyə passivlərində xalis artma | | 580 | (299) |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **4,342** | **(5,258)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Satıla bilən investisiya qiymətli kağızlarının alınması | 9 | (44,834) | (23,801) |
| Satıla bilən investisiya qiymətli kağızlarının satışından daxilolmalar və onların ödənilməsi | 9 | 48,638 | 22,535 |
| Binalar və avadanlıqların alınması | 11 | (3,843) | (1,768) |
| Torpaqların alınması üçün qabaqcadan ödəmələr | 13 | (6,253) | - |
| Binalar və avadanlıqların satışından daxilolmalar | 11, 24 | 30 | 360 |
| Əldə edilmiş dividend gəlirləri | 24 | 19 | 13 |
| Assosiasiya olunmuş müəssisələrin alınması | 10 | - | (150) |
| Qeyri-maddi aktivlərin alınması | 11 | (101) | (59) |
| **İnvestisiya fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **(6,344)** | **(2,870)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitlərindən daxilolmalar | | 14,418 | 9,876 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitlərinin ödənilməsi | | (4,764) | (1,532) |
| Adi səhmlərin emissiyası | 20 | 3,000 | 3,200 |
| Ödənilmiş dividendlər | 28 | (1,381) | (1,063) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **11,273** | **10,481** |
| **Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri** | | **(22)** | **33** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma** | | **9,249** | **2,386** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | | 15,056 | 12,670 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **24,305** | **15,056** |

## 1 Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2007-ci il tarixində tamamlanan il üçün Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olaraq Azəriqazbank Səhmdar İnvestisiya Bankı ("Bank") üçün tərtib edilmişdir.

Bank Azərbaycan Respublikasında qeydiyyatdan keçmişdir və bu ölkədə fəaliyyət göstərir. Bank Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış məhdud məsuliyyətli səhmdar cəmiyyətidir.

***Əsas fəaliyyət növləri.*** Bankın əsas fəaliyyəti Azərbaycan Respublikasında kommersiya və fərdi bank əməliyyatlarının göstərilməsindən ibarətdir. Bank 1993-cü ilin yanvar ayından Azərbaycan Respublikası Milli Bankı ("ARMB") tərəfindən verilmiş ümumi bank lisenziyası əsasında fəaliyyət göstərir. Bank 29 dekabr 2006-cı il tarixli "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan əmanətlərin sığortalanması üzrə dövlət proqramında iştirak edir. Əmanətlərin Sığortalanması Fondu hər bir əmanət üzrə aşağıdakı qaydada 100% kompensasiya ödənilməsinə zəmanət verir:

- 1 yanvar 2008-ci ilədək - 4,000 AZN-dən çox olmayaraq;
- 1 yanvar 2008-ci ildən 1 yanvar 2010-cu ilədək – 6,000 AZN-dən çox olmayaraq;
- 1 yanvar 2010-cu ildən başlayaraq – 8,000 AZN-dən çox olmayaraq.

Bankın Azərbaycan Respublikasında on bir filialı vardır (2006: səkkiz filial).

***Bankın hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer.*** Bankın hüquqi ünvanı aşağıdakı kimidir:

Landau küçəsi 16,
AZ1073
Bakı, Azərbaycan Respublikası

***Əməliyyat valyutası.*** Hazırkı maliyyə hesabatlarındakı məbləğlər min Azərbaycan Manatı ( "AZN") ilə ifadə olunmuşdur.

## 2 Bankın Əməliyyat Mühiti

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər, o cümlədən milli valyutanın bir çox xarici ölkələrdə praktiki cəhətdən sərbəst dönərli valyuta hesab edilməməsi və nisbətən yüksək inflyasiya və güclü iqtisadi artım müşahidə olunmaqdadır. Azərbaycanın bank sektoru cəmiyyətin bu sektora olan inam səviyyəsinin azalmasına və iqtisadi şəraitin dəyişməsinə həssasdır və müntəzəm olaraq likvidlik səviyyəsinin azalması halları ilə rastlaşa bilər. Rəhbərlik bank sektoruna təsir göstərə biləcək bütün tendensiyaları, eləcə də onların Bankın maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq iqtidarında deyil.

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Bundan əlavə, Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların üzləşdiyi çətinliklərə müflisləşmə və iflas haqqında qanunverici bazanın təkmilləşdirilməsi zərurəti, rəsmiləşdirilmiş qeydiyyat və girovun hesabına borcların ödənilməsi prosedurlarının çatışmazlığı, eləcə də hüquqi və fiskal sistemlə bağlı digər çatışmazlıqlar daxildir. Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri Hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və pul islahatlarının effektivliyindən, eləcə də vergi, hüquq, normativ və siyasi sistemin inkişafından xeyli dərəcədə asılıdır.

Qlobal maliyyə bazarlarında bas verən hadisələr (ümumilikdə "kredit böhrani" adlandırılan) və onların təsiri, xüsusilə kredit bazarlarında likvidlik çatışmazlığı, bankların və yerli şirkətlərin maliyyə vəsaitlərini əldə edə bilməməsinə görə ölkədə iqtisadi artımın aşağı düşməsi və Bankın fəaliyyətinin qısa müddətə məhdudlaşması ehtimalı mövcuddur. 2007-ci ilin ikinci yarısından Amerikada kəskin ipoteka böhranı baş vermişdir. Bu böhranın təsiri Amerika bazarlarından kənara çıxmışdır. Belə ki, qlobal investorlar öz risklərini yenidən qiymətləndirmiş və nəticədə bu sabit mənfəət, kapital və derivativ bazarlarda qeyri-sabitliyə və likvidliyin aşağı düşməsinə səbəb olmuşdur. Ümumiyyətlə, kredit böhranının Azərbaycan iqtisadiyyatına təsiri qlobal maliyyə mənbələrindən daha çox asılı olan digər inkişaf etmiş ölkələrə nisbətən az olsa da, uzunmüddətli maliyyələşdirmə səviyyəsi aşağı düşmüş və beynəlxalq maliyyə təşkilatları tərəfindən ayrılan maliyyə vəsaitlərinin qiyməti artmışdır. Bundan əlavə, likvidlik səviyyəsinin aşağı olması Bankın debitorları və ya borcalanlarına da təsir göstərə bilər ki, bu da öz növbəsində onların ödəniş qabiliyyətinə təsir göstərə bilər.

## 2 Bankın Əməliyyat Mühiti (davamı)

Rəhbərlik maliyyə bazarlarında likvidlik səviyyəsinin gələcəkdə azalması və ya qeyri-sabitliyin artmasının Bankın maliyyə vəziyyətinə təsirini dəqiq şəkildə təxmin etmək iqtidarında deyil.

## 3 Əsas Uçot Prinsiplərinin Qısa Xülasəsi

***Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri.*** Hazırkı maliyyə hesabatları binalar və avadanlıqlar, eləcə də satıla bilən investisiya qiymətli kağızlarının yenidən qiymətləndirilməsi istisna olmaqla, Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olaraq ilkin dəyər prinsipinə əsasən hazırlanmışdır. Sözü gedən maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot prinsipləri aşağıda göstərilir. Həmin prinsiplər başqa hallar nəzərdə tutulmadıqda, təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir.

***Fasiləsiz fəaliyyət prinsipi.*** Rəhbərlik hazırkı maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən hazırlamışdır. Belə bir mülahizədən istifadə edərkən rəhbərlik Azərbaycanda fəaliyyət göstərən maliyyə təşkilatları üçün mövcud əlverişli makroiqtisadi şəraiti, pul vəsaitləri üzrə müsbət daxilolmaları, əməliyyatların gəlirliliyini və tələb olunduqda mövcud olan xarici maliyyə resurslarından istifadəni nəzərə almışdır. Hazırkı maliyyə hesabatları üzrə 30 saylı Qeyddə açıqlandığı kimi, 31 dekabr 2007-ci il tarixinə Bankın ən azı 1 il müddətinə qədər məcmu likvidlik çatışmazlığı vardır. Rəhbərlik cəlb edilmiş passivlərin məcmu likvidlik çatışmazlığı dövründə əvəz edilməsi üçün Bankın tələb olunan vəsaiti əldə edə biləcəyinə əmindir. Rəhbərlik hesab edir ki, 30 saylı Qeyddə açıqlanan bütün passivlərin ödəmə müddətinin başa çatacağı halda, səhmdarların davamlı dəstəyi və beynəlxalq maliyyə təşkilatlarının ayıracağı vəsait Bankın müvafiq resursları əldə etməsi üçün kifayət edəcəkdir.

***Assosiasiya olunmuş müəssisələr.*** Assosiasiya olunmuş müəssisələr Bankın əhəmiyyətli dərəcədə təsir göstərdiyi, lakin nəzarət etmədiyi müəssisələrdir; Bankın bu müəssisələrin səsvermə hüquqlu səhmlərində payı adətən 20%-50% təşkil edir. Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşları pay iştirakı üzrə uçot metoduna əsasən qeydə alınır və əvvəlcə ilkin dəyərdə əks etdirilir. Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşlarının uçotdan silinməsi nəticəsində yaranan gəlir və ya zərər satış tarixində mənfəət və zərər hesabatında qeydə alınır. Alqıdan sonra assosiasiya olunmuş müəssisələrin mənfəətində və zərərində Bankın payı mənfəət və zərər hesabatında, alqıdan sonra ehtiyatlardakı dəyişikliklərdə payı isə ehtiyatlarda qeydə alınır. Əgər assosiasiya olunmuş müəssisənin zərərində Bankın payı, onun assosiasiya olunmuş müəssisədəki payına, eləcə də hər hansı təminatsız debitor borclarına bərabər və ya ondan artıq olarsa, Bank yalnız həmin assosiasiya olunmuş müəssisənin adından üzərinə öhdəlik götürdüyü və ya ödənişlər etdiyi halda, gələcək zərərləri qeydə alır.

***Əsas qiymətləndirmə üsulları.*** Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər aktiv bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar Bank qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər. Maliyyə aləti aktiv bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb edə bilər. Bu fərziyyələrin hər hansı birinin mümkün alternativ variantla əvəz edilməsi nəticəsində mənfəət, gəlir, aktiv və passivlərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olacaq hallar barədə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

## 3 Əsas Uçot Prinsiplərinin Qısa Xülasəsi (davamı)

*İlkin dəyər* alqı tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitlərini və ya onların ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və *əməliyyat xərclərini* ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alqısı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə üzrə zərərlər üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və müvafiq aktiv və passivlərin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir (gəlir və xərclərin uçotu siyasətinə baxın).

***Maliyyə alətlərinin ilkin uçotu***. Mənfəət və zərər hesabatında ədalətli dəyərdə göstərilən dilinq əməliyyatları üçün qiymətli kağızlar, derivativlər və digər maliyyə alətləri əvvəlcə ədalətli dəyərdə qeydə alınır. Bütün digər maliyyə alətləri, dövlət və dövlət təşkilatlarından alınmış kreditlər istisna olmaqla, əməliyyat xərcləri də daxil olmaqla ədalətli dəyərdə qeydə alınır. Dövlət və dövlət təşkilatlarından alınmış kreditlər əvvəlcə əməliyyat xərcləri çıxılmaqla, alınmış vəsaitin məbləğində qeydə alınır.

İlkin uçot zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin uçot zamanı yaranan gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə alətlərinin bütün digər alqı və satışları ("müntəzəm" alqı və satışlar), Bankın maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alqı və satış üzrə bütün digər əməliyyatlar öhdəliyin yerinə yetirilmə tarixində qeydə alınır; bu zaman öhdəliyin qəbul edilməsi və ödənilməsi tarixləri arasındakı dövr ərzində qiymətin dəyişməsi ilkin dəyər və ya amortizasiya olunmuş dəyərdə qeydə alınan aktivlər ilə əlaqədar qeydə alınmır; mənfəət və zərər hesabatında ədalətli dəyərdə göstərilən dilinq əməliyyatları üçün qiymətli kağızlar, derivativlər və digər maliyyə aktivləri üçün mənfəət və zərər hesabatında qeydə alınır; satıla bilən investisiya qiymətli kağızlar üçün isə kapital hesablarında qeydə alınır.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentlərinə bir gün ərzində nağd pula çevrilə bilən maddələr, eləcə də ARMB-də Azərbaycan Manatı ilə saxlanılan məcburi ehtiyatlar daxildir. Overnayt depozitlər istisna olmaqla, bütün qısamüddətli banklararası yerləşdirmələr digər banklardan alınacaq vəsaitlərə daxil edilir. Bloklaşdırılmış məbləğlər pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılır. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

## 3 Əsas Uçot Prinsiplərinin Qısa Xülasəsi (davamı)

***ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar.*** ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar maya dəyərində qeydə alınmaqla, Bankın gündəlik əməliyyatlarını maliyyələşdirmək üçün nəzərdə tutulmayan məcburi ehtiyat depozitlərini əks etdirir və bu səbəbdən pul vəsaitlərinin hərəkəti hesabatının tərtib edilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir.

***Digər banklardan alınacaq vəsaitlər.*** Digər banklardan alınacaq vəsaitlər Bank tərəfindən müxbir banklara nağd pul verildiyi zaman qeydə alınır. Bu zaman, Bank təsbit edilmiş və ya müəyyən edilə bilən tarixlərdə qaytarılacaq sərbəst surətdə alınıb satıla bilməyən qeyri-derivativ maliyyə alətinin ticarətini planlaşdırmır. Digər banklardan alınacaq vəsaitlər amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Müştərilərə verilmiş kreditlər və avanslar.*** Müştərilərə verilmiş kreditlər və avanslar Bank tərəfindən təsbit edilmiş və ya müəyyən edilə bilən tarixlərdə qaytarılacaq sərbəst surətdə alınıb satıla bilməyən qeyri-derivativ maliyyə alətinin müştəridən alınması və ya buraxılması məqsədilə nağd pul verildiyi zaman qeydə alınır. Bu halda Bank həmin maliyyə alətinin ticarətini planlaşdırmır. Müştərilərə verilmiş kreditlər və avanslar amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

Dəyərsizləşmiş maliyyə aktivləri ilə bağlı şərtlərə yenidən baxıldıqda, yenidən baxılmış şərtlər əvvəlki şərtlərdən əhəmiyyətli dərəcədə fərqlənərsə, yeni aktiv əvvəlcə ədalətli dəyərdə uçota alınır.

***Amortizasiya olunmuş maya dəyərində qeydə alınan maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Maliyyə aktivinin ilkin uçotundan sonra baş vermiş bir və ya bir neçə halın ("zərər halları") nəticəsində yaranmış və etibarlı şəkildə təxmin edilə bilən maliyyə aktivi və ya maliyyə aktivləri qrupu üzrə gələcək pul vəsaitlərinin məbləğinə və ya vaxtına təsir göstərən dəyərsizləşmə üzrə zərərlər mənfəət və zərər hesabatında qeydə alınır. Bank ayrıca qiymətləndirilən maliyyə aktivi (əhəmiyyətli və ya əhəmiyyətsiz) üçün dəyərsizləşmə üzrə zərərlərin baş verməsinə dair hər hansı obyektiv sübutun mövcud olmadığını müəyyən etdikdə, o, həmin aktivi analoji kredit riskinə malik olan maliyyə aktivləri qrupuna aid edir və onları mümkün zərərlərə qarşı kollektiv şəkildə qiymətləndirir. Maliyyə aktivinin dəyərsizləşməsi məsələsinə baxarkən Bankın nəzərə aldığı əsas amillər həmin aktivin vaxtı keçmiş statusu və hər hansı girov təminatının realizasiya oluna bilməsidir. Dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- borcalanın əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun bankın borcalan haqqında maliyyə məlumatları ilə təsdiqlənməsi;
- borcalanın müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi riskinə məruz qalması; və/və ya
- borcalana təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi.

Aktivlər üçün dəyərsizləşmə üzrə zərərlərin kollektiv şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri analoji kredit risk xüsusiyyətlərinə əsasən qruplaşdırılır. Həmin xüsusiyyətlər qiymətləndirilən aktivlərin müqavilə üzrə şərtlərinə uyğun olaraq borcalanlar tərəfindən bütün məbləğlərin ödənilməsi qabiliyyətinin göstəricisi olmaqla, bu cür aktivlər qrupu üzrə gələcək pul vəsaitləri hərəkətinin təxmin edilməsi üçün uyğundur.

Dəyərsizləşmə üzrə zərərlərə qarşı kollektiv şəkildə qiymətləndirilən maliyyə aktivləri qrupuna daxil olan pul vəsaitlərinin gələcək hərəkəti həmin aktivlərin müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, rəhbərliyin keçmişdə baş vermiş zərər halları nəticəsində vaxtı keçəcək məbləğlərin həcmi ilə münasibətdə təcrübəsinə və vaxtı keçmiş məbləğlərin geri ödənilməsinə əsasən təxmin edilir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş şəraitin təsirini aradan qaldırmaq məqsədilə əvvəlki təcrübə müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

Aktivin balans dəyərini effektiv faiz dərəcəsilə diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinə (kreditlər üzrə baş verməmiş gələcək zərərlər istisna olmaqla) silmək üçün aktivlər üçün dəyərsizləşmə üzrə zərərlər hər zaman ehtiyat hesabında qeydə alınır. Girov qoyulmuş maliyyə aktivi üzrə təxmin edilən gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması girovun əldə edilməsi və satılması xərcləri çıxılmaqla, girov nəticəsində yarana bilən (girovun olub-olmaması ehtimal edildikdə) pul vəsaitlərinin hərəkətini əks etdirir.

## 3 Əsas Uçot Prinsiplərinin Qısa Xülasəsi (davamı)

Dəyərsizləşmə üzrə zərərlərin məbləği, sonrakı dövrdə baş vermiş hadisəyə görə azalarsa və həmin azalma obyektiv olaraq zərərin qeydə alınmasından sonra baş vermiş hadisəyə (məsələn, borcalanın kredit reytinqi üzrə mümkün zərər kimi) aid edilərsə, mənfəət və zərər hesabatındakı ehtiyat hesabı təshih etməklə, əvvəl qeydə alınmış mümkün zərər üzrə əks mühasibat düzəlişi aparılır.

Aktivlər qaytarıla bilmədikdə onlar, aktivin və ya onun hissəsinin bərpa olunması üçün bütün zəruri prosedurların tamamlanmasından və zərərin məbləğinin müəyyən edilməsindən sonra müvafiq zərər ehtiyatından silinir.

***Kreditlərlə bağlı digər öhdəliklər.*** Bank akkreditivlər və maliyyə zəmanətləri daxil olmaqla, kreditlərlə bağlı öhdəlikləri öz üzərinə götürür. Maliyyə zəmanətləri müştərinin üçüncü şəxslər qarşısında öz öhdəliklərini yerinə yetirə bilmədiyi və kreditlər kimi eyni kredit riskinə məruz qaldığı halda, ödənişlərin aparılması üzrə dəyişilməz öhdəlikləri əks etdirir. Kreditlərin verilməsi üzrə maliyyə zəmanətləri və öhdəlikləri əvvəlcə qaydaya görə əldə edilmiş komissiya gəlirləri ilə təsdiqlənən ədalətli dəyərlə qeydə alınır. Həmin məbləğ öhdəliyin qüvvədə olduğu müddət ərzində bərabər çıxılmalar metodu ilə amortizasiya edilir. Bu metod Bankın xüsusi kredit müqaviləsi imzalayacağı və onu qısa müddətdə satmayacağı ehtimal edildikdə tətbiq edilmir; bu cür kreditlərin verilməsi öhdəlikləri üzrə komissiya gəlirləri təxirə salınmaqla, kreditin ilkin uçotu zamanı onun balans dəyərinə daxil edilir. Hər bir balans tarixində öhdəliklər (i) ilkin uçot zamanı amortizasiya olunmamış məbləğ ilə (ii) balans tarixində öhdəliyin yerinə yetirilməsi üçün tələb olunan xərclər üzrə ən yaxşı təxminlərdən daha yüksək olanı ilə ölçülür.

***Satıla bilən investisiya qiymətli kağızları.*** Bu kateqoriyaya, Bank tərəfindən qeyri-müəyyən müddət ərzində saxlanması nəzərdə tutulan və kifayət qədər likvidlik səviyyəsinin qorunması və ya faiz dərəcələri, valyuta məzənnələri və ya səhmlərin qiymətinin dəyişməsi nəticəsində hər an satıla bilən investisiya qiymətli kağızları daxildir. Bank investisiyaları onların alındığı tarixdə satıla bilən investisiya qiymətli kağızları kimi təsnifləşdirir.

Satıla bilən investisiya qiymətli kağızları ədalətli dəyərdə qeydə alınır. Satıla bilən borc qiymətli kağızları üzrə faiz gəlirləri effektiv faiz metodundan istifadə etməklə hesablanır və mənfəət və zərər hesabatında qeydə alınır. Satıla bilən səhmlər üzrə dividendlər Bankın həmin səhmlər üzrə ödənişləri qəbul etmək hüququ müəyyən edildikdə və dividendlərin alınması ehtimal edildikdə, mənfəət və zərər hesabatında qeydə alınır. Ədalətli dəyərdəki dəyişikliklərin bütün digər elementləri investisiya uçotdan çıxarılanadək və ya ehtimal olunan zərər üçün ehtiyat yaradılanadək kapital hesabında təxirə salınır. Bu zaman yaranan məcmu gəlir və ya zərər kapital hesabından mənfəət və zərər hesabatına silinir.

Satıla bilən investisiya qiymətli kağızlarının ilkin uçotundan sonra baş vermiş bir və ya bir neçə halın ("zərər halları") nəticəsində yaranmış mümkün zərərlər mənfəət və zərər hesabatında qeydə alınır. Satıla bilən investisiya qiymətli kağızları üzrə zərər, həmin qiymətli kağızlar üzrə ədalətli dəyərin onların balans dəyərindən artıq olduğu halda yaranır. Alqı dəyəri ilə cari ədalətli dəyər arasında fərq kimi qiymətləndirilən məcmu zərər, əvvəlki dövrlərdə mənfəət və zərər hesabatında həmin aktiv üzrə qeydə alınmış hər hansı zərəri çıxmaqla, kapital hesabından silinərək mənfəət və zərər hesabatında qeydə alınır. Pay alətlərinin dəyərsizləşməsi üzrə zərərlər mənfəət və zərər hesabatında bərpa edilmir. Satıla bilən borc qiymətli kağızlar üzrə ədalətli dəyər sonrakı dövrdə baş vermiş hadisəyə görə artarsa və həmin artım obyektiv olaraq zərərin mənfəət və zərər hesabatında qeydə alınmasından sonra baş vermiş hadisəyə aid edilərsə, cari dövrün mənfəət və zərər hesabatında mümkün zərər üzrə əks mühasibat düzəlişi aparılır.

***Binalar və avadanlıqlar.*** Binalar və avadanlıqlar, lazım olduqda yığılmış amortizasiyanı və ehtimal olunan zərər üçün ehtiyatı çıxmaqla, ilkin dəyərdə və ya yenidən qiymətləndirilmiş dəyərdə qeydə alınır.

2006-cı ilin may ayından başlayaraq Bank yerli daşınmaz əmlak bazarındakı qiymətlərin sürətlə artmasını nəzərə alaraq, maliyyə hesabatlarında öz əmlakının daha dəqiq əks etdirilməsi məqsədilə binalar üzrə uçot siyasətini xərc modelindən yenidən qiymətləndirmə modelinə dəyişdirmişdir. Bankın binaları müntəzəm olaraq yenidən qiymətləndirilir. Yenidən qiymətləndirmənin müddəti yenidən qiymətləndirilən binalar üzrə ədalətli dəyərin dəyişməsindən asılıdır. Səhmdar kapitalında dəyişikliklər hesabatına daxil edilmiş binalar üzrə yenidən qiymətləndirmə ehtiyatı, yenidən qiymətləndirmə ilə əlaqədar yaranan gəlir realizasiya olunduqda (məsələn, aktivin silinməsi və ya satılması və yaxud Bank tərəfindən aktivin istifadə edilməsi zamanı) birbaşa olaraq bölüşdürülməmiş mənfəətə köçürülür. İkinci halda yenidən qiymətləndirmə ilə əlaqədar yaranan realizasiya olunmuş gəlirin məbləği aktivin yenidən qiymətləndirilmiş balans dəyəri üzrə amortizasiya ilə onun ilkin dəyəri üzrə amortizasiya arasındakı fərqi əks etdirir.

Avadanlıqların bütün növləri lazım olduqda yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə zərəri çıxmaqla (əgər varsa), ilkin dəyərdə qeydə alınır.

## 3 Əsas Uçot Prinsiplərinin Qısa Xülasəsi (davamı)

Kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Binalar və avadanlıqların əsas komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Binalar və avadanlıqlar dəyərsizləşdikdə, onlar binalar və avadanlıqların istifadəsi nəticəsində əldə edilən dəyər ilə satış xərcləri çıxılmaqla ədalətli dəyərdən daha yüksək olan dəyərə silinir. Aktivin balans dəyərindəki azalma mənfəət və zərər hesabatında qeydə alınır. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər-hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərərlər bərpa edilir.

Binalar və avadanlıqların satışından yaranan gəlir və zərər, gəlir məbləği və balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərər hesabatında qeydə alınır.

***Amortizasiya.*** Torpaq üçün amortizasiya hesablanmır. Digər əsas vəsaitlər üzrə amortizasiya bərabər çıxılmalar metoduna, yəni əsas vəsaitlərin faydalı xidmət müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin ilkin dəyərini və ya yenidən qiymətləndirilmiş dəyərini qalıq dəyərinə bölməklə hesablanır:

| | |
|---|---|
| Binalar | 3%; |
| Kompüter və rabitə avadanlıqları | 15-25%; |
| Mebel, qurğular və digər avadanlıqlar | 15-25%; |
| Nəqliyyat vasitələri | 10%-15%; və |
| İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri | müvafiq lizinq müqaviləsinin müddəti ərzində. |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Bankın həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Bank aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyərləri və faydalı xidmət müddətləri lazım olduqda hər bir balans tarixində nəzərdən keçirilir və dəqiqləşdirilir.

***Qeyri-maddi aktivlər***. Bankın bütün qeyri-maddi aktivləri müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən kapitallaşdırılmış proqram təminatı və lisenziyalardan ibarətdir.

Əldə edilmiş proqram təminatı lisenziyaları həmin proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Bank tərəfindən nəzarət olunan identifikasiya edilə bilən unikal proqram təminatı ilə birbaşa əlaqəli olan tərtibat xərcləri, çəkilmiş xərclərdən artıq olan əlavə iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktivlər kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən işçilərə sərf olunan xərclər və ümumi təsərrüfat xərclərinin müvafiq hissəsi daxildir. Proqram təminatı ilə əlaqədar bütün digər xərclər (məs, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Digər qeyri-maddi aktivlər onların 5-10 illik faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

***Əməliyyat lizinqi.*** Bank lizinqalan qismində çıxış etdikdə və lizinq obyektlərinin mülkiyyət hüququ ilə əlaqədar risk və gəlirlər lizinqverən tərəfindən Banka ötürülmədikdə, əməliyyat lizinqi müqavilələri üzrə cəmi ödənişlər lizinqin müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən mənfəət və zərər hesabatında qeydə alınır.

***Digər banklara ödəniləcək vəsaitlər.*** Digər banklara ödəniləcək vəsaitlər, müxbir banklar tərəfindən Banka nağd pul və ya digər aktivlər verildiyi andan qeydə alınır. Qeyri-derivativ maliyyə öhdəlikləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Bank verdiyi borcları geri aldıqda, həmin borc öhdəlikləri balansdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun ödənilməsi üzrə yaranan gəlir və ya xərclərə daxil edilir.

***Müştəri hesabları.*** Müştəri hesabları fiziki şəxslər, dövlət müəssisələri və ya hüquqi şəxslər qarşısında olan qeyri-derivativ maliyyə öhdəliklərini əks etdirir və amortizasiya olunmuş dəyərdə qeydə alınır.

***Buraxılmış borc qiymətli kağızları.*** Buraxılmış borc qiymətli kağızlarına Bank tərəfindən buraxılan istiqrazlar daxildir. Buraxılmış borc qiymətli kağızları amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Bank buraxdığı borc qiymətli kağızlarını geri aldıqda, həmin borc öhdəlikləri balansdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun ödənilməsi üzrə yaranan gəlirlərə daxil edilir.

## 3 Əsas Uçot Prinsiplərinin Qısa Xülasəsi (davamı)

***Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri.*** Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Mənfəət vergisi.*** Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycan Respublikasının balans tarixinə qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi balans passivi metodundan istifadə etməklə, aktiv və passivlərin vergi bazası və maliyyə hesabatları məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və passivin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları, balans tarixinə qüvvədə olan vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərdən yığılmış vergi zərərləri o zaman hesablanır ki, bu çıxılmaların realizasiya oluna bilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcudluğu ehtimal edilsin.

***İmtiyazlı səhmlər.*** Geri ödənilməsi məcburi olmayan və dividendlərin ödənilib-ödənilməməSi rəhbərliyin qərarından asılı olan imtiyazlı səhmlər səhmdar kapitalı kimi qeydə alınır.

***Dividendlər.*** Dividendlər elan edildikləri dövrdə kapital hesablarında əks etdirilir. Balans tarixindən sonra, lakin maliyyə hesabatlarının imzalanmasından əvvəl elan edilmiş dividendlər haqqında məlumat "hesabat tarixindən sonra baş vermiş hadisələr" Qeydində açıqlanır. Mənfəətdən dividendlər və digər ödənişlər Bankın yerli qanunvericiliyə uyğun hazırlanmış mühasibat hesabatlarına əsasən həyata keçirilir. Azərbaycan qanunvericiliyində cari ilin xalis mənfəəti bölüşdürmənin əsası kimi müəyyən edilir.

***Gəlir və xərclərin uçotu.*** Faiz gəlir və xərcləri mənfəət və zərər hesabatında bütün borc alətləri üçün effektiv faiz metodundan istifadə etməklə hesablama metoduna əsasən qeydə alınır. Bu metod, faiz gəlir və xərclərinin bir hissəsi kimi müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün haqları, əməliyyat xərclərini və digər mükafat və ya diskont edilmiş vasitələri təxirə salır.

Effektiv faiz dərəcəsində əks olunan haqlara maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə passivinin buraxılması ilə əlaqədar müəssisə tərəfindən əldə edilmiş və ya ödənilmiş buraxılma haqları daxildir (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin şərtlərinin razılaşdırılması və əməliyyat sənədlərinin işlənməsi haqları). Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi məqsədilə Bank tərəfindən əldə edilmiş haqlar, Bankın xüsusi kredit müqaviləsi imzalayacağı ehtimal edildikdə və həmin müqavilə əsasında əldə etdiyi krediti dərhal üçüncü tərəfə borc verəcəyi gözlənilmədikdə, effektiv faiz dərəcəsində əks olunur. Kreditlərin verilməsi üzrə öhdəliklər Bank tərəfindən mənfəət və zərər hesabatında ədalətli dəyərlə qeydə alınan maliyyə passivləri kimi göstərilmir.

Kreditlərin və digər borc alətlərinin qaytarılması şübhəli olduqda, onların dəyəri gözlənilən pul vəsaitləri hərəkətinin cari dəyərinə qədər azaldılır və bu kreditlər üzrə faiz gəlirləri sonradan mümkün zərərlərin qiymətləndirilməsi üçün istifadə edilmiş effektiv faiz dərəcəsi nəzərə alınmaqla cari dəyər diskontunun geri qaytarılması üçün qeydə alınır.

## 3 Əsas Uçot Prinsiplərinin Qısa Xülasəsi (davamı)

Bütün digər haqq, komissiya, gəlir və xərclər əsasən göstərilməli olan bütün xidmətlərin nisbəti kimi göstərilmiş faktiki xidmətlərin əsasında müəyyən edilən konkret əməliyyatın başa çatdırılması nəzərə alınmaqla hesablama metodu ilə qeydə alınır. Kreditin sindikatlaşdırılması üzrə haqlar sindikasiya başa çatdırıldıqda və Bank kredit paketinin heç bir hissəsini özündə və eyni effektiv faiz dərəcəsilə digər iştirakçılar üçün saxlamadıqda gəlir kimi qeydə alınır.

Danışıqlar və ya üçüncü tərəf üçün əməliyyatların aparılmasına (məsələn, kreditlərin, səhmlərin və ya digər qiymətli kağızların alınması və yaxud müəssisənin alqısı və ya satışı) dair danışıqlarda iştirak nəticəsində ödənilən haqq və komissiyalar göstərilən əməliyyatın başa çatdığı tarixdə qeydə alınır.

***Xarici valyutanın yenidən qiymətləndirilməsi.*** Bankın funksional valyutası həmin müəssisələrin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Bankın funksional və hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır (“AZN”).

Monetar aktiv və passivlər, ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən müəssisənin funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və ARMB-nin ilin sonuna olan rəsmi valyuta məzənnəsi ilə monetar aktiv və passivlərin funksional valyutaya çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərər hesabatında qeydə alınır. İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

31 dekabr 2007-ci il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri belə olmuşdur: 1 ABŞ Dolları = 0.8453 AZN və 1 Avro = 1.2450 AZN (31 dekabr 2006: 1 ABŞ Dolları = 0.8714 AZN və 1 Avro = 1.1471 AZN).

***Əvəzləşdirmə.*** Maliyyə aktiv və passivlərinin əvəzləşdirilməsi və xalis məbləğin balansa daxil edilməsi, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək passivi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər.

***İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar.*** Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Bankın işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

***Seqmentlər üzrə hesabat.*** Seqment, məhsulların təqdim edilməsi və ya xidmətlərin göstərilməsi (biznes seqmenti) və yaxud konkret iqtisadi mühitdə məhsulların təqdim edilməsi və ya xidmətlərin göstərilməsi (coğrafi seqment) ilə bağlı olan və riskləri və səmərəsi digər seqmentlərdən fərqlənən Bankın identifikasiya edilə bilən komponentidir. Gəlirlərinin böyük hissəsi kənar müştərilərə satışlar hesabına yaranan və gəlirləri, maliyyə nəticəsi və ya aktivləri bütün seqmentlərin ümumi aktivlərinin on faizini və ya artıq hissəsini təşkil edən seqmentlər ayrıca şəkildə açıqlanır. Müxtəlif maliyyə və sənaye qruplarına daxil olan Bankın qarşı tərəfləri onların hüquqi riskindən daha çox iqtisadi riskini əks etdirmək məqsədilə, həmin qarşı tərəfin əsas fəaliyyət göstərdiyi yeri nəzərə almaqla, bu və ya digər coğrafi seqmentlərə aid edilmişdir.

***Uçot siyasətindəki dəyişikliklər və maliyyə hesabatlarının təqdimatı.*** Hazırkı maliyyə hesabatları üzrə hər hansı dəyişikliklər, həmin hesabatları imzalayan Bankın rəhbərliyi tərəfindən təsdiqlənməlidir.

***Əvvəlki dövrün maliyyə hesabatlarına düzəlişlər.*** 1 yanvar 2006 və 31 dekabr 2006-cı il tarixlərinə rəhbərlik riyazi səhvə görə istifadə edilməmiş məzuniyyətə görə işçilərə ödənişlərin 345 min AZN az hesablandığını müəyyən etmişdir. Nəticədə işçilər qarşısında öhdəliklər 345 min AZN az hesablanmış və işçilər qarşısında öhdəliklərin vergi bazası ilə maliyyə bazası arasındakı fərqlərdən yaranan təxirə salınmış vergi öhdəliyi 75 min AZN artıq hesablanmışdır.

Rəhbərliyin fikrincə bu cür səhvlər əhəmiyyətli xarakter daşıyır. Həmin səhvləri düzəltmək məqsədilə, Bankın 31 dekabr 2006-cı il tarixli maliyyə hesabatlarında qeydə alınan müvafiq qalıqlar düzəldilmişdir.

## 3 Əsas Uçot Prinsiplərinin Qısa Xülasəsi (davamı)

Bu düzəlişlər nəticəsində hazırkı maliyyə hesabatlarında Bankın 31 dekabr 2006-cı il tarixinə və həmin tarixdə tamamlanan il üzrə əvvəlki ilin müqayisəli rəqəmlərinə aşağıdakı mühasibat düzəlişləri aparılmışdır:

**31 dekabr 2006**

| *Min Azərbaycan Manatı ilə* | **Əvvəlki hesabata görə qalıq** | **Düzəliş** | **Düzəlişdən sonra qalıq** |
|---|---|---|---|
| Digər passivlər | **39** | 345 | **384** |
| Təxirə salınmış vergi öhdəliyi | **347** | | **272** |
| 1 yanvar 2006-cı il tarixinə bölüşdürülməmiş mənfəət (düzəldilmiş) | **1,503** | | **1,233** |
| 31 dekabr 2006-cı il tarixinə bölüşdürülməmiş mənfəət (düzəldilmiş) | **3,076** | | **2,806** |

## 4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Mühasibat Təxminləri və Fərziyyələr

Bank növbəti maliyyə dövrü ərzində hesabatlarda əks etdirilən aktiv və passivlərin məbləğlərinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və passivlərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

***Vergi qanunvericiliyi.*** Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır. 32 saylı Qeydə baxın.

***Kreditlər və avansların dəyərsizləşməsi üzrə zərər.*** Rəhbərlik müntəzəm olaraq Bankın kredit portfeli üzrə dəyərsizləşmənin mövcudluğunu müəyyən etmək üçün onu təhlil edir. Dəyərsizləşmə üzrə zərərin mənfəət və zərər hesabatında əks etdirilməsini müəyyən edərkən, Rəhbərlik kredit portfelində konkret bir kreditin dəyərində azalmanın müşahidə edilməsindən əvvəl kredit portfeli üzrə pul vəsaitlərinin təxmin edilən hərəkətində ölçülə bilən azalmanı əks etdirən nəzərə çarpan əlamətlərin mövcudluğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür. Bu göstəricilərə, qrupdakı borcalanların ödəniş statusunda və ya qrupdakı aktivlər üzrə öhdəliklərin yerinə yetirilməməsi ilə əlaqədar ölkə səviyyəsində və ya yerli iqtisadi şərtlərdə mənfi dəyişikliyin olduğunu əks etdirən müşahidə edilə bilən məlumatlar daxildir. Rəhbərlik gələcək pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması üçün istifadə edilən kredit portfelindəki aktivlər ilə analoji kredit riskinə və dəyərsizləşmə üzrə obyektiv əlamətlərə malik aktivlər ilə əlaqədar əvvəlki ilin zərərləri haqqında məlumata əsaslanan təxminlər tətbiq edir. Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir. Müştərilərə verilmiş kreditlər və avansların 5%-i ödəmə müddətindən bir ay gec və ya tez ödənilərsə, həmin kreditlər üzrə ehtiyat təxminən 165 min AZN (31 dekabr 2006: 99 min AZN) artıq və ya az olardı.

***Binaların yenidən qiymətləndirilməsi.*** Hər bir balans tarixində Bankın binalarının ədalətli dəyərinin balans hesabatında əks etdirilməsi məqsədilə, rəhbərlik Bankın binalarının ədalətli dəyərinin yenidən qiymətləndirilməsinin vaxtını və metodunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür. Rəhbərlik binaların cari dəyərinin maliyyə hesabatlarında qeydə alınan balans dəyərindən əhəmiyyətli dərəcədə fərqləndiyini müəyyən etmək üçün bütün mövcud məlumatlardan istifadə edir. 31 dekabr 2007-ci il tarixinə Rəhbərlik müəyyən etmişdir ki, binaların cari dəyəri müstəqil qiymətləndiricilər tərəfindən 30 may 2006-cı il tarixinə həyata keçirilmiş sonuncu qiymətləndirmə tarixinə müəyyən edilmiş dəyərdən əhəmiyyətli dərəcədə fərqlənmir və buna görə əlavə yenidən qiymətləndirmə tələb edilməmişdir. Sonuncu qiymətləndirmə zamanı Bankın binalarının dəyəri 1 $m^2$ üçün 1,000 ABŞ dolları ilə 3,200 ABŞ dolları arasında dəyişmişdir. 31 dekabr 2007-ci il tarixinə binalar yenidən qiymətləndirilsəydi, hər on faiz artıma görə maliyyə hesabatlarında göstərilən binaların dəyəri 136 min AZN, yenidən qiymətləndirmə ehtiyatı 106 min AZN və təxirə salınmış vergi öhdəliyi 30 min AZN dəyişmiş olardı.

***Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu.*** Bank öz fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 39 saylı BMS-ə uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçot alınmalıdır. Lakin, həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar fərziyyələrdən istifadə etmək lazım gəlir. Fərziyyənin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir.

## 4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Mühasibat Təxminləri və Fərziyyələr (davamı)

***Müştərilərə verilmiş kreditlər və avanslar.*** Bank Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan və Azərbaycan Respublikası İpoteka Fondundan bənzər təşkilatların inkişaf etməkdə olan bazarlarda təqdim etdiyi vəsaitlər üzrə faiz dərəcələrindən aşağı faiz dərəcələri ilə və Bankın digər borcalanlardan ala biləcəyi borc vəsaitləri üzrə faiz dərəcələrindən aşağı ola bilən faiz dərəcələri ilə borc vəsaiti alır.

Bank bu cür vəsaitlər hesabına ayrı-ayrı müştərilərə güzəştli dərəcələr ilə kreditlər vermək imkanında olmuşdur. Rəhbərlik bu cür maliyyə alətlərinin ilkin uçotu zamanı yarana biləcək ədalətli dəyər üzrə gəlir və ya zərərləri nəzərə almışdır. Həmin əməliyyatlar əlaqəli tərəflərlə aparılmadığına görə, rəhbərlik həmin vəsaitlərin və müvafiq kreditlərin bazar faiz dərəcələrinə uyğun olduğunu və ilkin uçot zamanı gəlir və ya zərərin yaranmadığını hesab edir. Belə bir mülahizə irəli sürərkən, Bank həmçinin həmin maliyyə alətlərinin ayrıca bazar seqmenti yaratdığını nəzərə almışdır.

Rəhbərlik Azərbaycan İpoteka Fondu ilə bağlanmış müqavilənin xarakterini və xüsusilə Bankın həmin Fondun agenti və ya bu proqram çərçivəsində borcalanlarla prinsipal qismində çıxış etdiyini nəzərdən keçirmişdir. Bu proqramla bağlı riskləri və faydaları nəzərdən keçirdikdən sonra, rəhbərlik Bankın prinsipal qismində çıxış etdiyi qənaətinə gəlmişdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarındakı uçot bu mühakiməyə əsaslanır. Rəhbərlik alternativ qənaətə gəlsəydi, bu cür borcalanlardan alınmış vəsaitlər və Fonda ödəniləcək məbləğlər Bankın maliyyə hesabatlarında qeydə alınmazdı.

## 5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara dair Şərhlərin Tətbiqi və Mühasibat Uçotu üzrə Yeniliklər

***Mühasibat uçotu üzrə yeniliklər.*** 1 yanvar 2007-ci il tarixdən Bank üçün bəzi yeni BMHS-lər qüvvəyə minmişdir. Aşağıda hal-hazırda Bankın fəaliyyəti üçün məqbul sayılan və ya gələcəkdə sayıla biləcək yeni və ya yenidən işlənmiş standartlar və onlara dair şərhlər təqdim edilir, eləcə də onların Bankın uçot siyasətinə təsiri haqqında məlumat göstərilir. Uçot siyasətindəki bütün dəyişikliklər aşağıda başqa cür göstərilmədiyi hallarda, 1 yanvar 2006-cı il tarixinə bölüşdürülməmiş mənfəətə düzəlişlərin edilməsi nəzərə alınmaqla, retrospektiv qaydada tətbiq edilmişdir.

***BMHS 7 – "Maliyyə Alətləri: Məlumatın açıqlanması" və BMS 1 "Maliyyə Hesabatlarının Təqdimatı" Standartına əlavə dəyişikliklər – kapital barədə məlumatın açıqlanması (1 yanvar 2007-ci il tarixdən qüvvəyə minir).*** Yeni BMHS maliyyə alətləri haqqında məlumatların yenilənməsi, o cümlədən risklərin kəmiyyət aspektləri və risklərin idarə olunması metodları haqqında məlumatların açıqlanma həcmini genişləndirmişdir. Yeni kəmiyyət açıqlamaları müəssisə daxilində baş rəhbərliyə təqdim edilən məlumat əsasında risklərin dərəcəsi haqqında məlumat əldə etməyə imkan yaradacaqdır. Kəmiyyət və keyfiyyət açıqlamaları həmçinin kredit riski, likvidlik riski və bazar riski, o cümlədən bazar riskinə qarşı həssaslıq təhlili haqqında məlumat əldə etməyə imkan yaradır. BMHS 7 BMS 30 *"Banklar və Analoji Maliyyə İnstitutlarının Maliyyə Hesabatlarında Açıqlamalar"* və BMS 32 *"Maliyyə Alətləri: Məlumatların açıqlanması və təqdim olunması"* Standartının bəzi müddəalarını əvəz edir. 1 saylı BMS-ə Əlavədə müəssisəsinin kapitalı və bu kapitalın idarə edilməsi üsulları haqqında məlumat açıqlanır. Qeyd edilən əlavə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

***Digər yeni standartlar və şərhlər.*** Bank, 1 yanvar 2007-ci il tarixdən qüvvəyə minmiş digər yeni standartları və ya şərhləri qəbul etmişdir:

- IFRIC 7, *BMS 29-a uyğun olaraq yenidən hesablama yanaşmasının tətbiqi* (1 mart 2006 və ya bu tarixdən sonra başlayan dövrlər üçün qüvvəyə minir);
- IFRIC 8, *BMHS 2-nin tətbiq sahəsi* (1 may 2006 və ya bu tarixdən sonra başlayan dövrlər üçün qüvvəyə minir);
- IFRIC 9, *Əlavə elementli derivativlərin yenidən qiymətləndirilməsi* (1 iyun 2006 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir); və
- IFRIC 10, *İlkin maliyyə hesabatları və dəyərsizləşmə* (1 noyabr 2006 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).

7 və 10 saylı IFRIC şərhləri Bankın maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməmişdir.

Bankın 1 yanvar 2008-ci il tarixdən və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün məcburi xarakter daşıyan və ya Bank tərəfindən əvvəllər qəbul edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur:

## 5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara dair Şərhlərin Tətbiqi və Mühasibat Uçotu üzrə Yeniliklər (davamı)

- *BMHS 8, "Əməliyyat seqmentləri" (1 yanvar 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).* Bu Standart borc və ya pay alətləri açıq bazarda alınıb-satılan təşkilatlara, eləcə də açıq bazarda hər-hansı növ alətlərin yerləşdirilməsi ilə əlaqədar maliyyə hesabatlarını tənzimləyici orqanlara təqdim edən və ya təqdim etməyi planlaşdıran müəssisələrə tətbiq edilir. BMHS 8 müəssisələrin öz əməliyyat seqmentləri haqqında maliyyə və təsviri məlumatları açıqlamasını tələb edir və müəssisələrin bu cür məlumatı öz maliyyə hesabatlarında açıqlama qaydasını əks etdirir.

- *Vaxtından əvvəl ödənilmək hüququna malik olan maliyyə alətləri və ləğvetmə zamanı yaranan öhdəliklər – BMS 32 və BMS 1 Əlavə (1 yanvar 2009-cu il tarixdən qüvvəyə minir).* Bu Əlavə, maliyyə öhdəliyi anlayışına cavab verən bəzi maliyyə alətlərinin kapital kimi təsnifləşdirilməsini tələb edir.

- *BMS 23, Borc vəsaitləri üzrə xərclər (mart, 2007-ci ildə yenidən işlənmişdir; 1 yanvar 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).* Yenidən işlənmiş BMS 23, 2007-ci ilin mart ayında dərc edilmişdir. Bu Standarta edilmiş əsas dəyişiklik istifadəsi və ya satışı kifayət qədər uzun müddət tələb edən aktivlərə aid olan borc vəsaitləri üzrə xərclərin dərhal xərcə silinməsi üsulunun ləğv edilməsidir. Buna görə, müəssisə borc vəsaitləri üzrə xərcləri aktivin maya dəyəri kimi kapitallaşdırmalıdır. Yenidən işlənmiş Standart kapitallaşdırmaya başlanma tarixi 1 yanvar 2009 və ya bu tarixdən sonra olan kvalifikasiyalı aktivlərə aid borc vəsaitləri üzrə xərclərə prospektiv qaydada tətbiq edilir.

- *BMS 1, Maliyyə Hesabatlarının Təqdimatı (sentyabr, 2007-ci ildə yenidən işlənmişdir; 1 yanvar 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).* BMS 1 üzrə əsas dəyişiklik mənfəət və zərər hesabatının ətraflı mənfəət və zərər hesabatı ilə əvəz edilməsidir. Bu hesabata həmçinin səhmdar kapitalında qeyri-sahibkarların iştirak paylarındakı bütün dəyişikliklər (məs, satıla bilən maliyyə aktivlərinin yenidən qiymətləndirilməsi) daxildir. Alternativ olaraq, müəssisələr iki hesabat təqdim edə biləcəklər: konsolidasiya edilməmiş mənfəət və zərər hesabatı və ətraflı mənfəət və zərər hesabatı. Yenidən işlənmiş BMS 1 maliyyə vəziyyəti haqqında hesabatın (balans hesabatı) müqayisəli məlumatların hazırlandığı ən son dövrün başlanğıcında tərtib edilməsinə dair tələbi açıqlayır və yenidən təsnifləşdirmə, uçot siyasətində dəyişikliklər və ya səhvlərin düzəldilməsi ilə bağlı hər dəfə müqayisəli məlumatı yeniləşdirərək, müəssisə bu müddət üzrə müqayisəli məlumatı təqdim edir. Bank hesab edir ki, yenidən işlənmiş BMS 1 Bankın maliyyə hesabatlarının təqdimatına təsir göstərəcək, lakin konkret əməliyyatların və ya qalıqların tanınması və ya ölçülməsinə heç bir təsir göstərməyəcəkdir.

- *BMS 27, Konsolidasiya Edilmiş və Konsolidasiya Edilməmiş Hesabatlar (yanvar, 2008-ci ildə yenidən işlənmişdir; 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).* Yenidən işlənmiş BMS 27 şirkətdən ümumi gəlirlərin baş müəssisə sahiblərinə və nəzarət olunmayan pay sahiblərinə (bundan əvvəl "azlığın payı") aid edilməsini tələb edir (hətta nəzarət olunmayan pay üzrə nəticələrin kəsir olduğu təqdirdə). Qüvvədə olan standart əksər hallarda artıq zərərlərin baş müəssisənin sahiblərinə aid edilməsini tələb edir. Bundan əlavə, yenidən işlənmiş standartda göstərilir ki, baş müəssisənin törəmə müəssisədəki iştirak payında nəzarətin itirilməsi ilə nəticələnməyəcək dəyişikliklər səhm alətləri üzrə əməliyyatlar kimi uçota alınsın. Standart həmçinin törəmə müəssisə üzrə nəzarətin itirilməsi nəticəsində yaranan hər hansı mənfəət və zərərin müəssisə tərəfindən qiymətləndirilməsini müəyyənləşdirir. Nəzarətin itirildiyi tarixdə keçmiş törəmə müəssisədə saxlanılmış investisiyalar ədalətli dəyərlə ölçülməlidir.

- *BMHS 3, Müəssisələrin Birləşməsi (yanvar, 2008-ci ildə yenidən işlənmişdir; alqı tarixi 1 iyul 2009 və ya bu tarixdən sonra başlayan birinci illik hesabat dövrünün başlanğıcı və ya sonra olan müəssisələrin birləşməsi üçün qüvvəyə minir).* Yenidən işlənmiş BMHS 3 müəssisələrə mövcud BMHS 3 üsulu (alıcının əldə edilmiş müəssisənin identifikasiya edilə bilən xalis aktivlərində proporsional payı) və ya ABŞ ÜQMP-də olduğu kimi eyni üsuldan (ədalətli dəyərlə) istifadə etməklə nəzarət olunmayan iştirak paylarının qiymətləndirilməsi imkanı verir. Yenidən işlənmiş BMHS 3 müəssisələrin birləşməsində alqı metodunun tətbiqi üzrə daha ətraflı məlumat təlimat verir. Qudvilə aid olan hissənin hesablanması məqsədilə, hər bir mərhələli alqı prosesində bütün aktiv və öhdəliklərin ədalətli dəyərlə qiymətləndirilməsi tələbi hesabatdan çıxarılmışdır. Bundan sonra qudvil, alqı tarixində alqıdan əvvəl şirkətdəki hər hansı investisiyanın ədalətli dəyəri, ödənilmiş məbləğ və əldə edilmiş xalis aktivlər arasında fərq kimi uçota alınacaqdır. Alqı ilə bağlı xərclər müəssisələrin birləşməsi əməliyyatından ayrıca tanınacaq və qudvil kimi yox, xərc kimi uçota alınacaqdır. Alıcı şirkət, alqı tarixində alqı ilə bağlı hər hansı şərti məbləğ üzrə öhdəliyi alqı tarixində uçota almalıdır.

## 5 Yeni və ya Yenidən İşlənmiş Standartların və Onlara dair Şərhlərin Tətbiqi və Mühasibat Uçotu üzrə Yeniliklər (davamı)

Alqı tarixindən sonra bu öhdəliyin dəyərindəki dəyişikliklər qudvilin təshih edilməsi yolu ilə deyil, tətbiq edilən digər BMHS-lərə uyğun olaraq uçota alınacaqdır. Yenidən işlənmiş BMHS 3 yalnız bir neçə müəssisənin iştirakı ilə müəssisələrin birləşməsini və təkcə müqavilə əsasında həyata keçirilmiş müəssisələrin birləşməsini əhatə edir.

- *Hüquqların Verilməsi və Ləğv Edilməsi Şərtləri—BMHS 2-ə Əlavə, Pay Əsasında Ödənişlər (2008-ci ilin yanvar ayında buraxılmışdır; 1 yanvar 2008 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).* Bu əlavədə yalnız xidmət şərtlərinin və icra şərtlərinin hüquqların verilməsi və ləğv edilməsi şərtləri olması müəyyən edilir. Pay əsasında ödənişlərin digər xüsusiyyətləri hüquqların verilməsi və ləğv edilməsi şərtlərinə aid deyil. Bu Əlavə, müəssisənin və ya digər tərəflərin ləğv edilməsinin eyni uçot qaydası ilə aparılmasını müəyyənləşdirir.

- IFRIC 13, *'Müştəri Loyallıq Proqramları' (iyun 2007-ci il tarixində dərc edilmişdir; 1 iyul 2008 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir ).* IFRIC 13-də mal və xidmətlərin müştəri loyallıq proqramları əsasında satılması müəyyənləşdirilir (məsələn: loyallıq xalları və ya təmənnasız məhsullar), bu çox elementli bir razılaşmadır və müştəridən alınacaq məbləğlər ədalətli dəyərdən istifadə etməklə razılaşmanın komponentləri arasında bölüşdürülür.

***Digər yeni standartlar və şərhlər.*** Bank tərəfindən əvvəllər aşağıdakı yeni standartlar və şərhlər qəbul edilməmişdir:

- IFRIC 11, BMHS 2 – *Qrup və səhmdarlardan geri alınmış səhmlər üzrə əməliyyatlar* (1 mart 2007 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir);;
- IFRIC 12, *Konsessiya xidmətlərinin razılaşdırılması* (1 yanvar 2008 və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir); və
- IFRIC 14, BMS 19 – *Konkret Aktivlər üzrə Limit, Minimal Maliyyələşdirmə Tələbləri və onların Qarşılıqlı Əlaqəsi* (1 yanvar 2008-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).

Qeyd olunan yeni standartlar və onlara dair şərhlər BMS 1 istisna olmaqla, Bankın maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməyəcəkdir. 1 saylı BMS-in Bankın maliyyə hesabatlarının təqdimatına təsir göstərəcəyi, lakin konkret əməliyyatların və qalıqların uçota alınmasına və ya ölçülməsinə heç bir təsir göstərməyəcəyi gözlənilir.

## 6 Pul Vəsaitləri və Onların Ekvivalentləri

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007** | **31 dekabr 2006** |
|---|---|---|
| Nağd pul | 8,393 | 8,812 |
| ARMB-dəki qalıqlar | 6,808 | 2,374 |
| Digər banklardakı müxbir hesablar və overnayt depozitlər | | |
| - Azərbaycan Respublikasında | 277 | 206 |
| - Digər ölkələrdə | 8,827 | 3,664 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **24,305** | **15,056** |

Digər banklardakı müxbir hesablara və overnayt depozitlərə Bankın iki qeyri-rezident bankda yerləşdirdiyi 2,525 min AZN və 4,626 min AZN (31 dekabr 2006: 178 min AZN və 3,302 min AZN) məbləğində depozitlər daxildir. Həmin depozitlər üzrə illik faiz dərəcəsi müvafiq olaraq 3.5% və 4.5% (31 dekabr 2006: illik 4.5% və 4.7%) təşkil edir. Nağd pul, ARMB-dəki qalıqlar və məcburi ehtiyatlar üzrə faiz hesablanmır. Pul vəsaitləri və onların ekvivalentlərinin faiz dərəcələri üzrə təhlili 30 saylı Qeyddə açıqlanır.

## 7 Digər Banklardan Alınacaq Vəsaitlər

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| Digər banklarda yerləşdirilmiş ilkin ödəmə müddəti üç aydan çox olan qısamüddətli depozitlər | 1,515 | 3,488 |
| Bloklaşdırılmış hesablar | 558 | 353 |
| Digər banklardan alınacaq vəsaitlər üzrə ehtimal olunan zərər üçün ehtiyat çıxılmaqla | (30) | - |
| **Cəmi digər banklardan alınacaq vəsaitlər** | **2,043** | **3,841** |

31 dekabr 2007-ci il tarixinə bloklaşdırılmış vəsaitlərə üç qeyri-rezident bankda illik 4% dərəcəsi ilə yerləşdirilmiş 558 min AZN məbləğində depozitlər daxildir (31 dekabr 2006: üç rezident bankda illik 2.1% və 4.1% dərəcələri ilə yerləşdirilmiş 353 min AZN məbləğində depozitlər daxildir).

Digər banklardan alınacaq vəsaitlər üzrə təminat yoxdur. 31 dekabr 2007-ci il tarixinə digər banklardan alınacaq vəsaitlərin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Digər banklardakı qısamüddətli depozitlər | Qeyri-rezident banklardakı bloklaşdırılmış hesablar | Cəmi |
|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | |
| - Digər Azərbaycan banklarında | 1,485 | - | 1,485 |
| - AAA reytinqi ilə | - | 558 | 558 |
| **Cəmi cari və dəyərsizləşmiş** | **1,485** | **558** | **2,043** |
| **Cəmi digər banklardan alınacaq vəsaitlər** | **1,485** | **558** | **2,043** |

31 dekabr 2006-cı il tarixinə digər banklardan alınacaq vəsaitlərin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Digər banklardakı qısamüddətli depozitlər | Qeyri-rezident banklardakı bloklaşdırılmış hesablar | Cəmi |
|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | |
| - 10 ən böyük Azərbaycan banklarında | 3,488 | - | 3,488 |
| - AAA reytinqi ilə | - | 353 | 353 |
| **Cəmi cari və dəyərsizləşmiş** | **3,488** | **353** | **3,841** |
| **Cəmi digər banklardan alınacaq vəsaitlər** | **3,488** | **353** | **3,841** |

## 7 Digər Banklardan Alınacaq Vəsaitlər (davamı)

Digər banklardan alınacaq vəsaitlər üzrə dəyərsizləşmə ehtiyatının hərəkəti aşağıdakı kimidir:

| *Min Azərbaycan Manatı ilə* | 2007 Digər banklardakı qısamüddətli depozitlər | 2007 Qeyri-rezident banklardakı bloklaşdırılmış hesablar | 2006 Digər banklardakı qısamüddətli depozitlər | 2006 Qeyri-rezident banklardakı bloklaşdırılmış hesablar |
|---|---|---|---|---|
| **1 yanvar tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **-** | **-** | **(46)** | **-** |
| İl ərzində dəyərsizləşmə üzrə ehtiyatın qaytarılması | (30) | - | 46 | - |
| **31 dekabr tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **(30)** | **-** | **-** | **-** |

Digər banklardan alınacaq vəsaitlərin hər bir kateqoriyasının balans dəyəri 31 dekabr 2007 və 31 dekabr 2006-cı il tarixlərinə təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2007-ci il tarixinə digər banklardan alınacaq vəsaitlərin təxmin edilən ədalətli dəyəri 2,043 min AZN (31 dekabr 2006: 3,841 min AZN) təşkil etmişdir. 33 saylı Qeydə baxın.

Digər banklardan alınacaq vəsaitlərin faiz dərəcələri üzrə təhlili 30 saylı Qeyddə açıqlanır.

## 8 Müştərilərə Verilmiş Kreditlər və Avanslar

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| Korporativ kreditlər | 53,984 | 34,184 |
| Fiziki şəxslərə verilmiş istehlak kreditləri | 34,562 | 13,472 |
| Sahibkarlara verilmiş kreditlər | 5,591 | 2,430 |
| İpoteka kreditləri | 8,820 | 2,207 |
| Avtomobillərin alınması | 4,813 | 2,903 |
| Dövlət müəssisələri və bələdiyyə təşkilatları | 2,690 | 111 |
| Digər | 698 | - |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat çıxılmaqla | (3,292) | (1,975) |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **107,866** | **53,332** |

2007-ci il ərzində kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıdakı kimidir:

| *Min Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | Fiziki şəxslərə verilmiş istehlak kreditləri | Sahibkarlara verilmiş kreditlər | İpoteka kreditləri | Avtomobillərin alınması | Dövlət müəssisələri və bələdiyyə təşkilatları | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| 1 yanvar 2007-ci il tarixinə dəyərsizləşmə üzrə ehtiyat | 1,004 | 575 | 74 | 34 | 284 | 4 | - | 1,975 |
| İl ərzində ehtiyatın yaradılması/(ehtiyatın qaytarılması) | 441 | 823 | 114 | 44 | (30) | 17 | - | 1,409 |
| İl ərzində silinmiş ümidsiz borclar | - | (52) | - | - | (40) | - | - | (92) |
| **31 dekabr 2007-ci il tarixinə kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat** | **1,445** | **1,346** | **188** | **78** | **214** | **21** | **-** | **3,292** |

## 8 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

2006-cı il ərzində kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıdakı kimidir:

| *Min Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | Fiziki şəxslərə verilmiş istehlak kreditləri | Sahibkarlara verilmiş kreditlər | İpoteka kreditləri | Avtomobillərin alınması | Dövlət müəssisələri və bələdiyyə təşkilatları | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 2006-cı il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **583** | **250** | **29** | **46** | **169** | **15** | **5** | **1,097** |
| İl ərzində ehtiyatın yaradılması/(ehtiyatın qaytarılması) | 421 | 325 | 45 | (12) | 115 | (11) | (5) | 878 |
| **31 dekabr 2006-cı il tarixinə kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat** | **1,004** | **575** | **74** | **34** | **284** | **4** | **-** | **1,975** |

Kredit portfelinin iqtisadi sektorlar üzrə strukturu aşağıdakı kimidir:

| | **31 dekabr 2007** | | **31 dekabr 2006** | |
|---|---|---|---|---|
| *Min Azərbaycan Manatı ilə* | **Məbləğ** | **%** | **Məbləğ** | **%** |
| Fiziki şəxslər | 53,786 | 48% | 21,012 | 38% |
| Ticarət və xidmətlər | 17,945 | 16% | 16,706 | 30% |
| İstehsalat | 18,132 | 16% | 8,339 | 15% |
| İnşaat | 7,524 | 7% | 3,601 | 7% |
| Kənd təsərrüfatı | 6,913 | 6% | 3,128 | 6% |
| Nəqliyyat | 3,470 | 3% | 2,410 | 4% |
| Dövlət müəssisələri və bələdiyyə təşkilatları | 2,690 | 3% | 111 | |
| Digər | 698 | 1% | - | |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar (ehtiyat ayırmalarından əvvəl)** | **111,158** | **100%** | **55,307** | **100%** |

31 dekabr 2007-ci il tarixinə Bank 105 borcalana (31 dekabr 2006: 55 borcalan) ümumi məbləği 200 min AZN-dən yuxarı olan kreditlər vermişdir. Bu kreditlərin cəmi 59,402 min AZN (31 dekabr 2006: 31,278 min AZN) və ya ümumi kredit portfelinin 53%-ni təşkil edir (31 dekabr 2006: 57%).

31 dekabr 2007-ci il tarixinə 8,820 min AZN (31 dekabr 2006: 2,207 min AZN) məbləğində cəmi ipoteka kreditlərindən 857 min AZN-i (31 dekabr 2006: sıfır) Azərbaycan İpoteka Fondu ilə bağlanmış müqavilədə əhatə olunan proqram çərçivəsində verilmişdir. 17 saylı Qeydə baxın. Bundan əlavə, həmin proqram çərçivəsində 4,275 min AZN (31 dekabr 2006: sıfır) məbləğində ipoteka kreditinin Azərbaycan İpoteka Fondu tərəfindən təsdiqlənməsi və kredit müqaviləsinə uyğun olaraq gələcəkdə Banka verilməsi gözlənilir.

## 8 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

31 dekabr 2007-ci il tarixinə girov təminatı haqqında məlumat aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | Fiziki şəxslərə verilmiş istehlak kreditləri | Sahibkarlara verilmiş kreditlər | İpoteka kreditləri | Avtomobillərin alınması | Dövlət müəssisələri və bələdiyyə təşkilatları | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| Təminatsız kreditlər | 679 | 375 | - | 20 | 15 | 263 | - | 1,352 |
| Aşağıdakılarla təmin edilmiş kreditlər: | | | | | | | | |
| - yaşayış sahəsi | 32,075 | 22,256 | 4,767 | 8,502 | 466 | - | - | 68,066 |
| - zəmanət məktubu | 4,757 | 8,635 | 2 | 229 | 399 | 5 | - | 14,027 |
| - dövriyyədə olan qiymətli kağızlar | 2,623 | 53 | - | - | - | - | - | 2,676 |
| - pul depozitləri | 1,115 | 1,227 | - | 58 | 87 | 1,510 | - | 3,997 |
| - daşınan əmlak | 11,910 | 937 | 822 | 1 | 3,812 | 912 | 698 | 19,092 |
| - əmək haqqı | - | 111 | - | 4 | 9 | - | - | 124 |
| - digər aktivlər | 825 | 968 | - | 6 | 25 | - | - | 1,824 |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **53,984** | **34,562** | **5,591** | **8,820** | **4,813** | **2,690** | **698** | **111,158** |

31 dekabr 2006-cı il tarixinə girov təminatı haqqında məlumat aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | Fiziki şəxslərə verilmiş istehlak kreditləri | Sahibkarlara verilmiş kreditlər | İpoteka kreditləri | Avtomobillərin alınması | Dövlət müəssisələri və bələdiyyə təşkilatları | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| Təminatsız kreditlər | - | 43 | - | - | 1 | - | - | 44 |
| Aşağıdakılarla təmin edilmiş kreditlər: | | | | | | | | |
| - yaşayış sahəsi | 19,350 | 9,250 | 2,251 | 1,525 | 245 | - | - | 32,621 |
| - zəmanət məktubu | 4,831 | 2,509 | 6 | 268 | 133 | - | - | 7,747 |
| - dövriyyədə olan qiymətli kağızlar | 2,327 | 72 | - | - | - | - | - | 2,399 |
| - pul depozitləri | 614 | 850 | - | 321 | 48 | - | - | 1,833 |
| - daşınan əmlak | 7,062 | 391 | 173 | 66 | 2,433 | 111 | - | 10,236 |
| - əmək haqqı | - | 131 | - | 19 | 12 | - | - | 162 |
| - digər aktivlər | - | 226 | - | 8 | 31 | - | - | 265 |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **34,184** | **13,472** | **2,430** | **2,207** | **2,903** | **111** | **-** | **55,307** |

## 8 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

31 dekabr 2007-ci il tarixinə kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | Fiziki şəxslərə verilmiş istehlak kreditləri | Sahibkarlara verilmiş kreditlər | İpoteka kreditləri | Avtomobillərin alınması | Dövlət müəssisələri və bələdiyyə təşkilatları | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | | | | | |
| - 2007-ci ildə yenidən baxılmayan kreditlər | 36,288 | 19,660 | 4,084 | 5,870 | 2,479 | 2,690 | 698 | 71,769 |
| - 2007-ci ildə yenidən baxılan kreditlər | 620 | - | - | - | - | - | - | 620 |
| **Cəmi cari və dəyərsizləşməmiş** | **36,908** | **19,660** | **4,084** | **5,870** | **2,479** | **2,690** | **698** | **72,389** |
| *Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş* | | | | | | | | |
| - ödənişin 30 gündən az gecikdirilməsi | 11,833 | 10,753 | 1,248 | 2,647 | 1,554 | - | - | 28,035 |
| - ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | 2,949 | 2,486 | 190 | 267 | 376 | - | - | 6,268 |
| **Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | **14,782** | **13,239** | **1,438** | **2,914** | **1,930** | **-** | **-** | **34,303** |
| *Fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ)* | | | | | | | | |
| - ödənişin 30 gündən az gecikdirilməsi | 1,747 | 1,580 | 49 | 36 | 193 | - | - | 3,605 |
| - ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | 127 | 34 | 14 | - | - | - | - | 175 |
| - ödənişin 90 gündən 180 günədək gecikdirilməsi | 162 | 47 | 1 | - | 18 | - | - | 228 |
| - ödənişin 180 gündən 360 günədək gecikdirilməsi | 6 | - | 5 | - | 193 | - | - | 204 |
| - ödənişin 360 gündən artıq gecikdirilməsi | 252 | 2 | - | - | - | - | - | 254 |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ)** | **2,294** | **1,663** | **69** | **36** | **404** | **-** | **-** | **4,466** |
| **Digər kreditlərin ümumi balans dəyəri** | **53,984** | **34,562** | **5,591** | **8,820** | **4,813** | **2,690** | **698** | **111,158** |
| **Dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla** | **(1,445)** | **(1,346)** | **(188)** | **(78)** | **(214)** | **(21)** | **-** | **(3,292)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **52,539** | **33,216** | **5,403** | **8,742** | **4,599** | **2,669** | **698** | **107,866** |

Ödəniş müddəti 30 gündən az gecikdirilmiş, lakin dəyərsizləşməmiş kreditlər bu borcalanlara aid olan bütün ödənilməmiş kreditləri əks etdirir. 31 dekabr 2007-ci il tarixinə faktiki gecikdirilmiş məbləğ 87 min AZN (31 dekabr 2006: 139 min AZN) təşkil edir və vaxtı keçmiş faiz xərclərinə aiddir.

## 8 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

31 dekabr 2006-cı il tarixinə kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Korporativ kreditlər | Fiziki şəxslərə verilmiş istehlak kreditləri | Sahibkarlara verilmiş kreditlər | İpoteka kreditləri | Avtomobillərin alınması | Dövlət müəssisələri və bələdiyyə təşkilatları | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | | | | |
| - 2007-ci ildə yenidən baxılmayan kreditlər | 19,430 | 9,166 | 1,817 | 1,938 | 1,905 | 111 | 34,367 |
| - 2006-cı ildə yenidən baxılan kreditlər | 411 | - | - | 35 | - | - | 446 |
| **Cəmi cari və dəyərsizləşməmiş** | **19,841** | **9,166** | **1,817** | **1,973** | **1,905** | **111** | **34,813** |
| *Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş* | | | | | | | |
| - ödənişin 30 gündən az gecikdirilməsi | 3,330 | 189 | 91 | - | 75 | - | 3,685 |
| - ödənişin 30 gündən 90 günədək gecikdirilməsi | 4,491 | 726 | 166 | 16 | 216 | - | 5,615 |
| - ödənişin 90 gündən 180 günədək gecikdirilməsi | 3,698 | 1,300 | 142 | 30 | 61 | - | 5,231 |
| - ödənişin 180 gündən 360 günədək gecikdirilməsi | 1,769 | 1,300 | 167 | 177 | 152 | - | 3,565 |
| - ödənişin 360 gündən artıq gecikdirilməsi | 778 | 53 | - | - | 51 | - | 882 |
| **Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | **14,066** | **3,568** | **566** | **223** | **555** | **-** | **18,978** |
| *Fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ)* | | | | | | | |
| - ödənişin 90 gündən 180 günədək gecikdirilməsi | 12 | 102 | 15 | 11 | 14 | - | 154 |
| - ödənişin 180 gündən 360 günədək gecikdirilməsi | - | 422 | 25 | - | 55 | - | 502 |
| - ödənişin 360 gündən artıq gecikdirilməsi | 265 | 214 | 7 | - | 374 | - | 860 |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ)** | **277** | **738** | **47** | **11** | **443** | **-** | **1,516** |
| **Digər kreditlərin ümumi balans dəyəri** | **34,184** | **13,472** | **2,430** | **2,207** | **2,903** | **111** | **55,307** |
| **Dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla** | **(1,004)** | **(575)** | **(74)** | **(34)** | **(284)** | **(4)** | **(1,975)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **33,180** | **12,897** | **2,356** | **2,173** | **2,619** | **107** | **53,332** |

Kreditin dəyərsizləşməsi məsələsinə baxarkən rəhbərliyin nəzərə aldığı əsas amillər kreditin vaxtı keçmiş statusu və müvafiq girov təminatının dəyərini realizasiya etmək bacarığıdır. Bunun əsasında yuxarıdakı cədvəldə fərdi şəkildə dəyərsizləşmiş kreditlərin ödəmə müddətləri üzrə təhlili göstərilir.

## 8 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

Cari və dəyərsizləşməmiş, lakin yenidən baxılan kreditlər artıq şərtlərinə baxılmış və əks təqdirdə vaxtı keçmiş və dəyərsizləşmiş ola bilən kreditlərin balans dəyərini əks etdirir. Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər ödəniş müddətindən 90 gündən az keçmiş kreditləri və avansları, eləcə də təminatlı kreditləri əks etdirir. Təminatın ədalətli dəyəri gecikdirilmiş faiz ödənişlərini və əsas məbləği əhatə edir. Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kimi göstərilən məbləğlər yalnız ayrı-ayrı ödənişlərin vaxtı keçmiş məbləğlərini deyil, bu cür kreditlərin ümumi qalığını əks etdirir.

31 dekabr 2007-ci il tarixinə vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər və fərdi şəkildə dəyərsizləşmiş kreditlər üzrə təminatın ədalətli dəyəri aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Korporativ kreditlər** | **İstehlak kreditləri** | **Sahibkarlara verilmiş kreditlər** | **İpoteka kreditləri** | **Avtomobillərin alınması** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| *Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər üzrə təminatın ədalətli dəyəri* | | | | | | |
| - yaşayış sahəsi | 31,874 | 23,880 | 3,358 | 4,60[illegible] | 686 | 64,399 |
| - zəmanət məktubu | 269 | 3,291 | 1 | [illegible] | 154 | 3,724 |
| - dövriyyədə olan qiymətli kağızlar | 269 | 3,291 | 1 | [illegible] | 154 | 3,724 |
| - pul depozitləri | - | 816 | - | | 82 | 898 |
| - daşınan əmlak | 6,185 | 508 | 26 | | 3,768 | 10,487 |
| - əmək haqqı | - | 36 | - | | 1 | 37 |
| - digər aktivlər | - | 778 | - | [illegible] | 21 | 806 |
| *Fərdi şəkildə dəyərsizləşmiş kreditlər üzrə təminatın ədalətli dəyəri* | | | | | | |
| - yaşayış sahəsi | 3,639 | 1,692 | 161 | 6[illegible] | 270 | 5,830 |
| - zəmanət məktubu | 42 | 864 | - | | - | 906 |
| - dövriyyədə olan qiymətli kağızlar | 507 | - | - | | - | 507 |
| - pul depozitləri | - | - | - | | - | - |
| - daşınan əmlak | 1,612 | 120 | - | | 617 | 2,349 |
| - əmək haqqı | - | 8 | - | | 2 | 10 |
| - digər aktivlər | - | 3 | - | | - | 3 |
| **Cəmi** | **44,397** | **35,287** | **3,547** | **4,69[illegible]** | **5,755** | **93,680** |

## 8 Müştərilərə Verilmiş Kreditlər və Avanslar (davamı)

31 dekabr 2006-cı il tarixinə vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər və fərdi şəkildə dəyərsizləşmiş kreditlər üzrə təminatın ədalətli dəyəri aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Korporativ kreditlər** | **İstehlak kreditləri** | **Sahibkarlara verilmiş kreditlər** | **İpoteka kreditləri** | **Avtomobillərin alınması** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| *Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlər üzrə təminatın ədalətli dəyəri* | | | | | | |
| - yaşayış sahəsi | 18,436 | 6,613 | 1,841 | 347 | 179 | 27,416 |
| - zəmanət məktubu | 1,239 | 871 | 44 | - | 2 | 2,156 |
| - dövriyyədə olan qiymətli kağızlar | 6,641 | 706 | - | - | - | 7,347 |
| - pul depozitləri | - | 100 | - | 205 | 57 | 362 |
| - daşınan əmlak | 10,104 | 175 | - | - | 1,231 | 11,510 |
| - əmək haqqı | - | 1 | - | - | - | 1 |
| - digər aktivlər | - | 2 | - | - | - | 2 |
| *Fərdi şəkildə dəyərsizləşmiş kreditlər üzrə təminatın ədalətli dəyəri* | | | | | | |
| - yaşayış sahəsi | 1,246 | 1,267 | 112 | 26 | 47 | 2,698 |
| - zəmanət məktubu | - | 4 | 44 | - | - | 48 |
| - pul depozitləri | - | 392 | - | - | - | 392 |
| - daşınan əmlak | - | 100 | - | - | 846 | 946 |
| - əmək haqqı | - | - | - | 1 | - | 1 |
| **Cəmi** | **37,666** | **10,231** | **2,041** | **579** | **2,362** | **52,879** |

Balans tarixinə yaşayış sahəsinin ədalətli dəyəri şəhər və rayonlar üzrə daşınmaz əmlak bazarındakı qiymətlərin orta artımını nəzərə alaraq, kreditin verildiyi tarixdə Bankın daxili kredit departamentinin işçiləri tərəfindən müəyyən edilmiş məbləğlərin indeksasiyası yolu ilə təxmin edilmişdir. Digər yaşayış sahələri və digər aktivlərin ədalətli dəyəri Bankın daxili təlimatlarına əsasən müəyyən edilmişdir.

Müştərilərə verilmiş kreditlər və avansların hər bir kateqoriyasının balans dəyəri 31 dekabr 2007 və 31 dekabr 2006-cı il tarixlərinə təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2007-ci il tarixinə müştərilərə verilmiş kreditlər və avansların təxmin edilən ədalətli dəyəri 107,866 min AZN (31 dekabr 2006: 53,332 min AZN) təşkil etmişdir. 33 saylı Qeydə baxın.

Müştərilərə verilmiş kreditlər və avansların faiz dərəcələri üzrə təhlili 30 saylı Qeyddə göstərilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat 36 saylı Qeyddə açıqlanır.

## 9 Satıla Bilən İnvestisiya Qiymətli Kağızları

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| ARMB-nin notları | - | 3,513 |
| Rezident bankların təminatsız istiqrazları | - | 221 |
| Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqraz vərəqələri | - | 108 |
| **Cəmi borc qiymətli kağızları** | **-** | **3,842** |
| Korporativ səhmlər | 386 | 240 |
| **Cəmi satıla bilən investisiya qiymətli kağızları** | **386** | **4,082** |

31 dekabr 2007-ci il tarixinə borc qiymətli kağızların kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | ARMB-nin no | Rezident bankların təminatsız istiqrazları | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqraz vərəqələri | Korporativ s | Cəmi |
|---|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | | |
| - AAA reytinqi ilə | - | - | - | 221 | 221 |
| - 10 ən böyük Azərbaycan bankında | - | - | - | 104 | 104 |
| - Ölkə üzrə reytinq | - | - | - | 61 | 61 |
| **Cəmi satıla bilən borc qiymətli kağızları** | **-** | **-** | **-** | **386** | **386** |

31 dekabr 2006-cı il tarixinə borc qiymətli kağızların kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | ARMB-nin nc | Rezident bankların təminatsız istiqrazları | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqraz vərəqələri | Korporativ s | Cəmi |
|---|---|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | | | |
| - Ölkə üzrə reytinq | 3,513 | 221 | 108 | 31 | 3,873 |
| - AAA reytinqi ilə | - | - | - | 105 | 105 |
| - 10 ən böyük Azərbaycan bankında | - | - | - | 104 | 104 |
| **Cəmi satıla bilən borc qiymətli kağızları** | **3,513** | **221** | **108** | **240** | **4,082** |

## 9 Satıla Bilən İnvestisiya Qiymətli Kağızları (davamı)

Borc qiymətli kağızlar üçün təminat alınmır. Satıla bilən investisiya qiymətli kağızlarının hərəkəti aşağıdakı kimi olmuşdur:

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 2007 | 2006 |
|---|---|---|---|
| **1 yanvar tarixinə balans dəyəri** | | **4,082** | **135** |
| Ödəniş tarixinədək saxlanılan investisiya kağızlarından köçürmə | | - | 2,698 |
| Hesablanmış faiz gəlirləri | 22 | 67 | 187 |
| Əldə edilmiş faiz gəlirləri | | (98) | (286) |
| Alqılar | | 44,834 | 23,801 |
| Yenidən qiymətləndirmə | | 139 | 82 |
| Satıla bilən investisiya qiymətli kağızlarının satılması | | (48,638) | (22,535) |
| **31 dekabr tarixinə balans dəyəri** | | **386** | **4,082** |

31 dekabr 2007-ci il tarixində tamamlanan il ərzində satılmış investisiya qiymətli kağızlarının maya dəyəri 48,628 min AZN (2006: 22,487 min AZN), satış nəticəsində yaranan gəlir 10 min AZN (2006: 48 min AZN) təşkil etmişdir.

Satıla bilən əsas pay qiymətli kağızları aşağıda göstərilir:

| **Adı** | **Fəaliyyət növü** | **Qeydiyyat ölkəsi** | **Ədalətli dəyər** | |
|---|---|---|---|---|
| | | | **31 dekabr 2007** | **31 dekabr 2006** |
| MasterCard | Plastik kartlar | ABŞ | 221 | 105 |
| Rabitəbank | Maliyyə xidmətləri | Azərbaycan Respublikası | 90 | 90 |
| Bakı Fond Birjası | Fond birjası | Azərbaycan Respublikası | 60 | 31 |
| Azərdəmiryolbank | Maliyyə xidmətləri | Azərbaycan Respublikası | 15 | 14 |
| **Cəmi** | | | **386** | **240** |

2007-ci il ərzində Bank Bakı Fond Birjasının əlavə səhmlərini 30 min AZN müqabilində əldə etmişdir və ümumi nizamnamə kapitalındakı investisiya qoyuluşunun həcmini 5.26%-dək (31 dekabr 2006: 2.75%) artırmışdır. Hazırda Azərbaycan Respublikasında fond birjası praktiki baxımdan inkişaf mərhələsindədir və hazırkı hesabat tarixinə Bakı Fond Birjasının fəaliyyəti hələ başlanğıc mərhələsindədir. Rəhbərlik həmin investisiya qoyuluşunun ədalətli dəyərini etibarlı şəkildə müəyyən edə bilmədiyi üçün onu maya dəyərində qeydə almışdır. Bankın rəhbərliyi hesab edir ki, bu investisiya qoyuluşunun ədalətli dəyəri onun balans dəyərindən əhəmiyyətli dərəcədə fərqlənmir.

Satıla bilən investisiya qiymətli kağızlarının faiz dərəcələri üzrə təhlili 30 saylı Qeyddə açıqlanır. Əlaqəli tərəflərin buraxdığı satıla bilən investisiya qiymətli kağızları haqqında məlumat 36 saylı Qeyddə göstərilir.

## 10 Assosiasiya Olunmuş Müəssisələrə İnvestisiya Qoyuluşu

Aşağıdakı cədvəldə Bankın assosiasiya olunmuş müəssisələrdəki investisiya qoyuluşunun hərəkəti əks etdirilir.

| *Min Azərbaycan Manatı ilə* | 2007 | 2006 |
|---|---|---|
| **1 yanvar tarixinə balans dəyəri** | **302** | **144** |
| Alınmış assosiasiya olunmuş müəssisələrin xalis aktivlərinin ədalətli dəyəri | - | 150 |
| Assosiasiya olunmuş müəssisələrin mənfəətində/(zərərində) pay | (6) | 8 |
| **31 dekabr tarixinə balans dəyəri** | **296** | **302** |

31 dekabr 2007-ci il tarixinə Bankın əsas assosiasiya olunmuş müəssisəsində iştirak payı və həmin müəssisənin maliyyə göstəriciləri haqqında ümumi məlumat, o cümlədən ümumi aktivlər, passivlər, gəlir, mənfəət və ya zərər haqqında məlumat əks etdirilir:

| Adı | Cəmi aktivlər | Cəmi passivlər | Gəlir | Zərər | İştirak payı % | Qeydiyyat ölkəsi |
|---|---|---|---|---|---|---|
| AGLizinq | 3,657 | 2,670 | 644 | (21) | 30% | Azərbaycan Respublikası |
| **Cəmi** | **3,657** | **2,670** | **644** | **(21)** | | |

31 dekabr 2006-cı il tarixinə Bankın əsas assosiasiya olunmuş müəssisəsində iştirak payı və həmin müəssisənin maliyyə göstəriciləri haqqında ümumi məlumat, o cümlədən ümumi aktivlər, passivlər, gəlir, mənfəət və ya zərər haqqında məlumat əks etdirilir:

| Adı | Cəmi aktivlər | Cəmi passivlər | Gəlir | Mənfəət | İştirak payı % | Qeydiyyat ölkəsi |
|---|---|---|---|---|---|---|
| AGLizinq | 1,907 | 900 | 335 | 26 | 30% | Azərbaycan Respublikası |
| **Cəmi** | **1,907** | **900** | **335** | **26** | | |

## 11 Binalar, Avadanlıqlar və Qeyri-Maddi Aktivlər

| *Min Azərbaycan Manatı ilə* | İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri | Binalar | Ofis və kompüter avadanlığı | Mebel, qurğular və sair | İcarəyə götürül-müş aktivlərin əsaslı təmiri | Ümumi binalar və avadanlıqlar | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| 1 yanvar 2006-cı il tarixinə dəyər | 50 | 2,792 | 477 | 1,920 | - | 5,239 | 264 | 5,503 |
| Yığılmış amortizasiya | (26) | (410) | (250) | (704) | - | (1,390) | (85) | (1,475) |
| **1 yanvar 2006-cı il tarixinə balans dəyəri** | **24** | **2,382** | **227** | **1,216** | **-** | **3,849** | **179** | **4,028** |
| Əlavələr | 129 | 369 | 255 | 1,015 | - | 1,768 | 59 | 1,827 |
| Silinmələr | - | (358) | - | - | - | (358) | - | (358) |
| Amortizasiya ayırmaları | (27) | (116) | (104) | (341) | - | (588) | (28) | (616) |
| Yenidən qiymətləndirmə | - | 1,762 | - | - | - | 1,762 | - | 1,762 |
| **31 dekabr 2006-cı il tarixinə balans dəyəri** | **126** | **4,039** | **378** | **1,890** | **-** | **6,433** | **210** | **6,643** |
| 31 dekabr 2006-cı il tarixinə dəyər/qiymətləndirmə | 179 | 4,565 | 732 | 2,935 | - | **8,411** | 323 | **8,734** |
| Yığılmış amortizasiya | (53) | (526) | (354) | (1,045) | - | **(1,978)** | (113) | **(2,091)** |
| **31 dekabr 2006-cı il tarixinə balans dəyəri** | **126** | **4,039** | **378** | **1,890** | **-** | **6,433** | **210** | **6,643** |
| Əlavələr | 246 | 10 | 346 | 866 | 2,375 | **3,843** | 101 | **3,944** |
| Silinmələr | - | - | - | (30) | - | **(30)** | - | **(30)** |
| Amortizasiya ayırmaları | (56) | (144) | (176) | (468) | - | **(844)** | (36) | **(880)** |
| **31 dekabr 2007-ci il tarixinə balans dəyəri** | **316** | **3,905** | **548** | **2,258** | **2,375** | **9,402** | **275** | **9,677** |
| 31 dekabr 2007-ci il tarixinə dəyər/qiymətləndirmə | 425 | 4,575 | 1,078 | 3,771 | 2,375 | **12,224** | 424 | **12,648** |
| Yığılmış amortizasiya | (109) | (670) | (530) | (1,513) | - | **(2,822)** | (149) | **(2,971)** |
| **31 dekabr 2007-ci il tarixinə balans dəyəri** | **316** | **3,905** | **548** | **2,258** | **2,375** | **9,402** | **275** | **9,677** |

31 dekabr 2007-ci il tarixinə binalar və avadanlıqların yekun balansına 390 min AZN məbləğində (31 dekabr 2006: 299 min AZN) tamamilə köhnəlmiş, lakin hələ də Bankın gündəlik fəaliyyətində istifadə edilən aktivlər daxildir.

Bankın binaları 30 may 2006-cı il tarixində müstəqil şəkildə qiymətləndirilmişdir. Qiymətləndirmə bu sahədə tanınmış və peşəkar səriştə qazanmış, habelə analoji ərazidə yerləşən və bənzər kateqoriyadan olan aktivlərin qiymətləndirilməsində ən son təcrübəyə malik olan DTZ Debenham Tie Leung müstəqil qiymətləndirici şirkət tərəfindən bazar dəyəri prinsipinə əsasən həyata keçirilmişdir.

Yuxarıda göstərilən balans dəyəri Bankın binaları üzrə 1,697 min AZN (31 dekabr 2006: 1,738 min AZN) məbləğində yenidən qiymətləndirmə ehtiyatını əks etdirir. 1,324 min AZN (31 dekabr 2006: 1,356 min AZN) məbləğində yenidən qiymətləndirmə ehtiyatı 373 min AZN (31 dekabr 2006: 382 min AZN) məbləğində təxirə salınmış vergi öhdəliyi çıxılmaqla, səhmdar kapitalında dəyişikliklər hesabatında "binaların yenidən qiymətləndirilməsi" sətrində qeydə alınmışdır.

## 12 Digər Maliyyə Aktivləri

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| Kredit və debet kartları üzrə debitor borcları | 133 | 82 |
| Konvertasiya əməliyyatları üzrə hesablaşmalar | 100 | 59 |
| **Cəmi digər maliyyə aktivləri** | **233** | **141** |

31 dekabr 2007-ci il tarixinə digər maliyyə debitor borclarının kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Kredit və debet kartları üzrə debitor borcları | Konvertasiya əməliyyatları üzrə hesablaşmalar | C |
|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | |
| - Maliyyə institutları | 133 | 100 | |
| **Cəmi digər maliyyə aktivləri** | **133** | **100** | |

31 dekabr 2006-cı il tarixinə digər maliyyə debitor borclarının kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Kredit və debet kartları üzrə debitor borcları | Konvertasiya əməliyyatları üzrə hesablaşmalar | C |
|---|---|---|---|
| *Cari və dəyərsizləşməmiş* | | | |
| - Maliyyə institutları | 82 | 59 | |
| **Cəmi digər maliyyə debitor borcları** | **82** | **59** | |

## 13 Digər Aktivlər

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| Sığorta və digər xidmətlər üzrə qabaqcadan ödəmələr | 713 | 100 |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlərin alınması üçün qabaqcadan ödəmələr | 6,253 | 96 |
| Digər | 5 | 38 |
| **Cəmi digər aktivlər** | **6,971** | **234** |

Əsas vəsaitlər və qeyri-maddi aktivlərin alınması üçün qabaqcadan ödəmələrə 5,460 min AZN məbləğində torpaq sahəsinin alınması üçün ödənilmiş vəsait daxildir. Torpaq sahəsinin alınmasına dair müqavilə 26 dekabr 2007-ci il tarixində bağlanmışdır. Bank həmin torpaq sahəsini Dövlət Əmlak Komitəsi tərəfindən qeydiyyata alındıqdan sonra kapitallaşdıracaqdır.

## 14 Digər Banklara Ödəniləcək Vəsaitlər

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| Digər bankların qısamüddətli depozitləri | 12,140 | - |
| Digər bankların müxbir hesabları və overnayt depozitləri | 762 | 272 |
| **Cəmi digər banklara ödəniləcək vəsaitlər** | **12,902** | **272** |

31 dekabr 2007-ci il tarixinə rezident bankların qısamüddətli depozitlərinə rezident banklardan illik 10%-15% dərəcəsi ilə cəlb edilmiş dörd depozit (31 dekabr 2006: sıfır) daxildir.

Digər banklara ödəniləcək vəsaitlərin hər bir kateqoriyasının balans dəyəri 31 dekabr 2007 və 31 dekabr 2006-cı il tarixlərinə təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2007-ci il tarixinə digər banklara ödəniləcək vəsaitlərin təxmin edilən ədalətli dəyəri 12,902 min AZN (31 dekabr 2006: 272 min AZN) təşkil etmişdir. 33 saylı Qeydə baxın.

Digər banklara ödəniləcək vəsaitlərin faiz dərəcələri üzrə təhlili 30 saylı Qeyddə açıqlanır.

## 15 Müştəri Hesabları

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| **Dövlət müəssisələri və ictimai təşkilatlar** | | |
| - Cari/hesablaşma hesabları | 773 | 498 |
| - Müddətli depozitlər | 2 | 26 |
| **Digər hüquqi şəxslər** | | |
| - Cari/hesablaşma hesabları | 14,841 | 12,322 |
| - Müddətli depozitlər | 20,475 | 4,244 |
| - Bloklaşdırılmış müştəri depozitləri | 1,126 | 638 |
| **Fiziki şəxslər** | | |
| - Cari/tələbli hesablar | 14,506 | 11,647 |
| - Müddətli depozitlər | 41,493 | 26,862 |
| - Bloklaşdırılmış müştəri depozitləri | 2,899 | 1,205 |
| **Cəmi müştəri hesabları** | **96,115** | **57,442** |

Müştəri hesablarının iqtisadi sektorlar üzrə bölgüsü aşağıdakı kimidir:

| | 31 dekabr 2007 | | 31 dekabr 2006 | |
|---|---|---|---|---|
| *Min Azərbaycan Manatı ilə* | Məbləğ | % | Məbləğ | % |
| Fiziki şəxslər | 58,898 | 61.3% | 39,714 | 69.1% |
| Maliyyə xidmətləri | 16,020 | 16.7% | - | - |
| Ticarət və xidmətlər | 14,083 | 14.7% | 7,822 | 13.6% |
| Sığorta | 4,077 | 4.2% | 2,188 | 3.8% |
| İnşaat | 988 | 1.0% | 2,827 | 4.9% |
| Dövlət müəssisələri | 775 | 0.7% | 524 | 0.5% |
| İstehsal | 350 | 0.4% | 309 | 0.5% |
| Nəqliyyat | 217 | 0.2% | 497 | 0.9% |
| Kənd təsərrüfatı | 114 | 0.08% | 67 | 0.1% |
| Enerji | 75 | 0.02% | 3,224 | 5.6% |
| Digər | 518 | 0.7% | 270 | 1.0% |
| **Cəmi müştəri hesabları** | **96,115** | **100%** | **57,442** | **100%** |

## 15 Müştəri Hesabları (davamı)

31 dekabr 2007-ci il tarixinə Bankın müştəri hesablarında vəsaitlərinin ümumi qalığı 200 min AZN-dən yuxarı olan 47 müştərisi (31 dekabr 2006: 46 müştəri) olmuşdur. Həmin vəsaitlərin qalığı 53,592 min AZN (31 dekabr 2006: 29,940 min AZN) və ya ümumi müştəri hesablarının 56%-ni (31 dekabr 2006: 52%) təşkil etmişdir.

Müştəri hesablarının hər bir kateqoriyasının balans dəyəri 31 dekabr 2007 və 31 dekabr 2006-cı il tarixlərinə təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2007-ci il tarixinə müştəri hesablarının təxmin edilən ədalətli dəyəri 96,115 min AZN (31 dekabr 2006: 57,442 min AZN) təşkil etmişdir. 33 saylı Qeydə baxın.

Müştəri hesablarının faiz dərəcələri üzrə təhlili 30 saylı Qeyddə göstərilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat 36 saylı Qeyddə açıqlanır.

## 16 Buraxılmış Borc Qiymətli Kağızları

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007** | **31 dekabr 2006** |
|---|---|---|
| İstiqrazlar | 3,295 | 553 |
| **Cəmi buraxılmış borc qiymətli kağızları** | **3,295** | **553** |

26 yanvar 2004-cü il tarixində Bank, Bakı Fond Birjasında (BFB) ilkin yerləşdirmə vasitəsilə hər birinin nominal dəyəri 1,000 ABŞ dolları olan 2,000 ədəd istiqraz buraxmışdır.

31 dekabr 2007-ci il tarixinə 2004-cü ildə buraxılmış istiqrazların ümumi qalığı 295 min AZN məbləğində 300 ədəd istiqrazdan ibarət olmuşdur (31 dekabr 2006: 553 min AZN məbləğində 600 ədəd istiqraz). ABŞ dollarında olan bu istiqrazlar üzrə illik faiz dərəcəsi 7.0% təşkil edir və ödəmə müddəti 5 mart 2009-cu il tarixində başa çatır.

28 noyabr 2007-ci il tarixində Bank, Bakı Fond Birjasında ilkin yerləşdirmə vasitəsilə hər birinin nominal dəyəri 1,000 AZN olan 3,000 ədəd istiqraz buraxmışdır. 4 dekabr 2007-ci il tarixində bütün bu istiqrazlar "Kazimir Caspian Fund" tərəfindən satın alınmışdır. AZN ilə olan bu istiqrazlar üzrə illik faiz dərəcəsi 12% təşkil edir və ödəmə müddəti 28 noyabr 2009-cu il tarixində başa çatır.

Buraxılmış borc qiymətli kağızların balans dəyəri 31 dekabr 2007 və 31 dekabr 2006-cı il tarixlərinə təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2007-ci il tarixinə buraxılmış borc qiymətli kağızların təxmin edilən ədalətli dəyəri 3,295 min AZN (31 dekabr 2006: 553 min AZN) təşkil etmişdir. 33 saylı Qeydə baxın. Buraxılmış borc qiymətli kağızların faiz dərəcələri üzrə təhlili 30 saylı Qeyddə göstərilir.

## 17 Dövlət və Beynəlxalq Maliyyə Təşkilatlarından Alınmış Borc Vəsaitləri

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan alınmış borc vəsaitləri | 12,072 | 7,277 |
| Avropa Yenidənqurma və İnkişaf Bankından (AYİB) borc götürülmüş vəsaitlər | 4,954 | 3,051 |
| Asiya İnkişaf Bankından (AİB) borc götürülmüş vəsaitlər | 3,320 | - |
| Beynəlxalq Maliyyə Korporasiyasından (BMK) borc götürülmüş vəsaitlər | 2,955 | 3,362 |
| Azərbaycan İpoteka Fondundan borc götürülmüş vəsaitlər | 852 | - |
| Almaniya-Azərbaycan Fondundan (AAF) borc götürülmüş vəsaitlər | 448 | 473 |
| ARMB-dən borc götürülmüş vəsaitlər | - | 400 |
| **Cəmi dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri** | **24,601** | **14,563** |

27 sentyabr 2004-cü il tarixində Bankla Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yanında "Sahibkarlığa Kömək Milli Fondu" arasında kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məqsədilə kredit xəttinin açılmasına dair saziş imzalanmışdır. Bu proqram çərçivəsində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Banka illik 1%-2% faiz dərəcəsilə kredit vəsaitləri təqdim edilmişdir. Bank həmin vəsaitləri illik 7.0%-8.0% faizdən artıq olmamaq şərtilə müvafiq tələblərə cavab verən borcalanlara verir. Kredit sazişində hər hansı xüsusi şərt nəzərdə tutulmur.

17 fevral 2006-cı il tarixində Bank ilə Azərbaycan Respublikası Milli Bankı nəzdində "Azərbaycan İpoteka Fondu" (AİF) arasında fiziki şəxslərə verilmiş ipoteka kreditlərinin ilkin maliyyələşdirilməsi haqqında kredit müqaviləsi imzalanmışdır. Bu proqram çərçivəsində AİF tərəfindən Banka illik 2.0% faiz dərəcəsilə kredit vəsaitləri təqdim edilmişdir. Bank həmin vəsaitləri illik 4.0%-8.0% faiz dərəcələri ilə müvafiq tələblərə cavab verən borcalanlara verir. Azərbaycan İpoteka Fondundan borc götürülmüş vəsaitlər üzrə Bankın riayət etməli olduğu hər hansı xüsusi şərt mövcud deyil.

14 dekabr 2006-cı il tarixində Bank ilə Asiya İnkişaf Bankı arasında Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi proqramı çərçivəsində 4,000,000 ABŞ dolları həcmində kredit xəttinin açılmasına dair kredit sazişi imzalanmışdır. Bu kredit xətti üzrə ilkin ödəniş 17 sentyabr 2007-ci il tarixində həyata keçirilməklə, əsas məbləğin altı bərabər yarım illik hissələrlə geri qaytarılması nəzərdə tutulur. 31 dekabr 2007-ci il tarixinə bu kredit xətti üzrə qalıq 3,820,000 ABŞ dolları (31 dekabr 2006: sıfır) təşkil etmişdir. Bankın yuxarıda qeyd olunan kredit sazişində nəzərdə tutulan müəyyən xüsusi şərtlərə riayət etməsi tələb olunur. 32 saylı Qeydə baxın.

25 may 2006-cı il tarixində Bank ilə Asiya İnkişaf Bankı arasında Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi proqramı çərçivəsində 500,000 ABŞ dolları həcmində revolver kredit xəttinin açılmasına dair kredit müqaviləsi imzalanmışdır. 31 dekabr 2007-ci il tarixinə Bank bu kredit xətti üzrə təqdim edilmiş vəsaitləri tam olaraq istifadə etmişdir (31 dekabr 2006: sıfır). Bankın yuxarıda qeyd olunan kredit sazişində nəzərdə tutulan müəyyən xüsusi şərtlərə riayət etməsi tələb olunur. 32 saylı Qeydə baxın.

27 sentyabr 2004-cü il tarixində Bank ilə AYİB arasında Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məqsədilə 2,000,000 ABŞ dolları məbləğində kredit xəttinin açılması barədə kredit sazişi imzalanmışdır. Bu kredit xəttinin təqdim edildiyi tarixdən başlayaraq iki illik güzəşt dövründən sonra üç il ərzində altı yarım illik hissələrlə ödənilməsi nəzərdə tutulur. 31 dekabr 2007-ci il tarixinə qeyd olunan kredit xətti üzrə qalıq 250,000 ABŞ dolları (31 dekabr 2006: 1,250,000 ABŞ dolları) təşkil etmişdir. Bankın yuxarıda qeyd olunan kredit sazişində nəzərdə tutulan müəyyən xüsusi şərtlərə riayət etməsi tələb olunur. 32 saylı Qeydə baxın.

14 oktyabr 2005-ci il tarixində Bank və AYİB arasında 1,500,000 ABŞ dolları məbləğində kredit xəttinin açılmasına dair ikinci kredit sazişi imzalanmışdır. Bu kredit xəttinin təqdim edildiyi tarixdən başlayaraq iki illik güzəşt dövründən sonra üç il ərzində altı yarım illik hissələrlə ödənilməsi nəzərdə tutulmuşdur. 31 dekabr 2007-ci il tarixinə qeyd olunan kredit xətti üzrə qalıq 1,050,000 ABŞ dolları (31 dekabr 2006: 1,500,000 ABŞ dolları) təşkil etmişdir. Bankın yuxarıda qeyd olunan kredit sazişində nəzərdə tutulan müəyyən xüsusi şərtlərə riayət etməsi tələb olunur. 32 saylı Qeydə baxın.

## 17 Dövlət və Beynəlxalq Maliyyə Təşkilatlarından Alınmış Borc Vəsaitləri (davamı)

11 aprel 2006-cı il tarixində Bank ilə AYİB arasında Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın kreditləşdirilməsi proqramı çərçivəsində maksimum 2,000,000 ABŞ dolları məbləğində kredit xəttinin açılmasına dair yeni kredit sazişi imzalanmışdır. Bu kredit xətti üzrə ilkin ödəniş 25 sentyabr 2008-ci il tarixində həyata keçirilməklə, əsas məbləğin dörd bərabər yarım illik hissələrlə geri qaytarılması nəzərdə tutulur. 31 dekabr 2007-ci il tarixinə Bank bu kredit məbləğini tam olaraq istifadə etmişdir (31 dekabr 2006: 650,000 ABŞ dolları) və kredit xətti üzrə qalıq 2,000,000 ABŞ dolları təşkil etmişdir. Bankın yuxarıda qeyd olunan kredit sazişində nəzərdə tutulan müəyyən xüsusi şərtlərə riayət etməsi tələb olunur. 32 saylı Qeydə baxın.

8 may 2003-cü il tarixində Bank ilə Beynəlxalq Maliyyə Korporasiyası arasında Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın kreditləşdirilməsi proqramı çərçivəsində məqbul şərtlərlə kreditlərin verilməsi məqsədilə 1,200,000 ABŞ dolları məbləğində kredit xəttinin açılmasına dair kredit sazişi imzalanmışdır. Bu kredit xətti üzrə əsas məbləğin səkkiz bərabər yarım illik hissələrlə geri qaytarılması nəzərdə tutulur. BMK-nın müvafiq tələblərə cavab verən layihələrin müəyyən olunmasında yaxından iştirak etməsinə baxmayaraq, bu cür kreditlərlə bağlı bütün risklər Bankın üzərinə düşür. 31 dekabr 2007-ci il tarixinə qeyd olunan kredit xətti üzrə qalıq 400,000 ABŞ dolları (31 dekabr 2006: 800,000 ABŞ dolları) təşkil etmişdir. Bankın yuxarıda qeyd olunan kredit sazişində nəzərdə tutulan müəyyən xüsusi şərtlərə riayət etməsi tələb olunur. 32 saylı Qeydə baxın.

20 may 2007-ci il tarixində Bank ilə AYİB arasında Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın kreditləşdirilməsi proqramı çərçivəsində 6,000,000 ABŞ dolları məbləğində kredit xəttinin açılmasına dair yeni kredit sazişi imzalanmışdır. Bu kredit xətti üzrə ilkin ödəniş 3 noyabr 2009-cu il tarixində həyata keçirilməklə, əsas məbləğin yeddi bərabər yarım illik hissələrlə geri qaytarılması nəzərdə tutulur. 31 dekabr 2007-ci il tarixinə Bank bu vəsaitin 2,400,000 ABŞ dollarını istifadə etmişdir və kredit xətti üzrə qalıq 3,600,000 ABŞ dolları təşkil etmişdir. Bankın yuxarıda qeyd olunan kredit sazişində nəzərdə tutulan müəyyən xüsusi şərtlərə riayət etməsi tələb olunur. 32 saylı Qeydə baxın.

29 iyun 2006-cı il tarixində Bank ilə Beynəlxalq Maliyyə Korporasiyası arasında Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın kreditləşdirilməsi proqramı çərçivəsində məqbul şərtlərlə kreditlərin verilməsi məqsədilə 3,000,000 ABŞ dolları məbləğində kredit xəttinin açılmasına dair kredit sazişi imzalanmışdır. Bu kredit xətti üzrə ilkin ödəniş 15 sentyabr 2008-ci il tarixində həyata keçirilməklə, əsas məbləğin altı bərabər yarım illik hissələrlə geri qaytarılması nəzərdə tutulur. 31 dekabr 2007-ci il tarixinə Bank bu kredit məbləğini tam olaraq istifadə etmişdir (31 dekabr 2006: 3,000,000 ABŞ dolları). 31 dekabr 2007-ci il tarixinə bu kredit xətti üzrə qalıq 3,000,000 ABŞ dolları (31 dekabr 2006: 3,000,000 ABŞ dolları) təşkil etmişdir. Bankın yuxarıda qeyd olunan kredit sazişində nəzərdə tutulan müəyyən xüsusi şərtlərə riayət etməsi tələb olunur. 32 saylı Qeydə baxın.

24 sentyabr 2004-cü il tarixində Bankla Almaniya-Azərbaycan Fondu arasında Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın kreditləşdirilməsi proqramı çərçivəsində 500,000 Avro məbləğində kredit xəttinin açılmasına dair Çərçivə Sazişi imzalanmışdır. AAF, Azərbaycan Respublikası Hökuməti ilə Almaniya Federativ Respublikası Hökuməti arasında imzalanmış 21 dekabr 1998-ci il tarixli maliyyə əməkdaşlığı haqqında sazişə və Kreditanstalt fur Wiederaufbau (“KfW” Almaniya) və Azərbaycan Respublikası arasında imzalanmış 8 sentyabr 1999-cu il tarixli müvafiq kredit və maliyyələşdirmə müqaviləsinə əsasən təsis edilmişdir. Bu kredit xəttinin bir illik güzəşt dövrünü nəzərə almaqla, 31 dekabr 2015-ci il tarixindən gec olmayaraq səkkiz yarım illik hissələrlə geri qaytarılması nəzərdə tutulmuşdur. 31 dekabr 2007-ci il tarixinə Bank bu kredit xətti üzrə təqdim edilmiş vəsaitləri tam olaraq istifadə etmişdir. 31 dekabr 2007-ci il tarixinə bu kredit xətti üzrə qalıq 350,000 Avro (31 dekabr 2006: 500,000 Avro) təşkil etmişdir.

Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitlərinin hər bir kateqoriyasının balans dəyəri 31 dekabr 2007 və 31 dekabr 2006-cı il tarixlərinə təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2007-ci il tarixinə dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitlərinin təxmin edilən ədalətli dəyəri 24,601 min AZN (31 dekabr 2006: 14,563 min AZN) təşkil etmişdir. 33 saylı Qeydə baxın.

Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan alınmış borc vəsaitləri istisna olmaqla, 31 dekabr 2007-ci il tarixində tamamlanan il üçün bütün digər borc vəsaitləri üzrə illik bazar faiz dərəcələri 7%-10% təşkil etmişdir (31 dekabr 2006-cı il tarixində tamamlanan il: illik 7%-10%). 30 saylı Qeydə baxın.

## 18 Digər Maliyyə Passivləri

Digər maliyyə passivlərinə aşağıdakılar daxildir:

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|---|
| Ödənilməkdə olan məbləğlər | | 587 | 106 |
| Hesablanmış digər öhdəliklər | | 148 | 62 |
| Ödəniləcək dividendlər | 28 | 39 | 19 |
| Digər | | - | 7 |
| **Cəmi digər maliyyə passivləri** | | **774** | **194** |

Digər maliyyə passivlərinin hər bir kateqoriyasının balans dəyəri 31 dekabr 2007 və 31 dekabr 2006-cı il tarixlərinə təxminən onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2007-ci il tarixinə digər maliyyə passivlərinin təxmin edilən ədalətli dəyəri 774 min AZN (31 dekabr 2006: 194 min AZN) təşkil etmişdir. 33 saylı Qeydə baxın.

## 19 Digər Passivlər

Digər passivlərə aşağıdakılar daxildir:

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| İşçilər üzrə kreditor borcları | 345 | 345 |
| Mənfəət vergisindən başqa ödəniləcək digər vergilər | 127 | 34 |
| Digər | - | 5 |
| **Cəmi digər passivlər** | **472** | **384** |

İşçilər üzrə kreditor borcları ilə əlaqədar əvvəlki dövrün müqayisəli rəqəmləri düzəldilmişdir. 3 saylı Qeydə baxın.

## 20 Nizamnamə Kapitalı

| *Səhmlərin sayı istisna olmaqla, min AZN ilə* | Adi səhmlərin sayı (min ədədlə) | İmtiyazlı səhmlərin sayı (min ədədlə) | Adi səhmlərin nominal dəyəri | İmtiyazlı səhmlərin nominal dəyəri | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2006-cı il** | **2,600** | **300** | **5,200** | **600** | **5,800** |
| Emissiya edilmiş yeni səhmlər | 1,600 | - | 3,200 | - | 3,200 |
| **31 dekabr 2006-cı il** | **4,200** | **300** | **8,400** | **600** | **9,000** |
| Emissiya edilmiş yeni səhmlər | 1,500 | - | 3,000 | - | 3,000 |
| İmtiyazlı səhmlərin adi səhmlərə çevrilməsi | 300 | (300) | 600 | (600) | - |
| **31 dekabr 2007-ci il** | **6,000** | **-** | **12,000** | **-** | **12,000** |

Bütün adi səhmlərin nominal dəyəri 2 AZN-dir (2006: bir səhmə 2 AZN). Bu səhmlər bərabər hüquqludur və hər biri bir səs hüququ verir.

## 20 Nizamnamə Kapitalı (davamı)

3 dekabr 2007-ci il tarixində bütün imtiyazlı səhmlər adi səhmlərə çevrilmişdir. İmtiyazlı səhmlərin hər birinin nominal dəyəri 2 AZN olmaqla heç bir səsvermə hüququna malik deyil, lakin Bankın ləğv ediləcəyi halda adi səhmlərdən əvvəl ödənilir. İmtiyazlı səhmlər geri ödənilmir. 31 dekabr 2007-ci il tarixində tamamlanan il üçün imtiyazlı səhmlər üzrə dividendlər illik 16% (2006: illik 12%) müəyyən edilmişdir və bu dividendlər adi səhmlər üzrə dividendlərdən əvvəl ödənilir.

31 dekabr 2007-ci il tarixinə Bankın nizamnamə kapitalının strukturunda fiziki şəxslərin payı 81%, hüquqi şəxslərin payı isə 19% təşkil etmişdir (31 dekabr 2006: fiziki şəxslər 80.5%, hüquqi şəxslər 19.5%).

14 fevral 2007-ci il tarixində Bankın Müşahidə Şurası hər birinin nominal dəyəri 2 AZN olan əlavə 500 min adi səhm emissiyası yolu ilə Bankın nizamnamə kapitalının 10,000 min AZN-ə qədər artırılması qərarını təsdiqləmişdir. 1,000 min AZN məbləğində səhm emissiyası 9 aprel 2007-ci il tarixində tam olaraq ödənilmişdir və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən qeydə alınmışdır. 1 avqust 2007-ci il tarixində Bankın Müşahidə Şurası hər birinin nominal dəyəri 2 AZN olan əlavə 1,000 min adi səhm emissiyası yolu ilə Bankın nizamnamə kapitalının 2,000 min AZN artırılması qərarını təsdiqləmişdir. 2,000 min AZN məbləğində səhm emissiyası 11 dekabr 2007-ci il tarixində tam olaraq ödənilmişdir və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən qeydə alınmışdır.

## 21 Digər Ehtiyatlar

| *Min Azərbaycan Manatı ilə* | **Satıla bilən investisiya qiymətli kağızları** | **Binalar və avadanlıqlar** | **Cəmi digər ehtiyatlar** |
|---|---|---|---|
| **1 yanvar 2006-cı il** | **-** | **-** | **-** |
| Yenidən qiymətləndirmə | 82 | 1,762 | 1,844 |
| Realizasiya olunmuş yenidən qiymətləndirmə ehtiyatı | - | (24) | (24) |
| Mənfəət vergisinin təsiri | (18) | (388) | (406) |
| **31 dekabr 2006-cı il** | **64** | **1,350** | **1,414** |
| Yenidən qiymətləndirmə | 139 | - | 139 |
| Realizasiya olunmuş yenidən qiymətləndirmə ehtiyatı | - | (41) | (41) |
| Mənfəət vergisinin təsiri | (31) | - | (31) |
| **31 dekabr 2007-ci il** | **172** | **1,309** | **1,481** |

Satıla bilən investisiya qiymətli kağızları üzrə yenidən qiymətləndirmə ehtiyatı satış və ya dəyərsizləşmə yolu ilə realizasiya olunduqda, mənfəət və zərər hesabına köçürülür. Binalar və avadanlıqlar üzrə yenidən qiymətləndirmə ehtiyatı amortizasiya, dəyərsizləşmə, satış və ya digər silinmə yolu ilə realizasiya olunduqda bölüşdürülməmiş mənfəətə köçürülür.

## 22 Faiz Gəlirləri və Xərcləri

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007-ci il tarixində tamamlanan il** | **31 dekabr 2006-cı il tarixində tamamlanan il** |
|---|---|---|
| **Faiz gəlirləri** | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 14,653 | 7,647 |
| Digər banklardan alınacaq vəsaitlər | 375 | 708 |
| Digər banklardakı müxbir hesablar | 200 | 144 |
| Satıla bilən qiymətli kağızlar | 67 | 187 |
| **Cəmi faiz gəlirləri** | **15,295** | **8,686** |
| **Faiz xərcləri** | | |
| Fiziki şəxslərin müddətli depozitləri | 3,960 | 2,783 |
| Hüquqi şəxslərin müddətli depozitləri | 1,544 | 349 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 1,027 | 436 |
| Digər bankların müxbir hesabları | 21 | 38 |
| Buraxılmış borc qiymətli kağızları | 48 | 25 |
| Digər bankların müddətli depozitləri | 313 | 22 |
| **Cəmi faiz xərcləri** | **6,913** | **3,653** |
| **Xalis faiz gəlirləri** | **8,382** | **5,033** |

## 23 Haqq və Komissiya Gəlirləri və Xərcləri

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007-ci il tarixində tamamlanan il** | **31 dekabr 2006-cı il tarixində tamamlanan il** |
|---|---|---|
| **Haqq və komissiya gəlirləri** | | |
| - Plastik kartlarla əməliyyatlar | 1,500 | 1,121 |
| - Xarici valyuta ilə əməliyyatlar | 1,004 | 815 |
| - Kassa əməliyyatları | 654 | 495 |
| - Hesablaşma əməliyyatları | 605 | 480 |
| - Müştəri hesablarına xidmət | 537 | 456 |
| - Verilmiş zəmanətlər | 454 | 188 |
| **Cəmi haqq və komissiya gəlirləri** | **4,754** | **3,555** |
| **Haqq və komissiya xərcləri** | | |
| - Plastik kartlarla əməliyyatlar | 724 | 494 |
| - Müxbir hesablara xidmət | 374 | 302 |
| - Kassa əməliyyatları | 231 | 104 |
| - Verilmiş zəmanətlər | 283 | 72 |
| - Beynəlxalq maliyyə institutları | 70 | 11 |
| **Cəmi haqq və komissiya xərcləri** | **1,682** | **983** |
| **Xalis haqq və komissiya gəlirləri** | **3,072** | **2,572** |

## 24 Digər Əməliyyat Gəlirləri

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2007-ci il tarixində tamamlanan il | 31 dekabr 2006-cı il tarixində tamamlanan il |
|---|---|---|---|
| Dividend gəlirləri | | 19 | 13 |
| İnvestisiya kağızlarının satışından əldə edilən gəlir | 9 | 10 | 48 |
| Binalar və avadanlıqların satışından əldə edilən gəlir | | - | 2 |
| Digər | | - | 23 |
| **Cəmi digər əməliyyat gəlirləri** | | **29** | **86** |

## 25 İnzibati və Digər Əməliyyat Xərcləri

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2007-ci il tarixində tamamlanan il | 31 dekabr 2006-cı il tarixində tamamlanan il |
|---|---|---|---|
| İşçilərə sərf olunan xərclər | | 3,220 | 1,739 |
| Binalar və avadanlıqların amortizasiyası | 11 | 844 | 588 |
| Reklam və marketinq xidmətləri | | 582 | 405 |
| İcarə xərcləri | | 355 | 151 |
| Kommunal xidmətlər | | 272 | 193 |
| Mühafizə xidmətləri | | 232 | 158 |
| Binalar və avadanlıqlar üzrə digər xərclər | | 201 | 132 |
| Peşəkar xidmətlər | | 187 | 217 |
| Mənfəət vergisindən başqa digər vergilər | | 160 | 105 |
| Dəftərxana və digər xərclər | | 147 | 83 |
| Sığorta xərcləri | | 95 | 65 |
| Ezamiyyə xərcləri | | 89 | 61 |
| Proqram təminatı və digər qeyri-maddi aktivlərin amortizasiyası | 11 | 36 | 28 |
| Digər | | 269 | 134 |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | | **6,689** | **4,059** |

İşçilərə sərf olunan xərclərə yerli qanunvericiliyə müvafiq olaraq hesablanmış 570 min AZN məbləğində sosial sığorta ayırmaları və 70 min AZN məbləğində pensiya ödənişləri daxildir (31 dekabr 2006: 306 min AZN məbləğində sosial sığorta ayırmaları və 42 min AZN məbləğində pensiya ödənişləri).

## 26 Mənfəət Vergisi

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007-ci il tarixində tamamlanan il** | **31 dekabr 2006-cı il tarixində tamamlanan il (düzəldilmiş)** |
|---|---|---|
| Cari vergi xərci | 1,059 | 799 |
| Təxirə salınmış vergi | (28) | (16) |
| **İl üzrə mənfəət vergisi xərci** | **1,031** | **783** |

Bank Azərbaycan Respublikasının vergi və mühasibat uçotu qanunvericiliyinə uyğun olaraq 22% dərəcəsində (2005: 24%) mənfəət vergisi hesablamışdır. İşçilərə ödənilmiş xərclər üzrə əvvəlki dövrün cari və təxirə salınmış vergiləri düzəldilmişdir. 3 saylı Qeydə baxın.

Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin tutuşdurulması aşağıda göstərilir.

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007-ci il** | **31 dekabr 2006-cı il** |
|---|---|---|
| **BMHS-ə əsasən vergidən əvvəlki mənfəət** | **4,448** | **3,413** |
| Qanunvericiliklə müəyyən edilmiş vergi dərəcəsinə əsasən hesablanmış mənfəət vergisi xərci (2007: 22%; 2006: 22%) | 979 | 751 |
| Vergi məqsədləri üçün çıxılmayan xərclər və ya vergidən azad edilməyən gəlirlərin vergi effekti: | - | - |
| - Vergiyə cəlb edilməyən gəlirlər | (4) | (3) |
| - Gəlirdən çıxılmayan xərclər | 56 | 35 |
| **İl üzrə mənfəət vergisi xərci** | **1,031** | **783** |

BMHS və Azərbaycanın vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədləri çərçivəsində müəyyən aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi təsiri aşağıda göstərilir və 22% (2006: 22%) dərəcəsində qeydə alınır.

## 26 Mənfəət Vergisi (davamı)

31 dekabr 2007-ci il tarixinə təxirə salınmış vergi aktiv və öhdəliklərinin yaranmasına səbəb olan müvəqqəti fərqlərin vergi təsiri aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2006 (düzəldilmiş) | Mənfəət və zərər hesabatına debet | Birbaşa olaraq kapital hesabına kredit | 31 dekabr 2007 |
|---|---|---|---|---|
| **Vergi bazasını artıran müvəqqəti fərqlərin vergi təsiri** | | | | |
| Binalar və avadanlıqlar | (376) | 9 | - | (367) |
| Satıla bilən qiymətli kağızlarının ədalətli dəyərlə yenidən qiymətləndirilməsi | (18) | - | (31) | (49) |
| Müştərilərə verilmiş kreditlər | - | 41 | - | 41 |
| Hesablama metodu ilə qeydə alınmış xərclər | 106 | (6) | - | 100 |
| Digər | 16 | (16) | - | - |
| **Təxirə salınmış xalis vergi öhdəliyi** | **(272)** | **28** | **(31)** | **(275)** |

31 dekabr 2006-cı il tarixinə təxirə salınmış vergi aktiv və öhdəliklərinin yaranmasına səbəb olan müvəqqəti fərqlərin vergi təsiri aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2005 | Mənfəət və zərər hesabatına kredit | Birbaşa olaraq kapital hesabına kredit | Düzəliş | 31 dekabr 2006 (düzəldilmiş) |
|---|---|---|---|---|---|
| **Vergi bazasını artıran müvəqqəti fərqlərin vergi təsiri** | | | | | |
| Binalar və avadanlıqlar | 37 | (25) | (388) | - | (376) |
| Satıla bilən qiymətli kağızların ədalətli dəyərlə yenidən qiymətləndirilməsi | - | - | (18) | - | (18) |
| Hesablama metodu ilə qeydə alınmış xərclər | 3 | 28 | - | 75 | 106 |
| Digər | 3 | 13 | - | - | 16 |
| **Təxirə salınmış xalis vergi öhdəliyi** | **43** | **16** | **(406)** | **75** | **(272)** |

## 27 Səhm üzrə Mənfəət

(a) Əsas

Səhm üzrə əsas mənfəət Bankın səhmdarlarına aid olan xalis mənfəəti və ya zərəri il ərzində dövriyyədə olan adi səhmlərin orta çəkili sayına bölməklə hesablanır.

| *Min Azərbaycan Manatı ilə (başqa valyuta göstərilmədiyi halda)* | 31 dekabr 2007-ci il tarixində tamamlanan il | 31 dekabr 2006-cı il tarixində tamamlanan il |
|---|---|---|
| Bankın səhmdarlarına aid olan mənfəət | 3,417 | 2,630 |
| Dövriyyədə olan adi səhmlərin orta çəkili sayı (min ədədlə) | 5,136 | 3,221 |
| Səhm üzrə əsas mənfəət (hər bir səhm üzrə AZN ilə) | 0.67 | 0.82 |

## 27 Səhm üzrə Mənfəət (davamı)

(b) Sulandırılmış

Səhm üzrə sulandırılmış mənfəət, kapitala çevrilə bilən bütün alətlərin səhmlərə çevrilməsi fərziyyəsini irəli sürməklə adi səhmlərin orta çəkili sayı əsasında hesablanır. 31 dekabr 2007-ci il tarixinə Bankın kapitala çevrilə bilən borcu olmamışdır (31 dekabr 2006: 600 min AZN). 3 dekabr 2007-ci il tarixinə kapitala çevrilə bilən borc alətləri adi səhmlərə çevrilmişdir.

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007-ci il tarixində tamamlanan il** | **31 dekabr 2006-cı il tarixində tamamlanan il** |
|---|---|---|
| Bankın səhmdarlarına aid olan mənfəət | 3,417 | 2,630 |
| Dövriyyədə olan adi səhmlərin orta çəkili sayı | 5,136 | 3,221 |
| Sulandırılmış mənfəət üzrə adi səhmlərin orta çəkili sayı | 281 | 300 |
| Səhm üzrə sulandırılmış mənfəət (hər bir səhm üzrə AZN ilə) | 0.63 | 0.75 |

## 28 Dividendlər

| | **31 dekabr 2007** | | **31 dekabr 2006** | |
|---|---|---|---|---|
| *Min Azərbaycan Manatı ilə* | **Adi** | **İmtiyazlı** | **Adi** | **İmtiyazlı** |
| **1 yanvar tarixinə ödəniləcək dividendlər** | 19 | - | 1 | - |
| İl ərzində elan edilmiş dividendlər | 1,305 | 96 | 994 | 87 |
| İl ərzində ödənilmiş dividendlər | (1,285) | (96) | (976) | (87) |
| **Ödəniləcək dividendlər** | **39** | **-** | **19** | **-** |
| **İl ərzində səhm üzrə elan edilmiş dividendlər** | **0.23** | **0.32** | **0.24** | **0.29** |

Bütün dividendlər Azərbaycan Manatı ilə elan edilmiş və ödənilmişdir.

## 29 Seqmentlər üzrə Təhlil

Bank seqment haqqında məlumatın əsas təqdim olunma formatı kimi biznes seqmentlərindən, ikinci dərəcəli format kimi isə coğrafi seqmentlərdən istifadə edir.

***Biznes seqmentləri.*** Bankın fəaliyyəti iki əsas biznes seqmentləri üzərində qurulmuşdur:

- *Fərdi bank əməliyyatları* – fiziki şəxslərə bank xidmətlərinin göstərilməsi, fiziki şəxslər üçün cari hesabların açılması, depozitlərin cəlb olunması, pərakəndə investisiya vasitələrinin təqdim edilməsi, dəyərlilərin saxlanması, kredit və debet kartlarının açılması, istehlak və ipoteka kreditlərinin verilməsi daxildir; və.

- *Korporativ bank əməliyyatları* – birbaşa debet vasitələrinin təqdim edilməsi, cari hesabların açılması, depozitlərin cəlb olunması, overdraftların verilməsi, kredit və digər maliyyələşdirmə vasitələrinin təqdim edilməsi, xarici valyuta və derivativ maliyyə alətləri ilə əməliyyatlar.

Biznes seqmentləri arasında əhəmiyyətli gəlir və ya xərc maddələri mövcud deyil. Seqment üzrə aktiv və passivlər, vergi istisna olmaqla, Bankın aktiv və öhdəliklərinin böyük hissəsini təşkil edən əməliyyat aktiv və passivlərindən ibarətdir.

## 29 Seqmentlər üzrə Təhlil (davamı)

31 dekabr 2007 və 31 dekabr 2006-cı il tarixlərində tamamlanan illər üzrə Bankın hesabat verilə bilən əsas biznes seqmentləri haqqında məlumat aşağıda təqdim edilir:

| *Min Azərbaycan Manatı ilə* | **Fərdi bank əməliyyatları** | **Korporativ bank əməliyyatları** | **Bölüşdürülməmişdir** | **Cəmi** |
|---|---|---|---|---|
| **31 dekabr 2007** | | | | |
| **Cəmi seqment gəlirləri** | 10,795 | **9,264** | **-** | **20,059** |
| **Cəmi seqment gəlirlərinə daxildir:** | | | | |
| - Faiz gəlirləri | 7,785 | 7,510 | - | 15,295 |
| - Haqq və komissiya gəlirləri | 3,005 | 1,749 | - | 4,754 |
| - Digər əməliyyat gəlirləri | 5 | 5 | - | 10 |
| **Cəmi seqment gəlirləri** | **10,795** | 9,264 | **-** | **20,059** |
| **Seqmentin nəticələri** | **1,441** | **1,895** | **-** | **3,336** |
| Digər gəlirlər | - | - | 1,118 | 1,118 |
| Assosiasiya olunmuş müəssisənin vergidən sonrakı maliyyə nəticələrində pay | - | (6) | - | (6) |
| **Vergidən əvvəlki mənfəət** | **1,441** | **1,889** | **1,118** | **4,448** |
| Mənfəət vergisi xərci | | | | (1,031) |
| **Mənfəət** | | | | **3,417** |
| Seqment aktivləri | 78,408 | 77,699 | - | 156,107 |
| Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşu | - | 296 | - | 296 |
| Cari mənfəət vergisi üzrə qabaqcadan ödəmələr | - | - | 375 | 375 |
| **Cəmi aktivlər** | **78,408** | **77,995** | **375** | **156,778** |
| Seqment öhdəlikləri | 59,243 | 78,916 | - | 138,159 |
| Təxirə salınmış vergi öhdəlikləri | - | - | 275 | 275 |
| **Cəmi öhdəliklər** | **59,243** | **78,916** | 275 | **138,434** |
| **Digər seqment maddələri** | | | | |
| Kapital xərcləri | (1,923) | (2,021) | - | (3,944) |
| Amortizasiya xərcləri | (524) | (356) | - | (880) |
| Digər qeyri-pul xərcləri | (893) | (546) | - | (1,439) |

## 29 Seqmentlər üzrə Təhlil (davamı)

Bank amortizasiya xərclərini seqment xərclərinə daxil etmək və xarici valyuta ilə əməliyyatlar və xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan gəlirləri (xərclər çıxılmaqla) seqment gəlirlərinin tərkibindən çıxarmaq məqsədilə, seqment nəticələri üzrə uçot siyasətini dəyişdirmişdir.

| *Min Azərbaycan Manatı ilə* | **Fərdi bank əməliyyatları** | **Korporativ bank əməliyyatları** | **Bölüşdürülməmişdir** | **Cəmi** |
|---|---|---|---|---|
| **31 dekabr 2006** | | | | |
| **Cəmi seqment gəlirləri** | 4,690 | 7,589 | - | 12,279 |
| **Cəmi seqment gəlirlərinə daxildir:** | | | | |
| - Faiz gəlirləri | 3,317 | 5,369 | - | 8,686 |
| - Haqq və komissiya gəlirləri | 1,358 | 2,197 | - | 3,555 |
| - Digər əməliyyat gəlirləri | 15 | 23 | - | 38 |
| **Cəmi seqment gəlirləri** | **4,690** | **7,589** | **-** | **12,279** |
| **Seqmentin nəticələri** | **1,099** | **1,653** | **-** | **2,752** |
| Digər gəlirlər | - | - | 653 | 653 |
| Assosiasiya olunmuş müəssisənin vergidən sonrakı maliyyə nəticələrində pay | - | 8 | - | 8 |
| **Vergidən əvvəlki mənfəət** | **1,099** | **1,661** | **653** | **3,413** |
| Mənfəət vergisi xərci | | | | (783) |
| **Mənfəət** | | | | **2,630** |
| Seqment aktivləri | 33,225 | 53,768 | - | 86,993 |
| Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşu | - | 302 | - | 302 |
| Digər aktivlər | - | - | - | - |
| **Cəmi aktivlər** | **33,225** | **54,070** | | **87,295** |
| Seqment öhdəlikləri | 40,059 | 33,349 | - | 73,408 |
| Təxirə salınmış vergi öhdəlikləri | - | - | 272 | 272 |
| Cari vergi öhdəlikləri | - | - | 395 | 395 |
| **Cəmi öhdəliklər** | **40,059** | **33,349** | **667** | **74,075** |
| **Digər seqment maddələri** | | | | |
| Kapital xərcləri | (603) | (1,224) | - | (1,827) |
| Amortizasiya xərcləri | (205) | (411) | - | (616) |
| Digər qeyri-pul xərcləri | (291) | (541) | - | (832) |

## 29 Seqmentlər üzrə Təhlil (davamı)

***Coğrafi seqmentlər.*** 31 dekabr 2007 və 31 dekabr 2006-cı il tarixlərində tamamlanan illər üzrə Bankın əsas coğrafi seqmentləri haqqında məlumat aşağıda təqdim edilir.

| *Min Azərbaycan Manatı ilə* | **Azərbaycan Respublikası** | **İƏİT-yə üzv olan ölkələr** | **İƏİT-yə üzv olmayan ölkələr** | **Cəmi** |
|---|---|---|---|---|
| **31 dekabr 2007** | | | | |
| Seqment aktivləri | 146,270 | 9,816 | 21 | 156,107 |
| Seqment gəlirləri | 18,610 | 1,449 | - | 20,059 |
| Kapital xərcləri | 3,887 | - | - | 3,887 |
| Kreditlərlə bağlı öhdəliklər (Qeyd 32) | 22,189 | - | - | 22,189 |
| **31 dekabr 2006** | | | | |
| Seqment aktivləri | 82,869 | 4,077 | 47 | 86,993 |
| Seqment gəlirləri | 12,135 | 143 | 1 | 12,279 |
| Kapital xərcləri | 1,827 | - | - | 1,827 |
| Kreditlərlə bağlı öhdəliklər (Qeyd 32) | 5,616 | 993 | 1,211 | 7,820 |

Üçüncü tərəflərdən əldə edilmiş gəlirlər, aktivlər və kreditlərlə bağlı öhdəliklər adətən qarşı tərəfin fəaliyyət göstərdiyi ölkə üzrə təsnifləşdirilmişdir. Nağd pul, binalar və avadanlıqlar, eləcə də kapital xərcləri fiziki olaraq saxlanıldığı ölkə üzrə təsnifləşdirilmişdir.

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi

Bank daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Kredit riski.*** Kredit riski müştərinin və ya qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman yaranan riskdir. Kredit riskinin əsas hissəsi müştərilərə və banklara verilmiş kreditlər və avanslardan, balans və balansdankənar kreditlər üzrə digər risklərdən yaranır. Risklər üzrə hesabat hazırlayarkən Bank müştərilər və ya qarşı tərəfin ödəmə qabiliyyətinin olmaması riski və sənaye riski kimi kredit riskinin bütün elementlərini tam şəkildə nəzərə alır. Hazırda bazar əməliyyatları üzrə yeganə kredit riski dövlət istiqrazları və Azərbaycan Respublikası Milli Bankının buraxdığı notlardan yaranır. Bu istiqrazlardan yalnız Bankın likvidlik mövqeyinin daha səmərəli idarə edilməsi məqsədilə istifadə edilir.

Hüquqi şəxslər, fiziki şəxslər və maliyyə təşkilatları üçün kredit risklərinin təsdiqlənməsi üzrə ümumi struktur aşağıdakı kimidir:

Təminatlı kreditlər üzrə:

- Müşahidə Şurası yerli mühasibat standartlarına uyğun hesablanmış ümumi kapitalın 10%-dən 20%-dək kredit limitlərini təhlil edərək təsdiqləyir və müntəzəm olaraq yığışır;

- Kiçik Kredit Komitəsi maksimum 100,000 min AZN məbləğində kreditləri təhlil edərək təsdiqləyir və müntəzəm olaraq yığışır; və

- Böyük Kredit Komitəsi 500,000 min AZN məbləğində kreditləri təhlil edərək təsdiqləyir və müntəzəm olaraq yığışır.

**30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)**

Təminatsız kreditlər üzrə:

- Kiçik Kredit Komitəsi maksimum 30,000 min AZN məbləğində kreditləri təhlil edərək təsdiqləyir və müntəzəm olaraq yığışır; və

- Böyük Kredit Komitəsi 100,000 min AZN məbləğində kreditləri təhlil edərək təsdiqləyir və müntəzəm olaraq yığışır.

Aktiv və Passivlərin İdarə Edilməsi Komitəsi (APİK) risklərin diversifikasiyasına nəzarət etmək və onu idarə etmək üçün ümumi kredit limitlərini təsdiqləyir:

- Kredit portfeli üzrə limitlər: Hüquqi şəxslərə verilmiş kreditlər, fiziki şəxslərə verilmiş kreditlər və banklararası kreditlərin ümumi portfelə faiz nisbəti;
- Kredit portfeli üzrə limitlər: Təminatlı və təminatsız kreditlərin ümumi portfelə və fiziki şəxslər üzrə kredit portfelinə faiz nisbəti; və
- İqtisadi sektor və məhsul üzrə risklərin hüquqi və fiziki şəxslərin kredit portfellərinə faiz nisbəti.

Kredit Komitəsi həmçinin kredit limitlərini və risklər üzrə səlahiyyət səviyyəsini aşağıdakı qaydada təsdiqləyir:

- Filiallar üzrə;
- Təminatın növü və kreditin təminata nisbəti; və
- Fiziki şəxslərin səlahiyyəti üzrə.

31 dekabr 2007-ci il tarixinə kredit portfelinin iqtisadi sektor və məhsullar üzrə təhlili 8 saylı Qeyddə göstərilir.

***Kredit risklərinin idarə edilməsi.*** Kredit siyasəti Bankın risk profili və strateji planlarına uyğun olaraq Risklərin İdarə Edilməsi Departamenti və İdarə Heyəti tərəfindən hazırlanır. Kredit siyasəti Müşahidə Şurası tərəfindən təsdiqlənir.

Kredit siyasətində aşağıdakılar əks etdirilir:

- Qarşı tərəfin risklərinin yaradılması, təhlil edilməsi, yoxlanılması və təsdiqlənməsi üzrə prosedurlar;
- Qarşı tərəflər üzrə kreditin qiymətləndirilməsi metodologiyası;
- Qarşı tərəflər üzrə kredit reytinqi metodologiyası;
- Təminatın qiymətləndirilməsi və nəzarəti metodologiyası;
- Kreditlərin sənədləşdirilməsi üzrə tələblər;
- Kreditlərin idarə edilməsi prosedurları;
- Kredit riskləri üzrə müntəzəm nəzarət prosedurları;
- Ətraf mühit siyasəti; və
- Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın yaradılması siyasəti.

İlk mərhələdə kredit mütəxəssisi müştəri ilə görüşür. Kredit ərizələri müəyyən edilmiş limitlər çərçivəsində filiallar və ya müvafiq biznes vahidləri tərəfindən təsdiq edilir. Bundan sonra, kredit mütəxəssisi müştərinin fəaliyyət göstərdiyi yerə baxış keçirir. İkinci mərhələdə isə kredit mütəxəssisi müştəri ilə görüşlərin keçirilməsi və onunla bağlı maliyyə, girov təminatı və digər məlumatların toplanması və təhlil edilməsi üçün məsuliyyət daşıyır. Sonrakı mərhələdə bu sənədlərin surətləri yekun memorandum ilə birlikdə təsdiqlənmək üçün Kredit Komitəsinə təqdim edilir. Əgər tələb olunan kredit məbləği müəyyən edilmiş limitdən aşağı olarsa və Kredit Komitəsi tərəfindən müsbət rəy verilərsə, eləcə də müvafiq işçilər tərəfindən imzalanarsa, kredit ərizəsi təsdiqlənmiş hesab edilir. Əgər kredit ərizəsi müəyyən edilmiş limitdən yuxarı olarsa, o, APİK-ə göndərilir. Yuxarıda qeyd edildiyi kimi, iri əməliyyatlar üzrə ərizələr təsdiqlənmək üçün Müşahidə Şurasına təqdim edilir. Kredit ərizəsi Komitə, APİK və Müşahidə Şurası tərəfindən təsdiq edildikdən sonra, müştəriyə qəbul edilmiş qərar haqqında son bildiriş verilir. Kredit müqaviləsi hazırlanır və prosesin sonuncu mərhələsində müvafiq kredit müştəriyə təqdim edilir.

Müştərinin reytinqi altı əsas meyarın təhlilinə əsasən müəyyən edilir: ödəmə qabiliyyəti, maliyyə göstəriciləri, pul vəsaitlərinin hərəkətinin təhlili, kredit tarixçəsi, girovun dəyəri və digər.

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Balansdankənar maliyyə alətləri üzrə kredit riski həmin maliyyə aləti üzrə əməliyyatların digər iştirakçısı tərəfindən müqavilə üzrə öz öhdəliklərini yerinə yetirə bilməməsi nəticəsində zərərin yaranması ehtimalı kimi müəyyən edilir. Bank şərti öhdəlikləri və balans üzrə maliyyə alətləri ilə əlaqədar əməliyyatların təsdiqlənməsi prosedurları, riskləri məhdudlaşdıran limitlərdən istifadə və monitorinq prosedurlarına əsaslanan eyni kredit siyasətini tətbiq edir.

Fiziki şəxslərə verilmiş bəzi kredit məhsulları üçün Bank, kreditin qiymətləndirilməsi sistemindən və potensial riskli müştərilərin müəyyən edilməsi üçün öz daxili prosedurlarından və Azərbaycan Respublikası Milli Bankının idarə etdiyi məlumat bazasındakı məlumatlardan istifadə edir. Kreditlər portfel üzrə qiymətləndirilir və bu zaman kreditin məbləği və müddət limitləri, təsdiqləmə prosedurları, məhsulların növləri, defolt haqqında məlumatlar, kredit/girov əmsalları (əgər tətbiq edilərsə) və qiymətləndirmə kimi amillərə daha çox diqqət yetirilir.

***Girov və digər kredit təminatları.*** Kredit riski həmçinin əmlak üzrə ipoteka tələbi formasında girovun, girov qoyulmuş aktiv və qiymətli kağızların, eləcə də depozitlər, hüquqi və fiziki şəxslərə verilmiş zəmanətlər daxil olmaqla digər girov növlərinin əldə olunması, nəzarəti və monitorinqi vasitəsilə qiymətləndirilir və idarə edilir.

Kredit riskinin qiymətləndirilməsində girovun əsas faktor olmasına baxmayaraq, Bankın kredit siyasəti ərizələrin müştərilərin yalnız təklif etdiyi girova deyil, onların ödəniş qabiliyyətinə əsasən qiymətləndirməkdir. Girov kreditin qaytarılması üçün ikinci ödəniş mənbəyi hesab edilir. Kreditlər nadir hallarda müştərinin maliyyə vəziyyətindən və ya kredit məhsulunun növündən yaxud həcmindən asılı olaraq təminatsız ola bilər. Bank risk portfelinin təminatsız kreditləri üzrə müxtəlif limitlər müəyyən etmişdir.

Bankın qəbul etdiyi əsas girov növləri aşağıdakılardır:

- Kommersiya əmlakı
- Yaşayış binaları
- Korporativ kapital aktivləri
- Korporativ likvid aktivlər
- Nəqliyyat vasitələri
- Müddətli depozitlər
- Digər, o cümlədən qiymətli metallar

Bankda qəbul edilmiş bütün girov növləri üzrə dəqiq qiymətləndirmə, sənədləşdirmə və tətbiq edildikdə qeydiyyat prosedurları mövcuddur. Kreditlərin maksimum miqdarının girova nisbəti Risklərin İdarə Edilməsi Departamenti tərəfindən təsdiqlənir və nəzarət edilir:

| Girovun növü | Kreditin məbləğinin girovun likvid dəyərinə nisbəti |
|---|---|
| • Nağd pul depozitlərindən başqa, bütün girov növləri | 70% |
| • Nağd pul depozitləri (eyni valyutada) | 90% |
| • Nağd pul depozitləri (fərqli valyutada) | 80% |

Risklərin İdarə Edilməsi Departamenti qarşı tərəflərin kredit riskləri üzrə bütün məsələlər, o cümlədən bütün limitlərə uyğunluq, risklər üzrə konsentrasiyalar, portfel üzrə tendensiyalar, vaxtı keçmiş kreditlər və defolt statistikası, kreditlər üzrə ehtiyatlar və girov statistikasına dair məlumatların toplanması və təqdim edilməsinə görə cavabdehdir. Müntəzəm aylı hesabatlardan başqa, həmin departament seçilmiş kredit prosedurlarına riayət edilməsinə dair hesabatlar tərtib edir.

***Əlaqəli tərəflərə verilmiş kreditlər.*** Azərbaycan Respublikası Milli Bankı "əlaqəli tərəflər" kateqoriyası ilə bağlı dəqiq anlayışlar müəyyən etmişdir. Bu kateqoriyaya əsasən Səhmdarlar və ya fiziki şəxslər və yaxud onların yaxın ailə üzvlərinin mülkiyyətində olan/nəzarət etdiyi hüquqi şəxslər daxildir. Buraya həmçinin Bankda baş rəhbərlik/səlahiyyətli vəzifələrdə çalışan fiziki şəxslər daxildir. Fiziki şəxs olan əlaqəli tərəfə verilən ən böyük kreditlər Bankın ümumi kapitalının 3%-dən artıq ola bilməz. Müvafiq hüquqi şəxslər üzrə isə bu limit 10% təşkil edir. Əlaqəli tərəflərə verilmiş kreditlər üzrə risklər üçün ümumi limit 20%-dir. Qiymətləndirmə və digər şərtlər tərəflərin müstəqilliyi prinsipi əsasında müəyyən edilməlidir.

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

***Vaxtı keçmiş, qeyri-işlək kreditlər.*** Bank, vaxtı keçmiş və qeyri-işlək kreditləri onların ödəmə müddətinin başa çatdığı ilk gündən müəyyən etmək və hesabatlarda əks etdirmək üçün prosedurlar hazırlamışdır. 30 günədək vaxtı keçmiş kreditlər əvvəlcədən hər hansı problemin müəyyən edilmədiyi təqdirdə, müvafiq biznes vahidləri tərəfindən nəzərdən keçirilir. Fiziki şəxslərə verilmiş və 30 gündən çox vaxtı keçmiş təminatsız kreditlər avtomatik olaraq Hüquq Departamenti nəzdində fəaliyyət göstərən Problemli Kreditlər Şöbəsinə ötürülür. Hüquqi şəxslərə verilmiş və 60 gündən çox vaxtı keçmiş kreditlər eyni şöbəyə ötürülür. 90 gündən çox vaxtı keçmiş kreditlər faizləri hesablanmayan kreditlər statusuna aid edilir. Problemli Kreditlər Şöbəsi bu öhdəlikləri toplaya bilmədikdə hüquqi prosedurlar həyata keçirilir. Kredit geri qaytarıla bilmədikdə, müvafiq məbləğlərin silinməsinə dair təkliflər Kredit Komitəsinə və İdarə Heyətinə təqdim edilir. Silinmə ilə bağlı son qərarı İdarə Heyəti qəbul edir.

Vaxtı keçmiş kreditlər haqqında bütün məlumatlar ayda bir dəfədən az olmamaq şərtilə Kredit Komitəsinə təqdim edilir. Hüquqi şəxslərə verilmiş vaxtı keçmiş kreditlər üzrə bütün məsələlər barədə bilavasitə Kredit Komitəsinə hesabat verilir. Kredit Komitəsi isə öz növbəsində Müşahidə Şurasına hesabat verir.

***Kreditlər üzrə ehtiyat – ehtiyat siyasəti.*** Bank kreditlər üzrə ehtiyat yaradır və buraya risklə üzləşməsindən yaranan təxminini zərərlər daxildir.

Bundan əlavə, Azərbaycan Respublikası Milli Bankı banklar üçün minimum standart sayılan ehtiyat siyasəti müəyyən etmişdir. Bu ehtiyat tələbləri üzrə kateqoriyalar aşağıda göstərilir:

| | |
|---|---|
| Standart aktivlər | 2% |
| Nəzarət edilə bilən aktivlər | 6% |
| Qeyri-qənaətbəxş aktivlər | 25% |
| Riskli aktivlər | 50% |
| Ümidsiz aktivlər | 100% |

Bu kateqoriyalar dəqiq müəyyən edilmişdir.

BMHS-ə uyğun hesabatların hazırlanması məqsədilə Bank kreditlər üzrə ehtiyatın səviyyəsini müəyyən etmək üçün 39 saylı BMS-də əks etdirilən metodologiyadan əsas kimi istifadə edir.

***Kredit riskinin maksimal səviyyəsi.*** Bankın balans üzrə məruz qaldığı kredit riskinin maksimal səviyyəsi, adətən balans hesabatında maliyyə aktivlərinin balans dəyərində əks olunur. Potensial kredit riskinin azaldılması üçün aktiv və passivlərin əvəzləşdirilməsi imkanı böyük əhəmiyyət kəsb etmir.

Balansdankənar maddələr üzrə kredit riskləri, xüsusilə akkreditivlər və zəmanətlər balans üzrə maddələr ilə eyni qaydada qiymətləndirilir. Bankın balansdankənar maddələr üzrə kredit riski 32 saylı "Təəhhüdlər və Şərti Öhdəliklər" Qeydində açıqlanır.

Balansdankənar maliyyə alətləri üzrə kredit riski həmin maliyyə aləti üzrə əməliyyatların digər iştirakçısı tərəfindən müqavilə üzrə öz öhdəliklərini yerinə yetirə bilməməsi nəticəsində zərərin yaranması ehtimalı kimi müəyyən edilir. Bank şərti öhdəlikləri və balans üzrə maliyyə alətləri ilə əlaqədar əməliyyatların təsdiqlənməsi prosedurları, riskləri məhdudlaşdıran limitlərdən istifadə və monitorinq prosedurlarına əsaslanan eyni kredit siyasətini tətbiq edir.

***Bazar riski.*** Bank bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) valyuta, (b) faiz və (c) pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Buna baxmayaraq, bu cür yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

***Xarici valyuta riski.*** Bank Azərbaycan manatına qarşı xarici valyuta məzənnələrindəki dəyişikliklərin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar xarici valyuta riskinə məruz qalır. İdarə Heyəti hər bir valyuta üzrə və ümumilikdə risklərin səviyyəsi ilə əlaqədar günün sonuna, həmçinin bir gün ərzində limitlər müəyyən edir və bu limitlərə gündəlik nəzarət edir. Balans tarixinə Bankın məruz qaldığı valyuta riski üzrə ümumi təhlil əks olunur:

| | 31 dekabr 2007 | | | 31 dekabr 2006 | | |
|---|---|---|---|---|---|---|
| *Min Azərbaycan Manatı ilə* | **Pul maliyyə aktivləri** | **Pul maliyyə passivləri** | **Balans üzrə xalis mövqe** | **Pul maliyyə aktivləri** | **Pul maliyyə passivləri** | **Balans üzrə xalis mövqe** |
| Azərbaycan Manatı | 83,146 | 78,306 | 4,840 | 38,118 | 25,144 | 12,974 |
| ABŞ dolları | 52,293 | 54,353 | (2,060) | 39,458 | 45,082 | (5,624) |
| Avro | 3,970 | 4,951 | (981) | 2,350 | 2,715 | (365) |
| Digər | 50 | 77 | (27) | 190 | 83 | 107 |
| **Cəmi** | **139,459** | **137,687** | **1,772** | **80,116** | **73,024** | **7,092** |

Yuxarıdakı cədvələ yalnız pul aktivləri və passivləri daxildir. Bank hesab edir ki, səhm alətləri üzrə investisiyalar və qeyri-maddi aktivlər əhəmiyyətli valyuta riskinin yaranmasına gətirib çıxarmır.

Bütün digər dəyişikliklərin sabit qalması şərtilə, balans tarixinə tətbiq edilən valyuta məzənnələrindəki mümkün dəyişikliklər nəticəsində mənfəət/zərər və kapitalda dəyişikliklər aşağıdakı cədvəldə əks etdirilir:

| | 31 dekabr 2007 | 31 dekabr 2006 |
|---|---|---|
| *Min Azərbaycan Manatı ilə* | **Mənfəət və zərər üzrə təsir** | **Mənfəət və zərər üzrə təsir** |
| ABŞ dollarının 5% möhkəmlənməsi | 18,039 | (215,408) |
| ABŞ dollarının 5% zəifləməsi | (18,039) | 215,408 |
| Avronun 5% möhkəmlənməsi | (26,068) | (11,718) |
| Avronun 5% zəifləməsi | 26,068 | 11,718 |
| Funt sterlinqin 5% möhkəmlənməsi | (1,719) | 2,633 |
| Funt sterlinqin 5% zəifləməsi | 1,719 | (2,633) |
| Rus rublunun 5% möhkəmlənməsi | (709) | 327 |
| Rus rublunun 5% zəifləməsi | 709 | (327) |
| Digər valyutaların 5% möhkəmlənməsi | 47 | 2 |
| Digər valyutaların 5% zəifləməsi | (47) | (2) |

Valyuta məzənnələrindəki bu cür dəyişikliklərin Bankın mənfəət və ya zərərinə təsirindən başqa, kapitala hər hansı təsiri yoxdur.

Risk, yalnız Bankın funksional valyutasından fərqli valyutalarda ifadə olunan pul qalıqları üçün hesablanır.

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

***Açıq valyuta mövqeyi limitləri.*** Azərbaycan Respublikası Milli Bankının Açıq Valyuta Mövqeyi Limitlərinin Müəyyən Edilməsi və Tənzimlənməsi haqqında Qaydalarına uyğun olaraq, Bankın hər-hansı bir valyuta üzrə açıq valyuta mövqeyi Bankın ümumi kapitalının 10%-dən, bütün xarici valyutalar üzrə isə 20%-dən artıq olmamalıdır.

Rəhbərlik hesab edir ki, 31 dekabr 2007-ci il tarixinə yerli qanunvericiliyə uyğun müəyyən edilmiş açıq valyuta mövqeyi limitlərinə riayət olunmuşdur. Bankın yerli qanunvericiliyə uyğun müəyyən edilmiş açıq valyuta mövqeyi limitləri onun yerli standartlara uyğun hazırlanmış hesabatları əsasında hesablanır. Açıq valyuta mövqeyi limitlərinin hesablanması Bankın hazırkı maliyyə hesabatlarında təqdim edilən məlumatlardan əhəmiyyətli dərəcədə fərqlənir. Məsələn, açıq valyuta mövqeyinin hesablanması zamanı Bankın il ərzində imzaladığı və ya qüvvədə olan "forvard müqavilələri" nəzərə alınmışdır. Bu müqavilələr Beynəlxalq Maliyyə Hesabatı Standartlarında nəzərdə tutulan forvard valyuta müqavilələri tərifinə cavab vermədiyi üçün, onlar hazırkı maliyyə hesabatlarında əks etdirilməmişdir. 31 dekabr 2006 və 31 dekabr 2007-ci il tarixlərinə bu cür müqavilələr üzrə gəlir/zərər əhəmiyyətli olmamışdır. 31 dekabr 2007-ci il tarixinə Bankın ABŞ dolları üzrə məruz qaldığı valyuta riski 10% (2006: 41%) olmuşdur. Rəhbərlik gələcəkdə ABŞ dolları üzrə məruz qaldığı valyuta riskini azaltmaq üçün müvafiq tədbirlər görür.

Bundan əlavə, Bank müəyyən borc vəsaitləri üzrə müqavilələrdə nəzərdə tutulan açıq valyuta mövqeyi ilə əlaqədar xüsusi şərtlərə riayət etmək məcburiyyətindədir. Açıq forvard valyuta mövqelərini nəzərə almasaq, Bank 31 dekabr 2006-cı il tarixinə və bu tarixdə tamamlanan il ərzində müəyyən vaxtlarda həmin xüsusi şərtlərə əməl etməmişdir. Buna baxmayaraq, Rəhbərlik il ərzində görülmüş tədbirlər nəticəsində Bankın 1 aprel 2007-ci il tarixinə və 31 dekabr 2007-ci il tarixində tamamlanan ilin qalan hissəsində həmin şərtlərə əməl etdiyini hesab edir. Bank qeyd olunan kredit müqavilələrində nəzərdə tutulan xüsusi şərtlərin pozulması nəticəsində hər hansı mənfi təsirə məruz qalmamışdır.

***Faiz dərəcəsi riski.*** Bank bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Bu cür dəyişikliklər nəticəsində faiz marjaları arta bilər, lakin faiz dərəcələri üzrə gözlənilməyən dəyişikliklər baş verdiyi təqdirdə faiz marjaları həmçinin azala və ya zərərin yaranmasına səbəb ola bilər. Rəhbərlik faiz dərəcələrinin dəyişməsinin qəbul edilə bilən səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Aşağıdakı cədvəldə Bankın məruz qaldığı faiz dərəcəsi riski üzrə ümumi təhlil əks olunur. Aşağıdakı cədvəldə Bankın cəmi aktiv və passivləri müqavilə üzrə faiz dərəcələrinin dəyişməsi tarixlərinə və ya ödəmə tarixlərinə görə (bunlardan hansı daha tez olarsa) təsnifləşdirilir.

| *Min Azərbaycan Manatı ilə* | **Tələb edilənədək və 1 aydan az** | **1-6 ay ərzində** | **6-12 ay ərzində** | **1 ildən çox** | **Qeyri-pul** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2007** | | | | | | |
| Cəmi maliyyə aktivləri | 7,273 | 1,069 | 21,731 | 86,643 | 22,743 | 139,459 |
| Cəmi maliyyə passivləri | 1,288 | 8,487 | 6,812 | 85,428 | 35,672 | 137,687 |
| **31 dekabr 2007-ci il tarixinə xalis həssaslıq çatışmazlığı** | **5,985** | **(7,418)** | **14,919** | **1,215** | **(12,929)** | **1,772** |
| **31 dekabr 2006** | | | | | | |
| Cəmi maliyyə aktivləri | 19,575 | 5,576 | 11,088 | 32,165 | 11,712 | 80,116 |
| Cəmi maliyyə passivləri | 35,271 | 11,591 | 7,109 | 18,859 | 194 | 73,024 |
| **31 dekabr 2006-cı il tarixinə xalis həssaslıq çatışmazlığı** | **(15,696)** | **(6,015)** | **3,979** | **13,306** | **11,518** | **7,092** |

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Bütün digər dəyişkənlərin sabit qalması şərtilə, 31 dekabr 2007-ci il tarixinə faiz dərəcələri həmin tarixdə 0.5% aşağı/yuxarı olsaydı il üzrə mənfəət əsasən dəyişkən faiz öhdəlikləri üzrə aşağı/yuxarı faiz xərcləri nəticəsində 49 min AZN (2006: 39 min AZN) çox/az olardı.

Bank öz maliyyə alətləri üzrə faiz dərəcələrinə nəzarət edir. Bankın baş rəhbərliyi tərəfindən təhlil edilmiş hesabatlara əsaslanan faiz dərəcələri aşağıdakı cədvəldə göstərilir:

| | 31 dekabr 2007 | | | | 31 dekabr 2006 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| *İllik %* | **AZN** | **ABŞ dolları** | **Avro** | **Digər** | **AZN** | **ABŞ dolları** | **Avro** | **Digər** |
| **Aktivlər** | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | 4.7 | 2.5 | - | - | 4.6 | 2.5 | - |
| Digər banklardan alınacaq vəsaitlər | 19.0 | 4.0 | - | - | - | 14.1 | - | - |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 17.1 | 20.6 | 18.0 | - | 19.5 | 16.9 | 18.7 | - |
| Satıla bilən borc qiymətli kağızları | - | - | - | - | - | 14.2 | - | - |
| **Passivlər** | | | | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 13 | 11.8 | - | - | - | 10.0 | - | - |
| Müştəri hesabları | 12.2 | 12.7 | 8.7 | 5.3 | 11.0 | 12.0 | 9.6 | 6.1 |
| Buraxılmış borc qiymətli kağızları | 12 | 7 | - | - | - | 7.0 | - | - |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 1.2 | 9.3 | 7.5 | - | 1.0 | 9.5 | 6.3 | - |

***Coğrafi risk.*** 31 dekabr 2007-ci il tarixinə Bankın aktiv və passivlərinin coğrafi təhlili aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Azərbaycan Respublikası** | **İƏİT-yə üzv olan ölkələr** | **İƏİT-yə üzv olmayan ölkələr** | **Cəmi** |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 15,477 | 8,807 | 21 | 24,305 |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | 4,626 | - | - | 4,626 |
| Digər banklardan alınacaq vəsaitlər | 1,485 | 558 | - | 2,043 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 107,866 | - | - | 107,866 |
| Satıla bilən investisiya qiymətli kağızları | 165 | 221 | - | 386 |
| Digər maliyyə aktivləri | 3 | 230 | - | 233 |
| **Cəmi maliyyə aktivləri** | **129,622** | **9,816** | **21** | **139,459** |
| **Qeyri-maliyyə aktivləri** | **17,319** | **-** | **-** | **17,319** |
| **Cəmi aktivlər** | **146,941** | **9,816** | **21** | **156,778** |

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

| *Min Azərbaycan Manatı ilə* | Azərbaycan Respublikası | İƏİT-yə üzv olan ölkələr | İƏİT-yə üzv olmayan ölkələr | Cəmi |
|---|---|---|---|---|
| **Passivlər** | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 12,902 | - | - | 12,902 |
| Müştəri hesabları | 71,115 | 15,000 | 10,000 | 96,115 |
| Buraxılmış borc qiymətli kağızları | 295 | - | 3,000 | 3,295 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 12,925 | 8,356 | 3,320 | 24,601 |
| Digər maliyyə passivləri | 774 | - | - | 774 |
| **Digər maliyyə passivləri** | **98,011** | **23,356** | **16,320** | **137,687** |
| **Qeyri-maliyyə passivləri** | **747** | **-** | **-** | **747** |
| **Cəmi passivlər** | **98,758** | **23,356** | **16,320** | **138,434** |
| **Balans üzrə xalis mövqe** | **48,183** | **(13,540)** | **(16,299)** | **18,344** |
| **Kreditlərlə bağlı öhdəliklər** | **22,189** | **-** | **-** | **21,189** |

Aktivlər, passivlər və kreditlərlə bağlı öhdəliklər adətən qarşı tərəfin fəaliyyət göstərdiyi ölkə üzrə təsnifləşdirilmişdir. Nağd pul, binalar və avadanlıqlar, eləcə də kapital xərcləri fiziki olaraq saxlanıldığı ölkə üzrə təsnifləşdirilmişdir.

31 dekabr 2006-cı il tarixinə Bankın aktiv və passivlərinin coğrafi təhlili aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Azərbaycan Respublikası | İƏİT-yə üzv olan ölkələr | İƏİT-yə üzv olmayan ölkələr | Cəmi |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11,390 | 3,619 | 47 | 15,056 |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | 3,664 | - | - | 3,664 |
| Digər banklardan alınacaq vəsaitlər | 3,488 | 353 | - | 3,841 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 53,332 | - | - | 53,332 |
| Satıla bilən investisiya qiymətli kağızları | 3,977 | 105 | - | 4,082 |
| Digər maliyyə aktivləri | 37 | 104 | - | 141 |
| **Cəmi maliyyə aktivləri** | **75,888** | **4,181** | **47** | **80,116** |
| **Qeyri-maliyyə aktivləri** | **7,179** | **-** | **-** | **7,179** |
| **Cəmi aktivlər** | **83,067** | **4,181** | **47** | **87,295** |

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

| *Min Azərbaycan Manatı ilə* | **Azərbaycan Respublikası** | **İƏİT-yə üzv olan ölkələr** | **İƏİT-yə üzv olmayan ölkələr** | **Cəmi** |
|---|---|---|---|---|
| **Passivlər** | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 272 | - | - | 272 |
| Müştəri hesabları | 57,442 | - | - | 57,442 |
| Buraxılmış borc qiymətli kağızları | 553 | - | - | 553 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 7,677 | 6,886 | - | 14,563 |
| Digər maliyyə passivləri | 194 | - | - | 194 |
| **Digər maliyyə passivləri** | **66,138** | **6,886** | **-** | **73,024** |
| **Qeyri-maliyyə passivləri** | **1,051** | **-** | **-** | **1,051** |
| **Cəmi passivlər** | **67,189** | **6,886** | **-** | **74,075** |
| **Balans üzrə xalis mövqe** | **15,878** | **(2,705)** | **47** | **13,220** |
| **Kreditlərlə bağlı öhdəliklər** | **5,616** | **993** | **1,211** | **7,820** |

***Likvidlik riski.*** Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin passivlər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır. Bank hər gün overnayt depozitləri, müştəri hesabları üzrə hesablaşmaların aparılması, depozitlərin ödənilməsi, kreditlərin verilməsi və zəmanətlər üzrə ödənişlər üçün mövcud olan pul vəsaitlərindən istifadə etmək riskinə məruz qalır. Bank yuxarıda qeyd edilən bütün tələblər üzrə öhdəliklərin eyni zamanda yerinə yetirilməsi üçün kifayət qədər nağd vəsait saxlamır, belə ki, təcrübəyə əsasən həmin öhdəliklərin yerinə yetirilməsi üçün pul vəsaitlərinin lazımi səviyyəsini kifayət qədər dəqiqliklə proqnozlaşdırmaq olar. Likvidlik riski Bankın Aktiv və Passivlərin İdarə Edilməsi Komitəsi tərəfindən idarə olunur.

Bank əsasən digər banklara ödəniləcək vəsaitlərdən, hüquqi /fiziki şəxslərdən cəlb edilmiş depozitlərdən və borc qiymətli kağızlarından ibarət olan davamlı maliyyələşdirmə bazasının saxlanması və həmçinin likvidlik üzrə gözlənilməyən tələblərin tez bir zamanda və asanlıqla yerinə yetirilməsi imkanına malik olmaq üçün likvid aktivlərin  diversifikasiya edilmiş portfellərinə sərmayə qoymağa çalışır.

Bankda likvidliyin idarə edilməsi aşağıdakı tədbirlərin həyata keçirilməsini tələb edir: öhdəliklərin ödəmə müddətində yerinə yetirilməsi üçün zəruri olan likvid aktivlər üzrə təhlilin aparılması; müxtəlif maliyyələşdirmə mənbələrindən istifadənin təmin edilməsi; maliyyələşdirmə ilə bağlı problemlərin yaranacağı təqdirdə planların mövcud olması və qanunvericilikdə nəzərdə tutulan balans üzrə likvidlik əmsallarına riayət edilməsinə nəzarətin aparılması. Azərbaycan Respublikası Milli Bankın tələblərinə uyğun olaraq, Bank ayda minimum otuz faiz ani likvidlik əmsalı hesablayır. 31 dekabr 2007-ci il tarixinə faktiki əmsal 69.4% (31 dekabr 2006: 57.3%) olmuşdur.

Xəzinədarlıq Departamenti maliyyə aktivləri və passivləri üzrə likvidlik profilinə dair məlumat əldə edir. Bundan sonra, Xəzinədarlıq Departamenti Bankda kifayət qədər likvidliyin təmin edilməsi məqsədilə, əsasən dilinq əməliyyatları üçün qısamüddətli qiymətli kağızlardan, banklardakı depozitlərdən və digər banklararası kreditlərdən ibarət olan qısamüddətli likvid aktivlər üzrə portfelin adekvatlığını təmin edir.

Aşağıdakı cədvəldə 31 dekabr 2007-ci il tarixinə aktiv və passivlər müqavilə üzrə ödəmə müddətlərinə görə təsnifləşdirilir. Bu aktivlərin hər hansı birinin dəyərsizləşməsini təsdiqləyən məlumatlar olarsa və həmin aktivlər üzrə hesablaşmalar müvafiq müqavilədə nəzərdə tutulan tarixdən sonra aparılarsa, bu cür hallarda təsnifləşdirmə üçün gözlənilən hesablaşma tarixindən istifadə edilir. Bəzi aktiv və passivlər daha uzunmüddətli ola bilər, məsələn, qısamüddətli kreditlərin müddətinin tez-tez uzadılması nəticəsində onlar daha uzunmüddətli xarakter ala bilər.

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Bankın müştəriləri tərəfindən geri götürülməmiş müddətli depozitlər kimi vaxtı keçmiş passivlər "tələb edilənədək və bir aydan az" kateqoriyasına daxil edilmişdir. Vaxtı keçmiş aktivlər isə onların gözlənilən ödəmə müddəti üzrə təsnifləşdirilmişdir. Satıla bilən pay qiymətli kağızları kimi müqavilə üzrə ödəmə müddəti olmayan müəyyən aktivlərin ödəmə müddəti onların realizasiya olunacağı tarix hesab edilir.

31 dekabr 2007-ci il tarixinə maliyyə öhdəliklərinin diskont edilməmiş ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Tələb edilənədək və 1 aydan az | 1-3 ay ərzində | 3-12 ay ərzində | 1-5 il ərzində | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Passivlər** | | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 8,948 | 1,032 | 1,040 | 2,277 | - | 13,297 |
| Fiziki şəxslərin müştəri hesabları | 19,638 | 1,633 | 18,049 | 21,962 | 46 | 61,328 |
| Digər müştəri hesabları | 17,656 | 1,024 | 2,868 | 17,807 | - | 39,355 |
| Buraxılmış borc qiymətli kağızları | - | - | - | 4,407 | - | 4,407 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 184 | 1,681 | 3,445 | 19,059 | 1,871 | 26,240 |
| Digər maliyyə passivləri | 326 | - | 448 | - | - | 774 |
| Kreditlərlə bağlı digər öhdəliklər | 3,658 | 4,005 | 9,393 | 8,515 | - | 25,571 |
| **Maliyyə öhdəlikləri üzrə cəmi potensial gələcək ödənişlər** | **50,410** | **9,375** | **35,243** | **74,027** | **1,917** | **170,972** |

31 dekabr 2006-cı il tarixinə maliyyə öhdəliklərinin diskont edilməmiş ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Tələb edilənədək və 1 aydan az | 1-3 ay ərzində | 3-12 ay ərzində | 1-5 il ərzində | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Passivlər** | | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 272 | - | - | - | - | 272 |
| Fiziki şəxslərin müştəri hesabları | 13,575 | 8,534 | 11,482 | 13,290 | 34 | 46,915 |
| Digər müştəri hesabları | 13,680 | 1,948 | 2,572 | 485 | - | 18,685 |
| Buraxılmış borc qiymətli kağızları | - | - | - | - | 1,331 | 1,331 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 6,467 | 102 | 875 | 7,648 | 175 | 15,267 |
| Digər maliyyə passivləri | 94 | 50 | 50 | - | - | 194 |
| Kreditlərlə bağlı digər öhdəliklər | 10,368 | 839 | 441 | 105 | - | 11,753 |
| **Maliyyə öhdəlikləri üzrə cəmi potensial gələcək ödənişlər** | **44,456** | **11,473** | **15,420** | **21,528** | **1,540** | **94,417** |

Yuxarıdakı cədvəldə müştəri hesabları müqavilə üzrə ödəmə müddətlərinə görə göstərilmişdir. Lakin, fiziki şəxslər öz depozitləri üzrə hesablanmış faizləri itirmək şərtilə, həmin depozitləri ödəmə müddətindən əvvəl geri götürə bilərlər.

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Bank, likvidliyin idarə edilməsi üçün yuxarıda göstərilən diskont edilməmiş ödəmə müddətləri üzrə təhlildən istifadə etmir. Bunun əvəzində Bank, 31 dekabr 2007-ci il tarixinə aşağıdakı cədvəldə əks etdirilən gözlənilən ödəmə müddətlərinə nəzarət edir:

| *Min Azərbaycan Manatı ilə* | **Tələb edilənədək və 1 aydan az** | **1-3 ay ərzində** | **3-12 ay ərzində** | **1-5 il ərzində** | **5 ildən çox** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 24,305 | - | - | - | - | 24,305 |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | 4,626 | - | - | - | - | 4,626 |
| Digər banklardan alınacaq vəsaitlər | - | - | 1,485 | 558 | - | 2,043 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7,305 | 3,026 | 26,651 | 64,943 | 5,941 | 107,866 |
| Satıla bilən investisiya qiymətli kağızları | - | - | - | - | 386 | 386 |
| Digər maliyyə aktivləri | 233 | - | - | - | - | 233 |
| **Cəmi maliyyə aktivləri** | **36,469** | **3,026** | **28,136** | **65,501** | **6,327** | **139,459** |
| **Passivlər** | | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 8,902 | 1,000 | 1,000 | 2,000 | - | 12,902 |
| Müştəri hesabları | 36,440 | 2,506 | 19,645 | 37,482 | 42 | 96,115 |
| Buraxılmış borc qiymətli kağızları | - | - | - | 3,295 | - | 3,295 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 95 | 1,511 | 2,844 | 18,279 | 1,872 | 24,601 |
| Digər maliyyə passivləri | 326 | - | 448 | - | - | 774 |
| **Cəmi maliyyə passivləri** | **45,763** | **5,017** | **23,937** | **61,056** | **1,914** | **137,687** |
| **31 dekabr 2007-ci il tarixinə xalis likvidlik çatışmazlığı** | **(9,294)** | **(1,991)** | **4,199** | **4,445** | **4,413** | **1,772** |
| **31 dekabr 2007-ci il tarixinə məcmu likvidlik çatışmazlığı** | **(9,294)** | **(11,285)** | **(7,086)** | **(2,641)** | **1,772** | |

## 30 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

31 dekabr 2006-cı il tarixinə gözlənilən ödəmə müddətlərinə görə təhlil aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Tələb edilənədək və 1 aydan az | 1-3 ay ərzində | 3-12 ay ərzində | 1-5 il ərzində | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 15,056 | - | - | - | - | 15,056 |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | 3,664 | - | - | - | - | 3,664 |
| Digər banklardan alınacaq vəsaitlər | 3,841 | - | - | - | - | 3,841 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 4,502 | 1,936 | 14,727 | 32,167 | - | 53,332 |
| Satıla bilən investisiya qiymətli kağızları | 3,621 | - | 221 | 240 | - | 4,082 |
| Digər maliyyə aktivləri | 141 | - | - | - | - | 141 |
| **Cəmi maliyyə aktivləri** | **30,825** | **1,936** | **14,948** | **32,407** | **-** | **80,116** |
| **Passivlər** | | | | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 272 | - | - | - | - | 272 |
| Müştəri hesabları | 27,246 | 8,424 | 10,744 | 11,010 | 18 | 57,442 |
| Buraxılmış borc qiymətli kağızları | - | - | - | - | 553 | 553 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri | 6,413 | - | 400 | 7,575 | 175 | 14,563 |
| Digər maliyyə passivləri | 94 | 50 | 50 | - | - | 194 |
| **Cəmi maliyyə passivləri** | **34,025** | **8,474** | **11,194** | **18,585** | **746** | **73,024** |
| **31 dekabr 2006-cı il tarixinə xalis likvidlik çatışmazlığı** | **(3,200)** | **(6,538)** | **3,754** | **13,822** | **(746)** | **7,092** |
| **31 dekabr 2006-cı il tarixinə məcmu likvidlik çatışmazlığı** | **(3,200)** | **(9,738)** | **(5,984)** | **7,838** | **7,092** | |

Bankın Rəhbərliyinin fikrincə aktiv və passivlərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və/və ya nəzarət olunan uyğunsuzluğu Bankın idarə olunması üçün əsas amillərdir. Ümumiyyətlə, banklarda bu göstəricilərə tam uyğunluq təmin edilmir. Belə ki, əməliyyatlar çox zaman qeyri-müəyyən müddətə aparılır və fərqli xarakterli daşıyır. Bu göstəricilər üzrə uyğunsuzluq potensial olaraq gəlirliliyi artıra, lakin eyni zamanda zərərin baş vermə riskini yüksəldə bilər. Aktiv və passivlərin ödəmə müddətləri, eləcə də ödəmə müddətləri tamamlandıqdan sonra faiz hesablanan passivlərin münasib dəyərlə əvəz edilməsi imkanı, Bankın likvidliyinin və faiz dərəcələri və mübadilə məzənnələrinin dəyişəcəyi halda onun risklərinin qiymətləndirilməsi üçün əsas amillər hesab olunur.

Rəhbərliyin fikrincə Azərbaycanda fəaliyyət göstərən maliyyə təşkilatları üçün mövcud olan əlverişli makroiqtisadi şərait, pul vəsaitləri üzrə müsbət daxilolmalar, əməliyyatların gəlirliliyi və tələb olunduqda mövcud olan maliyyə resurslarından istifadə nəticəsində likvidlik üzrə uyğunsuzluqdan yaranan risklər əhəmiyyətli dərəcədə azalır.

Rəhbərlik hesab edir ki, müştəri hesablarının böyük hissəsinin "tələb edilənədək" statusuna malik olmasına baxmayaraq, həmin vəsaitlərin əmanətçilərin sayına və növünə görə diversifikasiyası, eləcə də Bankın keçmiş təcrübəsi göstərir ki, bu cür vəsaitlər Bankın fəaliyyəti üçün uzunmüddətli və sabit maliyyə mənbəyi yaradır. Yuxarıdakı cədvəldə müştəri hesabları müqavilə üzrə ödəmə müddətlərinə görə göstərilmişdir. Lakin, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq fiziki şəxslər öz depozitləri üzrə hesablanmış faizləri itirmək şərtilə, həmin depozitləri ödəmə müddətindən əvvəl geri götürə bilərlər.

Zəmanətlər və akkreditivlər üzrə likvidlik tələbləri müvafiq öhdəliklərin məbləğindən çox aşağıdır. Belə ki, Bank adətən müqavilələrə əsasən vəsaitlərin üçüncü şəxslər tərəfindən tələb edilməsini proqnozlaşdırmır. Kreditlərin verilməsi üzrə müqavilələrdə nəzərdə tutulan öhdəliklərin ümumi məbləği gələcəkdə ödənilməsi tələb olunan nağd vəsaitləri mütləq şəkildə əks etdirmir. Belə ki, bu cür öhdəliklərin əksər hissəsi onların ödəmə müddətlərinin başa çatmasından əvvəl ləğv oluna bilər.

## 31 Kapitalın İdarə Edilməsi

Bankın kapitalının idarə olunmasında məqsəd (i) Azərbaycan Respublikası Milli Bankının ("ARMB") müəyyən etdiyi kapital tələblərinə riayət edilməsini, (ii) Bankın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin və (iii) Bazel sazişinə uyğun olaraq kapitalın adekvatlığı əmsalının 8% həcmində saxlanılması üçün kifayət qədər kapital bazasının saxlanılmasını təmin etməkdir. Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi kapital adekvatlığı əmsallarına riayət edilməsinə Bankın İdarə Heyəti və Baş mühasibi tərəfindən baxılmış və təsdiqlənmiş müvafiq hesablamalardan ibarət aylıq hesabatlar vasitəsilə nəzarət edilir. Kapitalın idarə olunmasının digər məqsədləri hər il qiymətləndirilir.

ARMB-nin tələblərinə görə hər bir bank və ya bank qrupu: (a) məcmu kapitalın minimal səviyyəsini 10,000 min AZN (31 dekabr 2006: 8,200 min AZN) həcmində saxlamalı; (b) məcmu kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ("məcmu kapitalın adekvatlığı əmsalı") minimum 12% (31 dekabr 2006: 12%) və (c) 1-ci dərəcəli kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ("1-ci dərəcəli kapitalın adekvatlığı əmsalı") minimum 6% (31 dekabr 2006: 6%) və ya yuxarı saxlanılmasını təmin etməlidir.

Rəhbərlik hesab edir ki, Bank 2007 və 2006-cı illər ərzində yerli qanunvericiliyə uyğun hesablanmış kapitalın adekvatlığı əmsallarına riayət etmişdir. 31 dekabr 2007 və 31 dekabr 2006-cı illər üzrə hesablanmış əmsallar aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007** | **31 dekabr 2006** |
|---|---|---|
| **1-ci dərəcəli kapital** | | |
| Nizamnamə kapitalı | 12,000 | 8,400 |
| Bölüşdürülməmiş mənfəət | 1,689 | 437 |
| Tutulmalar | (275) | (210) |
| **Cəmi 1-ci dərəcəli kapital** | **13,414** | **8,627** |
| **2-ci dərəcəli kapital** | | |
| Cari ilin mənfəəti | 3,596 | 2,612 |
| Kapital ehtiyatları | 1,858 | 920 |
| Digər | 50 | 809 |
| **Cəmi 2-ci dərəcəli kapital** | **5,504** | **4,341** |
| **Tutulmalardan əvvəl məcmu kapital** | **18,918** | **12,968** |
| Çıxılsın: İnvestisiyalar | 686 | 540 |
| **Cəmi məcmu kapital** | **18,232** | **12,428** |
| Risk dərəcəsi üzrə ölçülmüş aktivlər: | | |
| Balans üzrə | 126,036 | 65,659 |
| Balansdankənar | 22,547 | 7,969 |
| **Cəmi risk dərəcəsi üzrə ölçülmüş aktivlər:** | **148,583** | **73,628** |
| Risk dərəcəsi üzrə ölçülmüş aktivlərin faiz nisbəti kimi göstərilmiş məcmu kapital ("məcmu kapital əmsalı") | **12.3%** | **16.9%** |
| Risk dərəcəsi üzrə ölçülmüş aktivlərin faiz nisbəti kimi göstərilmiş cəmi 1-ci dərəcəli kapital ("1-ci dərəcəli kapital əmsalı") | **8.4%** | **9.8%** |

## 32 Təəhhüdlər və Şərti Öhdəliklər

***Məhkəmə prosedurları.*** Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Banka qarşı irəli sürülə biləcək iddialarla əlaqədar, Bankın Rəhbərliyi öz təxminlərinə, daxili və xarici peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Bankın əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycanın vergi orqanları qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilər və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilər.

Bunun nəticəsində, Banka qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Bankın mövqeləri qorunacaqdır. Müvafiq olaraq, 31 dekabr 2007-ci il tarixinə hazırkı maliyyə hesabatlarında potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır (31 dekabr 2006: ehtiyat yaradılmamışdır).

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər.*** 31 dekabr 2007-ci il tarixinə Bankın müqavilə üzrə kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır (31 dekabr 2006: kapital məsrəfləri ilə bağlı öhdəliklər olmamışdır).

***Əməliyyat lizinqi ilə bağlı öhdəliklər.*** 31 dekabr 2007-ci il tarixinə Bankın ləğv oluna bilməyən əməliyyat lizinqi ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır (31 dekabr 2006: sıfır).

***Xüsusi şərtlərə riayət olunması.*** Bank əsasən aldığı borc vəsaitləri üzrə müqavilələrdə nəzərdə tutulan xüsusi şərtlərə riayət etmək məcburiyyətindədir. Bu cür xüsusi şərtlərə əməl edilməməsi Bank üçün mənfi nəticələrə, o cümlədən borc vəsaitləri ilə əlaqədar xərclərin artmasına və ödəmə müddətinin dəyişməsinə gətirib çıxara bilər. Rəhbərlik hesab edir ki, Bank il ərzində qüvvədə olan borc vəsaitləri üzrə müqavilələrdə nəzərdə tutulan xüsusi şərtlərə riayət etmişdir. Buna baxmayaraq, 30 saylı Qeyddə açıqlandığı kimi Bank yalnız qüvvədə olan forvard müqavilələrini nəzərə almaqla, ARMB-nin açıq valyuta mövqeyi üzrə tələblərinə uyğun olduğunu hesab edir. Həmin müqavilələr hazırkı maliyyə hesabatlarının hazırlanması zamanı uçota alınmamışdır. ARMB-nin açıq valyuta mövqeyi üzrə tələbləri və BMHS-ə uyğun şəkildə hazırlanmış hesabatlar əsasında hesablanmış maksimum iyirmi beş faizlik limit, Bankın müəyyən borcverənlərlə bağlanmış müqavilələrdəki xüsusi şərtlərin predmetidir. Bankın 31 dekabr 2006-cı il tarixinə və 31 dekabr 2007-ci il tarixində tamamlanan il ərzində müəyyən vaxtlarda həmin xüsusi şərtlərə əməl etmədiyi hesab edilir. 31 dekabr 2007-ci il tarixinə müqavilələrdə nəzərdə tutulan açıq valyuta mövqeyi ilə əlaqədar xüsusi şərtlərə əməl edilməməsinin ümumi borc vəsaitlərinə təsiri sıfır AZN (31 dekabr 2006: 6,413 min AZN) olmuşdur.

31 dekabr 2007-ci il tarixində tamamlanan il ərzində Bank forvard valyuta müqavilələri imzalamışdır. Rəhbərlik hesab edir ki, bu müqavilələr Beynəlxalq Maliyyə Hesabatı Standartlarında nəzərdə tutulan forvard müqaviləsi tərifinə tam cavab verir. Həmin müqavilələr, Bankın açıq valyuta mövqeyi üzrə məruz qaldığı riskin azaldılmasında effektiv hesab edildiyi üçün Rəhbərlik 1 aprel 2007-ci il tarixindən 31 dekabr 2007-ci il tarixinə qədər dövr ərzində müqavilələrdə nəzərdə tutulan açıq valyuta mövqeyi ilə əlaqədar xüsusi şərtlərə tam əməl etdiyini hesab edir.

Bundan əlavə, 31 dekabr 2007-ci il tarixində tamamlanan il ərzində Bank bəzi borcverənlərlə bağlanmış kredit müqavilələrində nəzərdə tutulan əlaqəli tərəflərə verilmiş məcmu kreditlərin maksimim miqdarı və likvidlik əmsalları kimi bəzi tələblərə əməl etməmişdir. Bununla əlaqədar, müvafiq maliyyə təşkilatları tərəfindən hər hansı tədbir görülməmiş və ya sanksiya tətbiq edilməmişdir. Bank bu pozuntu hallarını aradan qaldırmaq üçün zəruri tədbirlər görmüşdür. 31 dekabr 2007-ci il tarixinə əlaqəli tərəflərə verilmiş məcmu kreditlərin maksimim miqdarı və likvidlik əmsalları kimi xüsusi şərtlərə əməl olunmaması müvafiq olaraq 4,818 min AZN və 2,874 min AZN (31 dekabr 2006: sıfır) məbləğində borc vəsaitlərinə təsir göstərmişdir.

## 32 Təəhhüdlər və Şərti Öhdəliklər (davamı)

Bankın ilin axırından sonra 120 gün ərzində illik maliyyə hesabatlarını hazırlaması tələb olunur. Bank, 31 dekabr 2006-cı il tarixində tamamlanan il üzrə bu tələbi yerinə yetirmək iqtidarında olmamışdır.

Həmin müqavilələrə əsasən xüsusi şərtlərə əməl olunmadıqda, borc vəsaitlərinin tələb edildikdə ödənilməsi nəzərdə tutulur. 31 dekabr 2006-cı il tarixinə təsirə məruz qalmış borc məbləğləri hazırkı maliyyə hesabatlarında "tələb edildikdə ödənilən" kateqoriyasına daxil edilmişdir.

***Kreditlərlə bağlı öhdəliklər.*** Bu maliyyə alətlərinin əsas məqsədi lazım olduqda müştərilərə maliyyə vəsaitlərinin təqdim edilməsini təmin etməkdir. Müştərinin üçüncü tərəflər qarşısında öz öhdəliklərini yerinə yetirə bilməyəcəyi halda, Bankın ödənişlər aparması ilə bağlı mütləq öhdəlikləri əks etdirən zəmanətlər və zəmanət akkreditivləri kreditlərlə eyni kredit risk daşıyır. Müəyyən şərtlər çərçivəsində müştərilər adından nəzərdə tutulan məbləğlərdə ödənişlərin həyata keçirilməsi üzrə Bankın yazılı öhdəliklərini əks etdirən sənədli və kommersiya akkreditivlərinə müvafiq mal təchizatı və ya nağd pul depozitləri formasında təminat alınır. Həmin sənədli və kommersiya akkreditivləri birbaşa kreditləşdirmə ilə müqayisədə az risk daşıyır.

Kreditlərin təqdim edilməsi üzrə öhdəliklərə kreditlər, zəmanətlər və ya akkreditivlər formasında kreditlərin verilməsi üçün rəhbərlik tərəfindən təsdiqlənməmiş məbləğlərin istifadə edilməyən hissəsi daxildir. Kreditlərin verilməsi üzrə öhdəliklər ilə əlaqədar, Bank potensial olaraq istifadə edilməmiş öhdəliklərin ümumi məbləğinə bərabər məbləğdə zərərin yaranması riskinə məruz qalır. Lakin, kreditlərin verilməsi üzrə öhdəliklərin böyük hissəsi müştərilərin ödəmə qabiliyyəti ilə bağlı müəyyən tələblərə əməl etməsindən asılı olduğuna görə, ehtimal edilən zərərlərin məbləği istifadə edilməmiş öhdəliklərin ümumi məbləğindən azdır. Adətən uzunmüddətli öhdəliklər qısamüddətli öhdəliklər ilə müqayisədə daha yüksək kredit riskinə malik olduğu üçün, Bank kreditlərlə bağlı öhdəliklərin ödəmə müddətinə qədər qalan müddətə nəzarət edir.

İlin sonuna kreditlərlə bağlı öhdəliklər aşağıdakı kimi olmuşdur:

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007** | **31 dekabr 2006** |
|---|---|---|
| Təxirə salına bilən istifadə edilməmiş kredit xətləri | 4,901 | 2,982 |
| İdxal akkreditivləri | 11,047 | 957 |
| Verilmiş zəmanətlər | 6,241 | 3,881 |
| **Cəmi kreditlərlə bağlı öhdəliklər** | **22,189** | **7,820** |

İstifadə edilməmiş kredit xətləri, akkreditivlər və zəmanətlər üzrə müqavilədə nəzərdə tutulan ümumi borc məbləği mütləq şəkildə pul vəsaitləri üzrə gələcək tələbləri əks etdirmir, belə ki, həmin öhdəliklərin müddəti borcalana vəsaitlər təqdim edilmədən başa çata və ya ləğv oluna bilər. 31 dekabr 2007-ci il tarixinə kreditlərlə bağlı öhdəliklərin ədalətli dəyəri 453 min AZN (31 dekabr 2007: 228 min AZN) təşkil etmişdir. Kreditlərlə bağlı öhdəliklər aşağıdakı valyutalarda ifadə olunmuşdur:

| *Min Azərbaycan Manatı ilə* | **31 dekabr 2007** | **31 dekabr 2006** |
|---|---|---|
| Azərbaycan manatı | 4,907 | 1,330 |
| ABŞ dolları | 11,207 | 5,734 |
| Avro | 6,075 | 756 |
| **Cəmi** | **22,189** | **7,820** |

## 33 Maliyyə Alətlərinin Ədalətli Dəyəri

Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Bank tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

***Ədalətli dəyərdə qeydə alınan maliyyə alətləri.*** Satıla bilən investisiya qiymətli kağızları, 9 saylı Qeyddə başqa hal nəzərdə tutulmadıqda, balans hesabatında ədalətli dəyərdə qeydə alınır.

Ədalətli dəyər müstəqil bazar qiymətləri mövcud olmayan bəzi satıla bilən investisiya qiymətli kağızları istisna olmaqla, kvota olunmuş bazar qiymətlərinə əsasən hesablanır. Bank bu cür investisiya qiymətli kağızlarının ədalətli dəyərini müəyyən edərkən investisiya qoyulan müəssisələrin iştirak payının əlaqəli olmayan üçüncü tərəflərə son dövrdəki satış nəticələrinə, investisiya qoyulan müəssisələrin diskont edilmiş pul vəsaitlərinin hərəkəti və maliyyə göstəriciləri kimi mövcud məsələyə aid müvafiq məlumatların təhlilinə və digər qiymətləndirmə metodologiyalarının tətbiqi nəticələrinə əsaslanır. Qiymətləndirmə üsullarının tətbiqi zamanı müşahidə edilə bilən bazar məlumatları ilə əsaslandırılmayan bəzi fərziyyələrin irəli sürülməsi tələb edilir. Bu fərziyyələrin hər hansı birinin mümkün alternativ variantla əvəz edilməsi mənfəət, gəlir, aktiv və passivlərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olmur.

Pul vəsaitləri və onların ekvivalentləri təxminən onların cari ədalətli dəyərinə bərabər olan amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

***Amortizasiya olunmuş maya dəyərində qeydə alınan kreditlər və debitor vorcları.*** Sürüşkən faiz dərəcəli maliyyə alətlərinin ədalətli dəyəri onların balans dəyərinə bərabərdir. Sabit faiz dərəcəli maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır. İstifadə edilmiş diskont dərəcələri qarşı tərəfin valyuta, alətin ödəmə müddəti və kredit riskindən asılıdır. Bu dərəcələrin təhlili aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **31 d 2007** | **31 d 2006** |
|---|---|---|
| *Digər banklardan alınacaq vəsaitlər – Qeyd 7* | | |
| Digər banklarda yerləşdirilmiş ilkin ödəmə müddəti üç aydan çox olan qısamüddətli depozitlər | illik 4 % to 19% | illik 13 % - 14 % |
| *Müştərilərə verilmiş kreditlər və avanslar – Qeyd 8* | | |
| Korporativ kreditlər | illik 7% - 30% | illik 7 % - 36 % |
| Fiziki şəxslərə verilmiş istehlak kreditləri | illik 12% - 38% | illik 12 % - 34 % |
| Sahibkarlara verilmiş kreditlər | illik 7% - 30% | illik 7 % - 26 % |
| İpoteka kreditləri | illik 4% - 30% | illik 12 % - 36 % |
| Dövlət müəssisələri və bələdiyyə təşkilatları | illik 18% - 24% | illik 20 % - 21 % |

***Amortizasiya olunmuş maya dəyərində qeydə alınan passivlər.*** Buraxılmış borc qiymətli kağızların ədalətli dəyəri kvota olunmuş bazar qiymətlərinə əsaslanır. 16 saylı Qeydə baxın. Müəyyən edilmiş ödəmə müddətinə malik olmayan maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri tələb edildikdə ödənilən məbləğ kimi hesablanır. Bazar qiymətləri mövcud olmayan sabit faiz dərəcəli maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri, analoji kredit riskinə və yerdə qalan ödəmə müddətinə malik yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır.

## 33 Maliyyə Alətlərinin Ədalətli Dəyəri (davamı)

Maliyyə alətlərinin ədalətli dəyəri aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 Balans dəyəri | 31 dekabr 2007 Ədalətli dəyər | 31 dekabr 2006 Balans dəyəri | 31 dekabr 2006 Ədalətli dəyər |
|---|---|---|---|---|
| **Pul vəsaitləri və onların ekvivalentləri** | **24,305** | **24,305** | **15,056** | **15,056** |
| **ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar** | **4,626** | **4,626** | **3,664** | **3,664** |
| **Digər banklardan alınacaq vəsaitlər** | **2,043** | **2,043** | **3,841** | **3,841** |
| - Digər banklarda yerləşdirilmiş ilkin ödəmə müddəti üç aydan çox olan qısamüddətli depozitlər | 1,485 | 1,485 | 3,488 | 3,488 |
| - Qeyri-rezident banklardakı bloklaşdırılmış hesablar | 558 | 558 | 353 | 353 |
| **Müştərilərə verilmiş kreditlər və avanslar** | **107,866** | **107,866** | **53,332** | **53,332** |
| - Korporativ kreditlər | 52,539 | 52,539 | 33,180 | 33,180 |
| - Fiziki şəxslərə verilmiş istehlak kreditləri | 33,216 | 33,216 | 12,897 | 12,897 |
| - Sahibkarlara verilmiş kreditlər | 5,403 | 5,403 | 2,356 | 2,356 |
| - İpoteka kreditləri | 8,742 | 8,742 | 2,173 | 2,173 |
| - Avtomobillərin alınması | 4,599 | 4,599 | 2,619 | 2,619 |
| - Dövlət müəssisələri və bələdiyyə təşkilatları | 2,669 | 2,669 | 107 | 107 |
| - Digər | 698 | 698 | - | - |
| **Satıla bilən investisiya qiymətli kağızları** | **386** | **386** | **4,082** | **4,082** |
| - ARMB-nin notları | - | - | 3,513 | 3,513 |
| - Rezident bankların təminatsız istiqrazları | - | - | 221 | 221 |
| - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqraz vərəqələri | - | - | 108 | 108 |
| - Kotirovka olunmuş korporativ səhmlər | 386 | 386 | 240 | 240 |
| **Digər maliyyə aktivləri** | **233** | **233** | **141** | **141** |
| Kredit və debet kartları üzrə debitor borcları | 133 | 133 | 82 | 82 |
| Konvertasiya əməliyyatları üzrə hesablaşmalar | 100 | 100 | 59 | 59 |
| **Cəmi maliyyə aktivləri** | **139,459** | **139,459** | **80,116** | **80,116** |

## 33 Maliyyə Alətlərinin Ədalətli Dəyəri (davamı)

| *Min Azərbaycan Manatı ilə* | 31 dekabr 2007 Balans dəyəri | 31 dekabr 2007 Ədalətli dəyər | 31 dekabr 2006 Balans dəyəri (düzəl-dilmiş) | 31 dekabr 2006 Ədalətli dəyər (düzəl-dilmiş) |
|---|---|---|---|---|
| ***Digər banklara ödəniləcək vəsaitlər*** | **12,902** | **12,902** | **272** | **272** |
| - Digər bankların qısamüddətli depozitləri | 12,140 | 12,140 | - | - |
| - Digər bankların müxbir hesabları və overnayt depozitləri | 762 | 762 | 272 | 272 |
| ***Müştəri hesabları*** | **96,115** | **96,115** | **57,442** | **57,442** |
| - Dövlət müəssisələri və ictimai təşkilatların cari/hesablaşma hesabları | 773 | 773 | 498 | 498 |
| - Dövlət müəssisələri və ictimai təşkilatların müddətli depozitləri | 2 | 2 | 26 | 26 |
| - Digər hüquqi şəxslərin cari/hesablaşma hesabları | 14,841 | 14,841 | 12,322 | 12,322 |
| - Digər hüquqi şəxslərin müddətli depozitləri | 20,475 | 20,475 | 4,244 | 4,244 |
| - Digər hüquqi şəxslərin bloklaşdırılmış müştəri hesabları | 1126 | 1126 | 638 | 638 |
| - Fiziki şəxslərin cari/tələbli hesabları | 14,506 | 14,506 | 11,647 | 11,647 |
| - Fiziki şəxslərin müddətli depozitləri | 41,493 | 41,493 | 26,862 | 26,862 |
| - Fiziki şəxslərin bloklaşdırılmış müştəri hesabları | 2899 | 2899 | 1205 | 1205 |
| ***Buraxılmış borc qiymətli kağızları*** | **3,295** | **3,295** | **553** | **553** |
| - İstiqrazlar | 3,295 | 3,295 | 553 | 553 |
| ***Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri*** | **24,601** | **24,601** | **14,563** | **14,563** |
| Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan alınmış borc vəsaitləri | 12,072 | 12,072 | 7,277 | 7,277 |
| Asiya İnkişaf Bankından (AİB) borc götürülmüş vəsaitlər | 4,954 | 4,954 | 3,051 | 3,051 |
| Avropa Yenidənqurma və İnkişaf Bankından (AYİB) borc götürülmüş vəsaitlər | 3,320 | 3,320 | - | - |
| Beynəlxalq Maliyyə Korporasiyasından (BMK) borc götürülmüş vəsaitlər | 2,955 | 2,955 | 3,362 | 3,362 |
| Azərbaycan İpoteka Fondundan borc götürülmüş vəsaitlər | 852 | 852 | - | - |
| Almaniya-Azərbaycan Fondundan (AAF) borc götürülmüş vəsaitlər | 448 | 448 | 473 | 473 |
| ARMB-dən borc götürülmüş vəsaitlər | - | - | 400 | 400 |
| ***Digər maliyyə passivləri*** | **774** | **774** | **194** | **194** |
| Hesablanmış digər öhdəliklər | 148 | 148 | 62 | 62 |
| Ödəniləcək dividendlər | 39 | 39 | 19 | 19 |
| Ödənilməkdə olan məbləğlər | 587 | 587 | 106 | 106 |
| Digər | - | - | 7 | 7 |
| **Cəmi maliyyə passivləri** | **137,687** | **137,687** | **73,024** | **73,024** |

İşçilər üzrə kreditor borcları ilə əlaqədar əvvəlki dövrün müqayisəli rəqəmləri düzəldilmişdir. 3 saylı Qeydə baxın.

## 34 Maliyyə Alətləri Növlərinin Qiymətləndirmə Kateqoriyaları ilə Üzləşdirilməsi

BMS 39, *Maliyyə Alətləri: Tanınması və Ölçülməsi* Standartına uyğun olaraq Bank öz maliyyə aktivlərini aşağıdakı kateqoriyalara təsnifləşdirir: (a) kreditlər və debitor borcları; (b) satıla bilən maliyyə aktivləri; (c) ödəniş tarixinədək saxlanılan maliyyə aktivləri və (d) mənfəət və zərər hesabında ədalətli dəyərdə əks etdirilən maliyyə aktivləri ("MZHƏD"). 31 dekabr 2007-ci il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Kreditlər və debitor borcları** | **Satıla bilən aktivlər** | **Cəmi** |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Pul vəsaitləri və onların ekvivalentləri** | **24,305** | **-** | **24,305** |
| **ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar** | **4,626** | **-** | **4,626** |
| **Digər banklardan alınacaq vəsaitlər** | **2,043** | **-** | **2043** |
| - Digər banklarda yerləşdirilmiş ilkin ödəmə müddəti üç aydan çox olan qısamüddətli depozitlər | 1,485 | - | 1,485 |
| - Qeyri-rezident banklardakı bloklaşdırılmış hesablar | 558 | - | 558 |
| **Müştərilərə verilmiş kreditlər və avanslar** | **107,866** | | **107,866** |
| - Korporativ kreditlər | 52,539 | - | 52,539 |
| - Fiziki şəxslərə verilmiş istehlak kreditləri | 33,216 | - | 33,216 |
| - Sahibkarlara verilmiş kreditlər | 5,403 | - | 5,403 |
| - İpoteka kreditləri | 8,742 | - | 8,742 |
| - Avtomobillərin alınması | 4,599 | - | 4,599 |
| - Dövlət müəssisələri və bələdiyyə təşkilatları | 2,669 | - | 2,669 |
| - Digər | 698 | - | 698 |
| **Satıla bilən investisiya qiymətli kağızları** | **-** | **386** | **386** |
| - ARMB-nin notları | - | - | - |
| - Rezident bankların təminatsız istiqrazları | - | - | - |
| - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqraz vərəqələri | - | - | - |
| - Korporativ səhmlər | - | 386 | 386 |
| **Digər maliyyə aktivləri** | **233** | **-** | **233** |
| Kredit və debet kartları üzrə debitor borcları | 133 | - | 133 |
| Konvertasiya əməliyyatları üzrə hesablaşmalar | 100 | - | 100 |
| **Cəmi maliyyə aktivləri** | **139,073** | **386** | **139,459** |
| **Qeyri-maliyyə aktivləri** | | | **17,319** |
| **Cəmi aktivlər** | | | **156,778** |

## 34 Maliyyə Alətləri Növlərinin Qiymətləndirmə Kateqoriyaları ilə Üzləşdirilməsi (davamı)

31 dekabr 2006-cı il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | Kreditlər və debitor borcları | Satıla bilən aktivlər | Cəmi |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Pul vəsaitləri və onların ekvivalentləri** | **15,056** | **-** | **15,056** |
| **ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar** | **3,664** | **-** | **3,664** |
| **Digər banklardan alınacaq vəsaitlər** | **3,841** | **-** | **3,841** |
| - Digər banklarda yerləşdirilmiş ilkin ödəmə müddəti üç aydan çox olan qısamüddətli depozitlər | 3,488 | - | 3,488 |
| - Qeyri-rezident banklardakı bloklaşdırılmış hesablar | 353 | - | 353 |
| **Müştərilərə verilmiş kreditlər və avanslar** | **53,332** | **-** | **53,332** |
| - Korporativ kreditlər | 33,180 | - | 33,180 |
| - Fiziki şəxslərə verilmiş istehlak kreditləri | 12,897 | - | 12,897 |
| - Sahibkarlara verilmiş kreditlər | 2,356 | - | 2,356 |
| - İpoteka kreditləri | 2,173 | - | 2,173 |
| - Avtomobillərin alınması | 2,619 | - | 2,619 |
| - Dövlət müəssisələri və bələdiyyə təşkilatları | 107 | - | 107 |
| - Digər | - | - | - |
| **Satıla bilən investisiya qiymətli kağızları** | **3,842** | **240** | **4,082** |
| - ARMB-nin notları | 3,513 | - | 3,513 |
| - Rezident bankların təminatsız istiqrazları | 221 | - | 221 |
| - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin istiqraz vərəqələri | 108 | - | 108 |
| - Korporativ səhmlər | - | 240 | 240 |
| **Digər maliyyə aktivləri** | **141** | **-** | **141** |
| Kredit və debet kartları üzrə debitor borcları | 82 | - | 82 |
| Konvertasiya əməliyyatları üzrə hesablaşmalar | 59 | - | 59 |
| **Cəmi maliyyə aktivləri** | **79,876** | **240** | **80,116** |
| **Qeyri-maliyyə aktivləri** | | | **7,179** |
| **Cəmi aktivlər** | | | **87,295** |

## 35 Derivativ Maliyyə Alətləri

Bank tərəfindən bağlanmış forvard müqavilələri (31 dekabr 2006: sıfır) üzrə debitor və ya kreditor borclarının ədalətli dəyərinin 31 dekabr 2007-ci il tarixinə valyutalar üzrə bölgüsü aşağıdakı cədvəldə göstərilir. Cədvəl qarşı tərəfin vəziyyətinin əvəzləşdirilməsindən (və ödənilməsindən) əvvəlki məcmu vəziyyəti göstərir və müvafiq balans tarixindən sonra əməliyyatları başa çatan müqavilələri özündə əks etdirir. Bağlanmış forvard müqavilələri qısamüddətli xarakter daşıyır.

| *Min Azərbaycan Manatı ilə* | İlk tarix | Son tarix | Gəlir/ (zərər) |
|---|---|---|---|
| 3,550 min ABŞ dollarının alınması və 3,011 min AZN-in satılmasına dair müqavilə | 24.12.2007 | 07.01.2008 | (10) |
| 3,000 min ABŞ dollarının alınması və 2,534 min AZN-in satılmasına dair müqavilə* | 03.12.2007 | 07.12.2008 | 2 |
| 6,000 min Avronun alınması və 7,470 min AZN-in alınmasına dair müqavilə* | 03.12.2007 | 07.01.2008 | 7 |
| 5,800 min ABŞ dollarının alınması və 4,904 min AZN-in alınmasına dair müqavilə* | 24.12.2007 | 07.01.2008 | 1 |
| **Cəmi valyuta forvard müqavilələri** | | | - |

Əlaqəli tərəf ilə bağlanmış müqavilələr (*) ilə göstərilir və 36 saylı Qeyddə açıqlanır. Digər müqavilə Azərbaycanda ən böyük 15 rezident bankdan biri ilə imzalanmışdır.

## 36 Əlaqəli Tərəflərlə Əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni qrupun nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

31 dekabr 2007-ci il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər və avansların ümumi məbləği (müqavilə üzrə faiz dərəcəsi: 12%- 26%) | 102 | 730 | 816 | 2,147 |
| Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşu | - | - | 294 | - |
| Cari/hesablaşma hesabları (müqavilə üzrə faiz dərəcəsi: 0) | 2,606 | 1,064 | - | 12 |
| Müddətli depozitlər (müqavilə üzrə faiz dərəcəsi: 7% – 14%) | 9,44 | 518 | - | 454 |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri (müqavilə üzrə faiz dərəcəsi: LİBOR +4.25%) | 2,874 | - | - | - |
| İstifadə edilməmiş məzuniyyətə görə ödənişlər | - | 345 | - | - |

31 dekabr 2007-ci il tarixində tamamlanan il üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| Faiz gəlirləri | - | 31 | 164 | 282 |
| Faiz xərcləri | 941 | 55 | 46 | - |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | - | 6 | 2 | 17 |
| Haqq və komissiya gəlirləri | 1 | 4 | 7 | 12 |
| Assosiasiya olunmuş müəssisələrin zərərində pay | - | - | (6) | - |

31 dekabr 2007-ci il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə digər hüquq və öhdəliklər aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| İlin sonuna Bank tərəfindən açılmış zəmanətlər | - | - | - | 1,089 |
| Forvard müqavilələri | 14,908 | - | - | - |
| Digər öhdəliklər | - | - | 353 | - |

Bağlanmış forvard müqavilələri haqqında məlumat 35 saylı Qeyddə açıqlanır.

## 36 Əlaqəli Tərəflərlə Əməliyyatlar (davamı)

31 dekabr 2006-cı il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər və avansların ümumi məbləği (müqavilə üzrə faiz dərəcəsi: 13%- 24%) | 421 | 603 | 717 | 310 |
| Müştərilərə verilmiş kreditlər və avanslar üzrə dəyərsizləşmə üçün ehtiyat | (7) | (12) | (14) | (6) |
| Assosiasiya olunmuş müəssisələrə investisiya qoyuluşu | - | - | 302 | - |
| Cari/hesablaşma hesabları (müqavilə üzrə faiz dərəcəsi: 0) | 140 | 87 | - | - |
| Müddətli depozitlər (müqavilə üzrə faiz dərəcəsi: 7% – 13%) | 4,457 | - | - | - |
| Dövlət və beynəlxalq maliyyə təşkilatlarından alınmış borc vəsaitləri (müqavilə üzrə faiz dərəcəsi: LİBOR +4.25%) | 3,362 | - | - | - |
| İstifadə edilməmiş məzuniyyətə görə ödənişlər | - | 345 | - | - |

31 dekabr 2006-cı il tarixində tamamlanan il üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| Faiz gəlirləri | 31 | 59 | 69 | 16 |
| Faiz xərcləri | 779 | - | - | - |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | 1 | 13 | 14 | - |
| Haqq və komissiya gəlirləri | 3 | 4 | - | - |
| Assosiasiya olunmuş müəssisələrin zərərində pay | - | - | 8 | - |

31 dekabr 2006-cı il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə digər hüquq və öhdəliklər aşağıda göstərilir:

| *Min Azərbaycan Manatı ilə* | **Əsas səhmdarlar** | **Baş rəhbərlik** | **Assosiasiya olunmuş müəssisələr** | **Digər əlaqəli tərəflər** |
|---|---|---|---|---|
| İlin sonuna Bank tərəfindən açılmış zəmanətlər | - | 10 | - | - |
| Digər öhdəliklər | - | 170 | - | - |

Bankın əsas səhmdarı cənab Çingiz Əsədullayevdir (2006: cənab Çingiz Əsədullayev).

Baş rəhbərliyə ödənişlər haqqında məlumat aşağıda təqdim edilir:

| *Min Azərbaycan Manatı ilə* | **2007** | **2006** |
|---|---|---|
| *Qısamüddətli ödənişlər:* | | |
| - Əmək haqqı | 199 | 242 |
| - Qısamüddətli mükafatlar | 294 | 101 |
| **Cəmi** | **493** | **343** |